*Şamil QURBANOV*

Ш5
Q-89

# MƏMMƏD ƏMİN RƏSULZADƏ

227422

M. F. Axundov adına
Azərbaycan Dövlət
Ki AS ANASI

*Bakı - 2001*

*Üz qabığındakı rəsmin müəllifi*
**Oqtay Sadıqzadədir**

Ş.Qurbanov.
**Məmməd Əmin Rəsulzadə**
*Bakı, Nurlan, 2001, 132 səh.(kitab müəllifin öz redaktəsi ilə çap olunur)*

*Kitab filologiya elmləri doktoru, professor Şamil Qurbanovun Azərbaycan Demokratik Respublikasının yaradıcılarından biri Məmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığına həsr olunmuşdur. İnanırıq ki, bu əsər şanlı tariximizin ən maraqlı səhifələrini bir daha diqqətlə izləmək və öyrənmək istəyən oxucularımız üçün maraqlı olacaqdır.*

Q $\frac{4603000000}{098\text{-}2001}$ Qrifli nəşr

© *Nurlan, 2001*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 80 İLLİYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMINDAN

***Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlayliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.***

***Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış kəskin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.***

**Heydər ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti




# GİRİŞ ƏVƏZİ

XX əsr Azərbaycan xalqının oyanma dövrüdür. Bu vaxta qədər gah İranın, gah da Rusiyanın təsiri altında qalmış, soyulub soğana dönmüş Azərbaycan yavaş-yavaş özünə gəlmiş, keçən əsrdə M.F.Axundov və H.Zərdabi ənənələri üzərində möhkəmlənmiş, yeni əsrin lap əvvəllərində, xüsusən 1905-ci il inqilabından sonra o, silkələnib oyanmış və bu proses durmadan irəliləmişdir. Bunu Ə.Ağayev, N.Nərimanov, C.Məmmədquluzadə, Ömər Faiq, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə kimi cavan ziyalılarımızda açıq-aşkar şəkildə görmək mümkündür. Bunların hamısı cavan idi. Amma böyük əksəriyyəti Rusiyanın mədəni mərkəzlərində, Avropada, Türkiyədə təhsil almış gözüaçıq adamlar idi. Onlar xalqı oyatmaq, inkişaf yollarına çıxarmaq üçün fədakarlıqla mübarizə aparırdılar. Bunların içərisində ən stajlı publisist Əhmədbəy Ağayev idi. O, rus mətbuatında çox yazırdı, sözünü açıq deyirdi. Xüsusən dinə münasibətdə Əhmədbəy Ağayev başqalarından fərqlənirdi. O, xurafata qarşı mübarizə aparsa da dini tamam inkar etmir və yazırdı: "İslam xaricində bizə nicat yoxdur".*

O, axıra qədər də bu istiqamətdə getdi, fikrini açıq dedi.

Tək bircə dəfə Əhmədbəy Ağayev yumora keçdi. 1904-cü ildə "Kaspi" qəzetində çap etdirdiyi "Azərbay-

* **"Həyat" qəzeti, 7 iyun 1905-ci il.**

can qadınlarının beşik nəğməsi" məqaləsi məhz yumorla yazılmışdır.

İndiyə qədər Əhmədbəy yumorla yazmamışdı. On il idi ki, yazıb-yaradırdı, amma yazıları ciddi idi, o məcaza getmirdi. Bundan sonra da onun Azərbaycan və rus dillərində nəşr etdirdiyi qəzetlərdə, başqa dövri mətbuatda odlu-alovlu çıxışları oldu (həm Türkiyədə, həm Azərbaycanda). Yenə də yumorla yazmadı. Bu baxımdan məqalə onun müəllifinin bütün əvvəlki, hətta sonrakı yazılarından da fərqlənirdi. Əhmədbəyin rəmzə keçməyi, daha doğrusu bircə dəfə rəmzlə yazmağı Azərbaycanın o zamankı qabaqcıl ziyalılarının qarşısında dərhal geniş üfüqlər açdı və əsas mübarizə formalarından biri tapıldı.

Əhmədbəyə görə Azərbaycan qadınları öz körpəsinə o zaman belə layla çalırdı: "Yat, mənim balam, yuxula! Sənin bütün həyatın, vəzifən yatmaqdan ibarət olmalıdır. Görürsən hamı şirin yuxudadır, atan da, qardaşların da, əmi və xalaların da, hətta itimiz də yatır, sən də yat! Axı, sən bütün həyatın boyu yatmalısan: gələcəkdə sən tacirmi olacaqsan, yoxsa üləma, bəy, ya xan - bunun heç bir fərqi yoxdur, həyatda heç nəyə qadir olmayacaqsan, yalnız mənə əzab verəcəksən, mənim ürəyimi parçalayacaqsan. Sənin xoşbəxtliyin, bütün Şərqin xoşbəxtliyi yalnız yatmaqdan, həyata göz yummaqdan, boğucu varlıqdan uzaqlaşmaqdan ibarətdir. Bunu isə ancaq yatmaqla əldə etmək olar. Bəs belə, yat, yat gözümün işığı, yat, bərk yat, heç başını



qaldırma. Şərqdə hələlik heç bir işartı, heç bir şəfəq görünmür".*

Bu sözlərdə nə qədər acı kədər, gizli hüzn, dərin iztirab vardır. Müəllifin daxili göz yaşlarını da, kədər və qəm yükünü də hiss etmək çətin deyildir.

Amma bir məsələ vardır ki, həmin məqalə çap olunandan ikicə həftə sonra Krımdan, Alupkadan "Müsəlmanların dostu" imzası ilə bir məqalə gəldi. "Yatmış Şərqi necə oyatmalı?" adlanan həmin məqalədə deyilirdi: "Yox, canlı insan üçün əbədi yuxuya getmək olmaz. Əbədi yuxu ölüm deməkdir. Hələlik Şərq yalnız yuxuda ömür sürür. Onu oyatmaq üçün vasitə tapmaq lazımdır... Yatanı oyatmaq üçün səbrlə elə etmək lazımdır ki, yuxulayan adam özü hiss etsin ki, yatmaq ona zərərdir".

Əhmədbəy də daxil olmaqla Azərbaycanın o zamankı bütün qabaqcıl ziyalıları xalqı qəflət yuxusundan oyatmaq üçün əsrin ilk illərindən vasitə axtarırdılar. Vasitələr, yollar bir-birindən fərqlənsə də, məqsəd bir idi: xalqı oyatmaq, onu inkişaf etmiş xalqların səviyyəsinə qaldırmaq.

"Müsəlmanların dostu" Azərbaycan xalqını oyatmaq istəyən gənc qüvvələrə bu nəcib işin həyata keçməsi üçün belə bir tövsiyə də edirdi: "Savadsız qardaşlarınızı daha çox sevin. Yatmış Şərq üçün maarif şəfəqi ancaq o zaman doğa bilər".

Bizim o zamankı yeni ruhlu gənc qüvvələri, xüsusən N.Nərimanovu, Ə.Ağayevi, M.Ə.Rəsulzadəni,

*** А.Агаев. Калыбелная песня мусульманки. "Каспи" qəzeti, 15 dekabr, 1904.**

C.Məmmədquluzadəni, Ə.Hüseynzadəni, Ömər Faiqi bu yeni həyat uğrunda mübarizə meydanına atan da bu sevgi, bu məhəbbət idi. N.Nərimanov yazırdı: "Mən millətimi sevirəm, çünki anamı sevirəm". Anasını sevməyən adam millətini sevə bilməz.

Vaxtilə Ə.Ağayevin müəllimi Cəmaləddin Əfqani öz şagirdi, yeni türk şerinin banisi Məmməd Əmin Yurdaqula demişdi: "Sizdə nə zaman öz şəxsi mənliyini unudub və bədənləri özlərinə mənsub olmayan insanlar yetişərsə, o zaman qara gününüz ağ olacaq, düşdüyünüz yerdən qalxacaqsınız".

Bizim ziyalılarımız da məhz həmin qəbildən olan adamlar idi. Onlar həmvətənlərinin "qara gününü ağ etmək", "düşdüyü yerdən qaldırmaq" üçün xalqın qabağında şam kimi əriyirdilər. Onların məqsədi, amalı bir olsa da, tutduqları yol müxtəlif idi. Satirik yolu tutanlar "Molla Nəsrəddin" jurnalı ətrafında, müstəqil yolu seçənlər "Həyat", "İrşad", "Tərəqqi", "Füyuzat" ətrafında birləşirdilər.

"Torpaq" adı altında jurnal çıxartmağa hazırlaşan C.Məmmədquluzadə və Ömər Faiq Nemanzadə tez fikirlərindən dönmüş və "Molla Nəsrəddin" adında ilk yumoristik jurnalı nəşrə başladılar. "Molla Nəsrəddin" jurnalının birinci nömrəsinin üz qabığında yatmış azərbaycanlının alman rəssamı Tiflisdə yaşayan Şmerling tərəfindən çəkilmiş bariz nümunəsi verilmişdir: Hamı yatır, bircə nəfər oyanıb, o da şıllaq atır. Bir neçə nömrə sonra yenə də milliyyət etibarilə alman olan Rotter yatmış azərbaycanlının iki karikaturasını vermişdir. Onların birində azərbaycanlı yuxudan ayılır, amma oturmuş vəziyyətdədir, ikincidə isə elə otura-otura gözlərini açır. Jurnal hər ikisinin aldığı vəziyyətə görə rusca və azərbaycanca yazır: allaha şükür, müsəlman oyanır, ikincisində isə "həm də gözlərini açır".

1906-cı ildən bu istiqamətdə gedən, ətrafına demokratik qüvvələri toplayıb bütün Şərqə yayılan "Molla Nəsrəddin" jurnalının Azərbaycan xalqının həyatında necə böyük rol oynadığı aydındır.

Müstəqil yolu tutanlar içərisində M.Ə.Rəsulzadə xüsusilə seçilirdi. Təsadüfi deyildir ki, uzun müddət Tiflisdə senzor işləmiş Şərif Mirzəyev 1919-cu ildə yazırdı ki, Birinci rus inqilabı "Qafqaz müsəlmanları içərisində yalnız dörd nəfər həqiqətən istedadlı publisist meydana çıxartdı: Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Məmməd Əmin Rəsulzadə və Ömər Faiq Nemanzadə".

Şərif Mirzəyev bu sözləri deməkdə çox haqlı idi. M.Ə.Rəsulzadə həqiqətən nüfuzlu və tutarlı jurnalist idi. O, 1903-cü ildə "Şərqi-rus" qəzetindən başlamış "Dəvət-Qoç", "İrşad", "Təkamül", "Füyuzat", "Tərəqqi" qəzetlərinin hamısında və "Dirilik" jurnalında çox aktiv çıxış edirdi. O, 1909-cu ildə çarizm tərəfindən sıxışdırılıb İrana gedəndə də Bakı mətbuatına yazılar göndərir, Türkiyədə olanda da çox qızğın şəkildə publisistika və tərcüməçiliklə məşğul olurdu. Nəhayət Bakıya dönəndən sonra 1915-ci ildə Bakıda "Açıq söz" qəzetini nəşrə başlayır və "Türkləşmək, islamlaşmaq, müasirləşmək" sözlərini ilk dəfə qəzetin epiqrafına çıxarır.

Belə bir adamın, tutarlı qələm sahibinin təəssüf ki,

Bakıda son vaxtlara qədər nə haqqında bir əsər yazılmış, nə də ölməz əsərləri çap olunmuşdur. Amma mühacirətdə bu əsərlər gen-bol nəşr edilmiş, haqqında külli miqdarda material verilmişdir. Xüsusən onun məşhur əsəri "Azərbaycan şairi Nizami Gəncəvi" kimi monumental əsəri 1941-ci ildə yazılsa da müəllif müharibənin yaratdığı çətinliklər nəticəsində onu çap etdirə bilməmiş və 1951-ci ildə Ankarada çap edilmişdir.

Bundan sonra onun "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan ədəbiyyatı" və sair əsərləri Azərbaycan oxucularına çatdırıldı.

Azərbaycanda M.Ə.Rəsulzadənin haqqında söhbət əsasən 1990-cı illərdən başlamış, gözəl əsərlər yazılmışdır. Mərhum Mövsüm Əliyev bu cığırı açdı, gözəl məqalələr yazdı. Xüsusən mənim müəllimim professor Şirməmməd Hüseynovun böyük zəhmət hesabına hazırladığı M.Ə.Rəsulzadənin əsərlərinin birinci cildi 1992-ci ildə çapdan çıxdı. Təəssüf ki, bu M.Ə.Rəsulzadənin yaradıcılığının ancaq bir hissəsini, daha doğrusu 1909-cu ilə qədər olan dövrünü əhatə edir, onun publisistik fəaliyyətinin ən qızğın dövrləri hələ öz tədqiqatçısını gözləyir.

M.Ə.Rəsulzadə haqqında ən çox yazan Nəsiman Yaqubludur. Onun "Məmməd Əmin Rəsulzadə" monoqrafiyası (Bakı, 1991), "Azərbaycan milli istiqlal mübarizəsi və Məmməd Əmin Rəsulzadə" (Bakı, 2001) və s. əsərləri işıq üzü görmüşdür. Bu əsərlərdə yaxşı yerlər çoxdur. Amma təəssüf ki, Nəsiman Yaqublu tədqiqatını birtərəfli aparır, xüsusən M.Ə.Rəsulzadəni Nəriman Nərimanovla qarşı-qarşıya qoyur, dövrü



nəzərə almadan Nərimanova böhtan yağdırmaqda davam edir. "Nərimanov öz tutduğu yanlış yoldan əl çəkmirdi" - deyə ona iftiralar yağdırır. Mən bu kitaba vaxtilə rəy vermişəm və Nərimanova aid bu kimi yerləri əsərdən çıxartmağı məsləhət görmüşəm. O da gəlib dedi ki, bəzi yerləri çıxartmışam, bəzilərini də yumşaltmışam. Əsər çap olunandan sonra gördüm ki, Nəriman Nərimanova yenə əvvəlki münasibət yerindədir. O, sonralar dövrü mətbuatda məqalələrində də Nərimanova iftiralar yağdırmaqda davam edir. Mən bunları "Nəriman Nərimanov dünyası" (Bakı, 2001) əsərimdə tənqid etmişəm.

M.Ə.Rəsulzadə yaradıcılığından bəhs edən alimlərdən biri də Vaqif Sultanlıdır. Onun 1993-cü ildə çap etdirdiyi "Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası", 1996-cı ildə yazdığı "Ağır yolun yolçusu" əsərləri maraqla oxunur. Vaqif müəllimin başqa əsərləri də vardır.

M.Ə.Rəsulzadəni ehtirasla təbliğ eləyənlər N.Nərimanovu da həmin ehtirasla tənqid edirlər. Mənim aləmimdə bu belə olmamalıdır. Bunların ikisi də Azərbaycan xalqının lideridir, ikisi də xalqını, vətənini sevən, onu nicat yoluna çıxarmağa çalışan vətənpərvərlər idi. Üstəlik bir-birini sevən, qiymətləndirən, heç biri o birinin başından bir tük də əskik olmasını istəməyən adamlar idi. Mənim "Nəriman Nərimanov dünyası" kitabımdan danışan hörmətli professorumuz, ağsaqqal alimimiz Pənah Xəlilov yazır ki, "M.Ə.Rəsulzadə ilə N.Nərimanovu qarşı-qarşıya qoymaq" olmaz. Onların bir-birinə "zərrə qədər pis fikirləri

olmadığını" da söyləyən Ş.Qurbanov "hər iki babamız haqqında hörmət və sevgi" ilə danışır. Professor P.Xəlilov fikirlərini davam etdirərək deyir: "Bu həm də ibrətlidir. Ona görə ibrətlidir ki, Ş.Qurbanov N.Nərimanova münasibətdə yaşıdlarından, ya tələbələrindən kiminləsə barışmadığı kimi, yaşadıqları dövrə görə nüfuzlu şəxsiyyətlərin də səhvi ilə barışmır. Barışmayan gərək barışmazlığını faktlarla sübuta yetirə bilsin. Bəli, "Nəriman Nərimanov dünyası" kitabının müəllifi iddialarını sübutsuz qoymur".*

Bu iki dahinin mübarizəsi pis vaxta düşdü. M.Ə.Rəsulzadənin qurduğu dövlət 2 ilə qədər yaşadı, N.Nərimanovun başçılıq etdiyi respublika Nərimanovla birlikdə ondan bir qədər artıq yaşadı. Zaman doğrudan da qarışıq idi.

O əlverişsiz vaxtdan, siyasi çaxnaşmalardan baş çıxara bilməyənlər N.Nərimanovla M.Ə.Rəsulzadəni qarşı-qarşıya qoyur, "birincinin simasında xəyanətkar, ikincinin simasında fədakar millət xadiminin obrazını" yaratmağa səy göstərirlər. Professor Xeyrulla Məmmədov bu sözləri deyərkən belə bir maraqlı analogiya gətirir: "İstər Nərimanov, istərsə də Rəsulzadə "müstəmləkəçilik" deyilən bir faciə əsərinin bərabər amplitudaya malik qəhrəmanları idi. Onlar və onların təmsil etdikləri siyasi qüvvələr azad və müstəqil Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə aparırdılar. Bu ali niyyəti həyata keçirmək vasitələrinə gəldikdə isə, onlar xeyli rəngarəng idi. Eyni siyasi cəmiyyətdə əlvan, hətta

* **Pənah Xəlilov. "Nəriman Nərimanov dünyası", "Azərbaycan" qəzeti, 15 sentyabr 2001-ci il.**



bir-birinə zidd siyasi əqidələrin meydana çıxması, şübhəsiz qəbahət deyil. Əksinə, insanların, o cümlədən bu ideallların daşıyıcılarının təbii hüququdur. Bundan ötrü sivilizasiyalı cəmiyyətlərdə insanları ittiham edib tarixin məhkəməsinə çəkmirlər".*

Bizim qan düşmənimiz ermənilər bizə imkan vermirdilər. Xəbis niyyətləri, açıq-aydın terrorları, Azərbaycanı qana çalxamaları bizi göz açmağa qoymurdu. Demokratik Cümhuriyyətin parlaman üzvləri olan ermənilər ya iclaslara gəlmir, gələndə də pozuculuq salırdılar. "Azərbaycan" qəzetinin o zamankı redaktoru Üzeyir Hacıbəyov 1918-ci il dekabrın 16-da yazırdı: "Ağzımızı açıb söz demək istədikdə möhtərəm rus demokratiyası naminə iş görən həriflər başımıza elə qapazlar salmağa başladılar ki, yerimizi, yurdumuzu da qapaz vuranlara qoyub hərəmiz bir diyara qaçmağı səlah bilirdik".

Böyük bəstəkar onu da deyirdi ki, "biz öz payımıza düşən hissəni almaq üçün qan da tökdük, can da verdik, baş da yardıq". Daha doğrusu, "on minlərcə qurban verdik, çaylarca qan axıtdıq". Nəzərə almaq lazımdır ki, Demokratik Cümhuriyyət təslim aktına qol çəkəndən dərhal sonra onun başçılarından Fətəli xan Xoyski, Həsənbəy Ağayev və başqaları ermənilər tərəfindən xaincəsinə öldürüldü.

Azərbaycan Demokratik Cümhuriyyəti yıxılandan xeyli sonra Bakıya gələn Nərimanov tamam tək idi. Özü də icraçı idi, əsas həlledici rəhbər deyildi. Onun böyüklüyü orasında idi ki, yuxarıda həll edilən və Azərbaycan xalqı-

* **Xeyrulla Məmmədov. Nəriman Nərimanov haqqında həqiqət, "İmpuls" qəzeti, 9 noyabr 2001-ci il.**

nın zərərinə olan məsələlərin həyata keçməyinə mane olurdu. Mikoyan deyirdi ki, "Nəriman Nərimanovu İnqilab Komitəsinin sədri seçərik, amma onu elə əhatə edərik ki, öz nüfuzundan istifadə edə bilməsin".

Nəriman Nərimanov bir nəfərin də ölümünə fərman verməmişdi. M.Ə.Rəsulzadənin bəxti onda kəsdi ki, o, Nərimanov Bakıya gələnə qədər Lahıcda gizlənmişdi. Nərimanov gələndə Tiflisə gedərkən Qaraməryəmdə tutulub Pankratov kimi bir cəlladın əlinə keçmişdir. Xalq da çox narahat idi. Nərimanov "Kommunist" qəzetində elan verdirmişdir ki, M.Ə.Rəsulzadəni heç bir təhlükə gözləmir. Stalin Bakıya gəldi, Nərimanov onunla danışdı və M.Ə.Rəsulzadəni onunla Moskvaya göndərdi. Generallardan Ə.Şıxlinskini, S.Mehmandarovu da bu yolla Pankratovun əlindən alıb xilas elədi, Üzeyir Hacıbəyovu ölümdən qurtardı. Əlindən gələn bunlar idi. Özü də böyük şeylər idi.

Yeri gəlmişkən bir məsələni də qeyd edim. Nəriman Nərimanov haqqında qatı düşmənçilik mövqeyindən çıxış edən "Yeni müsavat" qəzeti bu yaxınlarda çox maraqlı bir müsahibə dərc etmişdir. Dünya azərbaycanlılarının birinci qurultayına gəlmiş, Fransada yaşayan 84 yaşlı Qədim Süleyman M.Ə.Rəsulzadə ilə yaxınlığından, onunla söhbətlərindən danışmaqla bərabər bir məsələyə də toxunur: "Əlimərdan bəy Topçubaşiyə və Ağarza Tağıyevə xaricə getmək üçün pasportu və vizanı Nəriman Nərimanov şəxsən təqdim etdi".

N.Nərimanov "pasportu və vizanı şəxsən təqdim" etməyə də bilərdi. Amma daha maraqlısı və qiymətlisi



o idi ki, N.Nərimanov onlara demişdi: "Aradan çıxın, yoxsa Müsavata yaxın olduğunuza görə bolşeviklər başınızı əkəcəklər. Bunların hər ikisi ölənədək Nəriman Nərimanova allahdan rəhmət diləyirdi".*

Çünki Nəriman Nərimanov bolşevik deyildi, sosialist idi. Bolşevizmdən zəhləsi gedir, onu rəzalət adlandırırdı. Bolşeviklərin gördükləri işi görmürdü və yaxud buna imkan vermirdi. Həmin illərdə türk diplomatı Rza Nura demişdir: "Bolşeviklik nədir? Bu rəzalət bizə yaraşmaz".**

Bu idi N.Nərimanov. O, xalqını Orconikidze, Mikoyan, Mirzəyan kimi cəlladlardan qoruyub saxlamalı idi. Xalq da müdrikləri və liderləri ilə, görkəmli və nadir adamları ilə tanınır və yaşayır. Nə Nərimanov, nə də Rəsulzadə xalqının görkəmli adamlarının məhv edilməsini istəməzdilər.

Bizim yuxarıda adını çəkdiyimiz Əhməd bəy Ağayev 1921-ci ildə N.Nərimanova məktub yazmış və vətəninə gəlməyə icazə verməyi xahiş eləmişdir. Bu məktub o zaman "Kommunist" qəzetində dərc olunmuşdur.*** Amma Nərimanovun ona nə cavab verdiyi məlum deyil. Əhməd bəy Ağayev ikinci dəfə N.Nərimanova məktub göndərmiş və "sənin gözlərindən öpürəm" demişdir. Bunların heç biri təsadüfi deyil.

N.Nərimanova böhtan yağdıranların hərəkətindən hirslənən hörmətli və qocaman yazıçımız Qılman İlkin

---

*** Elbəy Həsənli. Hacıbəylilər Bakıya toplaşıblar. "Yeni müsavat" qəzeti, 10 noyabr 2001-ci il.**

**** Rza Nur. Moskva-Sakarya xatirələri, İstanbul, 1991, səh.56.**

***** Əhmədbəy Ağayev. N.Nərimanova məktub. "Kommunist" qəzeti, 12 iyul, 1921-ci il.**

yazır: "Üzdən iraq ziyalılar qoy bir dəfəlik başa düşsünlər ki, Nərimanova qarşı yenə belə iddialarla meydana atılsalar bu dəfə təkcə Ş.Qurbanov deyil, bəlkə də bütün qabaqcıl ziyalılar ayağa qalxacaqlar".*

Yox, bizə bu məsələdə ayağa qalxmaq, qarşı durmaq lazım deyil, ara qarışdırmaq, iz azdırmaq, "mən də varam" deyə özünü gözə soxmaq yaramaz. Bu iki şəxsiyyətin başına nələr gəldiyini düşünmək lazımdır. M.Ə.Rəsulzadənin də, N.Nərimanovun da, hər ikisinin başı bəlalar çəkdi, ikisi də vətənindən kənarda öldü - biri Moskvada, o biri isə Ankarada. Bu idi bunların müsibəti. Hələ mən dünyaya səpələnmiş ziyalılarımızın taleyindən danışmıram, hələ quldur ermənilərin qəfil hücumu nəticəsində pələsənk olub dağılan, namərdcəsinə məhv edilən, ana-baladan, bala-atadan ayrı düşən, bəzən də vəhşicəsinə öldürülüb, heç adı da qalmayan talesizlərdən söz açmıram. Babalarımızın, nənələrimizin saç yolub, qan töküb fəryad qoparmağından söhbət salmıram. Bütün bunlar, Ömər Faiqin sözləri ilə desək "Ölümdən də betər" hadisələr olub bizim xalqımızın başına gətirilən faciələr idi. Gəlin bunları xalqını sevən bir adamın adına bağlamayaq. Nəriman Nərimanov da bizimdir, Məmməd Əmin Rəsulzadə də bizimdir. Bunlar millət adlanan bir ağacın iki budağıdır, bir millətin iki gözüdür. Bunları bir-birindən ayırmaq və birini digərinə qarşı qoymaq olmaz. Bu bizim hamımızın borcudur. Hər ikisinin ruhu şad olsun, yeri behişt olsun.

---

*** Qılman İlkin. Xalqımızın həmişəyaşar oğlu. "Respublika" qəzeti, 30 oktyabr 2001-ci il.**



224334

## MƏMMƏD ƏMİN RƏSULZADƏ

XX əsrin əvvəllərində Tiflisdə mətbuat üzrə uzun müddət senzor işləmiş Mirzə Şərif Mirzəyev 1919-cu ildə Azərbaycanın milli oyanışını xarakterizə edərək yazırdı: "Birinci rus inqilabının bəxş etdiyi qısa müddətli mətbuat azadlığı Qafqaz müsəlmanları içərisində yalnız dörd nəfər həqiqətən istedadlı publisist meydana çıxartdı; bunlar Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Məmməd Əmin Rəsulzadə və Ömər Faiq Nemanzadə idi".*



Bu sözlərdə böyük həqiqət var idi. Bir az sonra bunların sayı getdikcə artdı və "Azərbaycan mətbuatının piri" (M.Ə.Rəsulzadə) hesab olunan H.Zərdabinin bu sahədəki demokratik ənənələrini davam və inkişaf etdirən böyük bir qələm ordusu yarandı. Amma bu dörd nəfərin tale yolu çətin burulğanlardan, məşəqqətlərdən keçdi. Lakin onlar fəlakətlərə düçar olsalar da, doğma torpaqdan didərgin salınsalar da, vətənin fəzalarında həmişə sönməz ulduz kimi parladılar, ürəklərdə yaşadılar. İndi də başımız üzərində onların ruhu dolanmaqda,

---

***"Грузия" qəzeti, 16 mart 1919-cu il.**



M. F. Axundov adına
Azərbaycan Dövlət
Ki A ANASI

yolumuzu işıqlandırmaqdadır.

Bunların dördü də siyasi və ictimai xadim, kəskin qələmli və ötkün sözlü publisist, alim-filosof olmaqdan əlavə, həm də ayrılıqda hər biri yüksək bədii zövq sahibi, istedadlı şair, mütərcim və yazıçı idi.

Xalqımızın milli mübarizə tarixində yaxından iştirak edən və fədakarlıq göstərən bütün ziyalılar böyük ehtirama və səcdəyə layiqdir. Onlardan biri də Məmməd Əmin Rəsulzadədir. Onun bütün fəaliyyəti dövründə gördüyü işlər bu həqiqəti açıq-aşkar təsdiq edir.

1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində ruhani ailəsində anadan olmuş, ailə tərbiyəsi görmüş, heç bir xüsusi təhsil almamış, təkcə bir-neçə il texniki məktəbdə oxumuş Məmməd Əminin siyasi xadim, milli lider və tarixi şəxsiyyət kimi fəaliyyət dairəsi çox geniş, toxunduğu məsələlər müxtəlif, fikir və mülahizələri orijinaldır. Daha doğrusu o, Şərqin və Qərbin filosoflarının irsini mənimsəyərək heç birinə korkoranə vurğunluq göstərməmiş, ancaq onların müddəalarını milli psixologiya süzgəcindən keçirib ağıla uyğun və yerli şəraitə münasib olanını götürmüşdür. Bu isə Bakıda ruhani ailəsində anadan olan, ev tərbiyəsindən başqa heç bir xüsusi ali təhsili olmayan bir adam üçün o qədər də asan məsələ deyildir.

Hüseyn Bayqara "Azərbaycan istiqlal mücadiləsi" kitabında yazır ki, o, fəaliyyətə "Bakıda bir basın evində mürəttibliklə başlamışdır. Çalışdığı bu basın evi Emin bəyə bir həyat məktəbi olmuşdur. "Kaspi" basın evində o, mürəttiblik yapmışdı. Emin bəyin yazarlığa həvəs etməsi təxmin edilir ki, burada başlamış və yazarların



yazılarını qurşun hərflərlə düzərkən o yazıların etkisində qalmış və beləliklə, genel bilgisi də irəliləmiş və gəlişmişdir... Sistemli bir şəkildə bir məktəbə getdiyi və hansı bir məktəb bitirdiyi olmamışdır. Həyatını yazanlar məktəbə getdiyini yazıyorlarsa da, doğru deyildir".*

Məmməd Əmin özü də hələ o zaman etiraf edirdi ki, "mən kasıblıq ucundan ali təhsil ala bilməmişəm".** Lakin Bakıda sənət məktəbində bir neçə il oxuduğu məlumdur. Əks təqdirdə onu "Kaspi" qəzetinə mürəttibliyə götürməzdilər.

Buna baxmayaraq o, hərtərəfli istedad, fitri qabiliyyət sahibi idi. Şəxsi mütaliə yolu ilə dünya xalqlarının ədəbiyyatına, fəlsəfəsinə, tarixinə dərindən bələd olmuşdur. Özünün orijinal düşüncə tərzi, fikir dünyası, sağlam məntiqi, səlis və aydın dili var idi. Yazılarının birində M.Ə.Rəsulzadə etiraf edirdi ki, "heç vaxt bilmədiyim şeydən bilirəm kimi bəhs etmək adətim deyildir".*** Buna görə də ictimai-siyasi həyatın çox sahələrində onun mövqeyi sabit idi.

M.Ə.Rəsulzadəni sözün həqiqi mənasında birləşdirici və aparıcı bir qüvvə kimi təsəvvür etmək üçün onun formalaşdığı mühiti, məsləkdaşlarını və onların apardığı birgə mübarizənin qısa mənzərəsini nəzərdən keçirməliyik.

Xalqı gerilik girdabından xilas edib mədəni inkişafın, tərəqqinin həqiqi yoluna çıxarmaq üçün o za-

---

*** Hüseyn Bayqara. Azərbaycan istiqlal mücadiləsi tarixi, İstambul, 1975, səh75.**

**** "Açıq söz" qəzeti, 24 avqust, 1917-ci il.**

***** "İqbal" qəzeti, 24 yanvar 1914-cü il.**

man Azərbaycanda müxtəlif ictimai cərəyanlar yaranmışdı. Onların məqsədləri bir olsa da, mübarizə formaları müxtəlif idi. Bütün demokratik qüvvələr bu fikirdə idi ki, "qollarımıza vurulan zülm zəncirini qoparıb tullamaq" lazımdır. Amma bunun icrası məsələsində baxışlar ayrılırdı: maarifçilər maarifə, demokratlar köhnəliyə və inkişafa mane olan cəhətlərə atəş açmağa, inqilabçılar isə sinfi mübarizəyə, inqilabi çevrilişə üstünlük verir və hər biri öz mövqeyini yeganə çıxış yolu hesab edirdi. Sonuncular, yəni demokratlarla inqilabçılar (onlar da öz aralarında ayrı-ayrı qruplara bölünürdülər) bir çox məsələlərdə bir-biri ilə həmfikir idilər. Amma bunların arasında maarifə bel bağlayanlar çox idi. İlk vaxtlar M.Ə.Rəsulzadə də onlarla idi.

Ümumdemokratik hərəkatın önündə o zaman əsasən Ə.Hüseynzadə, Ə.Ağayev, Ö.F.Nemanzadə, N.Nərimanov və başqaları gedirdi. Son 70 ildə biz onların hamısına "burjua ideoloqu" və millətçi damğası vurmuşuq. Nə yaxşı ki, heç olmasa ideoloq olduqlarını etiraf etmişik.

Bu azadlıq fədailərinin arasında da o zaman fikir ixtilafı eyni milli problem ətrafında bir-birindən fərqli yozumlar, mübahisələr var idi. Amma M.Ə.Rəsulzadənin mövqeyini, prinsiplərini, şərhlərini ciddi tənqid edən fakt mənə rast gəlməyib. Əksinə, onun çıxışları və irəli sürdüyü müddəalar başqalarına nisbətən çox tərəfdarlar qazanır və rəğbətlə qarşılanırdı, özü isə müasirlərinin nəzərində "tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar mücahid və



örnək bir insan" (Həsən Tağızadə) kimi canlanırdı.

M.Ə.Rəsulzadə 1908-ci ilə qədər əsasən Bakı mühitində formalaşmışdı. Bakı isə o zaman Rusiyanın inqilab ocaqlarından biri idi. Buna görə də Məmməd Əmin Şərq intibahından daha çox Rusiyanın inqilabi əhvali-ruhiyyəsinin təsiri altında idi. Həmin illərdə sosial demokratlarla bağlı olması da bununla əlaqədardır.

Bir məsələ də var ki, yaradıcılığının ilk dövründə o, publisistikadan daha çox bədii yaradıcılıqla məşğul olurdu: şer yazır, bədii tərcümələr edir, dramaturgiyaya meyl göstərirdi. Bunları şərh etmədən onun inkişaf mərhələlərini, axtarışlarını, gəldiyi nəticələri əyani şəkildə göstərmək mümkün deyildir. Bunları ayrılıqda şərh etmək lazımdır.

## POETİK YARADICILIĞI

Bədii yaradıcılıq Məmməd Əmin üçün əyləncə deyil, siyasi mübarizə formalarından biri idi. Tədqiqatçı Vaqif Sultanlının fikrincə, "Məmməd Əmin bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında milli-azadlıq mövzusunun əsasını qoymuş və ədəbiyyatın bu özül ərzində ucalmasına təsir göstərmişdir".* Bu fikir dəqiq olmasa da, ilk dövrün siyasi proqramı, ictimai tələbləri onun şerlərində də əks olunmuşdur. O, mətbu fəaliyyətinə, demək olar ki, elə şerlə başlamışdır. 1903-

* **Vaqif Sultanlı. Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası. Bakı. Universitetin nəşriyyatı, 1993, səh 14.**



cü il aprelin 26-da "Şərqi-Rus"dakı təbrik məktubunu nəzərə almasaq,* bir neçə gün sonra mayın 2-də həmin qəzetdə onun ilk məqaləsi, mayın 18-də isə ilk şeri dərc edilmişdir.** Bu ilk şer elmə, maarifə çağırış ruhunda idi və hələ cavan müəllifin siyasi mövqeyini aydın şəkildə bildirmirdi. Burada Məmməd Əmin öz həmvətənlərinə müəyyən tövsiyələr edir, "aç qulağını bir eşit bu sözləri" deyərək həmin "sözləri" bir qədər konkretləşdirir və "elmə raqib ol", "hər nə var dünyada bil ki, elm ilə olmuşdur qəbul" deyirdi.

Bunlar hələlik ötən əsrin yeni əsrə keçən maarifçi tələbləri, xüsusən Seyid Əzim Şirvani tövsiyələri idi və dövr üçün ilk baxışdan o qədər də xarakterik səslənmirdi.

Bir az sonra Bakıda, ümumiyyətlə bütün Rusiyada baş verən siyasi hadisələrin təsiri altında Məmməd Əmində tam oyanma prosesi baş verir, o, fikrini, mövqeyini daha da dəqiqləşdirir və qətiləşdirir. O, artıq sosial ədalətsizliyin və onun əsas meyvəsi olan boğucu mühitin dəhşətini dərk edir və özünü bütünlüklə azadlıq uğrunda mübarizəyə sərf etmək qərarına gəlir. 1906-cı

*** "Şərqi-Rus" qəzeti, 26 aprel, 1903-cü il.**
**** "Şərqi-Rus" qəzeti, 18 may, 1903-cü il.**



ildə yazdığı "Həsbi-hal" əsərində ürəyini "boşaldan" Məmməd Əmin ilk siyasi platformasını da mətbuatda məhz bu şerlə bəyan edir. O daxilində baş verən oyanma prosesini ifadə edərək yazırdı:

Qaranlıqdır bana dünya,
Bütün dünyavü mafiha,
Diyorlar cümləsi guya -
Çəkil bir yana sakitləş!

O, bu "qaranlıq dünya" ilə bahəm ətrafında ürək ağrıdan, qəlb göynədən boğucu mühit görür, bəzilərinin "sənə nə", "kənara çəkil", "öz qeydinə qal" fikri ilə vətəndaşlarına yardım əli uzatmaq meyli arasında çırpınır:

Daraldı qəlb vase ikən,
Qaraldı şəms lame ikən,
Eşitmir güş same ikən,
Çəkil bir yana sakitləş!

Çıxıb əldən çilo, gəlməz,
Mənə yarü-ədu gəlməz,
Bu dərdə çarəçi gəlməz,
Çəkil bir yana sakitləş!

Dolu heyrətlə hər yanım,
Toxunmuş daşə peykanım,
Əduvi-insafa əxvanım -
Çəkil bir yana sakitləş!

Nə vəhşidir bəni adəm,
Mücəssəmi-zülümdür aləm,
Diyorlar cümləsi yekdəm -
Çəkil bir yana sakitləş!

O zaman Məmməd Əmin siyasi platformalı bir ideoloq olmasa da, artıq oyanmış vətəndaş idi, belə bir vaxtda o, kənara çəkilib sakit guşədə dayana bilməzdi. O, xalqın, vətənin dərdini çiynində gəzdirməyə hazır idi. Həmin anlarda gəldiyi qərar qəti idi, içdiyi and təbiətindən, xarakter bütövlüyündən doğurdu:

Çəkilməm ey hərifan mən,
Bu meydani-şücayətdən,
Bütün dünya bana derkən -
"Çəkil bir yana sakitləş!"*

Fəaliyyətinin ilk illərində Məməd Əminin əqidəsi belə idi və son nəfəsinə qədər bu əqidə ilə yaşadı.

1953-cü ildə Türkiyədə onun ədəbi-publisistik fəaliyyətinin 50 illiyi qeyd olunarkən natiqlərdən biri öz çıxışında demişdi ki, bütün bu yarım əsrdə "onun içində bir səs, həp 1907-ci ildə yazdığı şerin bir parçası təkrarlanmaqdadır".** Natiqin misal gətirdiyi parça "Çəkilməm ey hərifan mən" misrası ilə başlayan şah bəndidir. Bu onun həyat devizi idi. Şeri M.Ə.Rəsulzadə ikinci dəfə 1953-cü ilin yanvarında özünün ad günü

* "Füyuzat" jurnalı, 1907, №30

** "Azərbaycan" jurnalı, Ankara, 1953, №3.



münasibətilə bütünlüklə "Azərbaycan" jurnalında (Ankarada) dərc etdirməsi də bunu sübut edir.

Hətta şer ilk dəfə 1907-ci ildə "Füyuzat" jurnalında dərc olunarkən son bənddən "çəkilməm" sözü səhvən "çəkildim" kimi getmişdi. Bundan sarsılan şair dərhal redaksiyaya məktub göndərmiş və bildirmişdir ki, bu, şerin mənasını büsbütün dəyişmişdir. Bununla da jurnal təkzib verməyə məcbur olmuşdur.

Deməli, Məmməd Əmin ilk addımlarından etibarən azadlıq yolundan çəkilməyəcəyini qəti bildirir və özünü bu yolun fədailərindən biri hesab edirdi. Çox maraqlıdır ki, onun poetik inkişaf mərhələsində hər şey düşünülmüş siyasi bir xətt üzrə irəliləyirdi. Dünyanın qaranlığını dərk etmək, bu qaranlığı işıqlandırmaq üçün şəxsi fədakarlıq və bunun yekunu kimi əldə olunacaq azadlığın təsəvvürü onda tam aydın şəkildə özünü büruzə verirdi. Növbəti şeri elə beləcə də adlanır: "Təsəvvürrati-əhrəranı", yəni azadlıq haqqında təsəvvürlər. Əlbəttə bu xəyal deyildi, qətiyyətin, aydın dünyagörüşün, hadisələrdən baş çıxarmaq bacarığının ifadəsi idi.

Görüncə ixtilafı mən cahanda,
Həqiqət yox təsavi bu zamanda,
Bütün ərbabi-zülmü kəhkəşanda,
Fəqiri daima acizi-fəğanda
Olub alüdeyi-vəhm təfəkkür,
Bu yolda eylərəm bir çox təsəvvür.*

* "Füyuzat" jurnalı, 1907, №32

İctimai bərabərsizliyin hökm sürməsi, cəmiyyətdə kiminin "Pürirənc və xüsrani-məşəqqət", kiminin də "insanların dilsiri-nemət" olması onu çox düşündürür.

Bütün zülm ilə dolmuş çərxi-dəvvar
Təzəllümdə bütün daşlarla dağlar - deyir.

O, çıxış yolu axtarır və qənaətini hamıya aşılamaq istəyir. Hətta hövsələsiz oxucularını da axıracan onu dinləməyə dəvət edərək onların diqqətini əsas məqsədə yönəldir:

Aya, qare, dayan bir etmə tüğyan,
Demə bu şerimə asari-küfran.

Onun qarelərinə təlqin etdiyi bircə fikir var: "Gərək insan ola azadə mütləq". Əsas məsələ də bu idi. Çünki onun fikrincə,

Siyasətcə nə rütbə olsa azad,
Tamamilə olunmaz rəf ifsad,
Cəmaət malı olsa ərzi abad,
Olur məsud o anda cümlə ahad,
Gedər ol dəmdə dünyadan tənəvvür
Bu bəndi dinlə qare, et təsəvvür.

Məmməd Əminin o zaman gəldiyi nəticə belə idi və dünyanı bütünlüklə azad və məsud görmək istəyirdi. Bu işdə o aparıcı qüvvəni nədə görürdü? Bu məsələ də onda çox konkret və aydındır. Bu qüvvə əzilən, istismar



olunan milyonlarla xalq kütləsi idi. Həyatı dəyişən, yeniləşdirən də onlar olmalı idi.

Odur ki, Məmməd Əmin mövqeyini müəyyənləşdirəndən sonra auditoriyasını tapmalı, sözlərini deməli idi. Əsrin əvvəllərində sıxışdırılıb həyatın aşağı qatlarına endirilmiş geniş xalq kütləsi bu auditoriyanın dinləyiciləri idi. Həmin bu "qaranlıq dünyanın", "mücəssəmeyi-zülm" olan aləmin əsas dayaqları olan binəsiblər bütün demokratik qüvvələrin diqqətini cəlb etmişdi. Böyük M.Ə.Sabirin "Rədd ol qapıdan, ağlama zar-zar dilənçi" sözləri ilə başlayan şerini bilməyən oxucu yoxdur. Şairin mövqeyi də aydındır, yəni hakim təbəqənin sədəqəsindən ümidini kəs, dilənməklə güzəran keçirmək olmaz.

Azərbaycanın bütün mütərəqqi qüvvələri məzlumluğun, dilənçiliyin əleyhinə idi. Ömər Faiq "məzlumluq ən böyük zalımlıqdır" deyirdi.* Bu da "hüquq verilmir, hüquq alınır" məşhur kəlamilə səsləşirdi. Yəni "məzlumluq edib fəryada başlayan əkinçi" də, "özünü insan sandığına görə" rişxənd hədəfinə çevrilən fəhlə də haqqını, hüququnu almaq üçün mübarizə meydanına atılmalı, dilənçilikdən, məzlumluqdan əl çəkməlidir.

Bu mövzuda Məmməd Əmin də şer yazmışdır. Onun 1909-cu ildə "İrşad" qəzetində çap etdirdiyi "Saillərə" şerinin də əsas qayəsi, əsas pafosu sabiranədir. İntəhası Sabirdə həmin fikir dolayıdır, Məmməd Əmində birbaşa:

*** Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Bakı 1992, səh 168.**

Bu hal nədir, nədir bu şivən,
Əflakə ucalmış ahu nalən,
Bəsdir bu fəğan bul bir aram,
Dinlə bu həqiqəti ol eymən.
Heyhat... İnanma, kəs ümidin;
Çün səbrinə hədd yox vəhidin.

Məzlumi-xuda nə dinliyorsan,
Göydən enəcək nə bəkliyorsan.
Əczilə baxıb müdam məhbut
Ol səbrə nəhayəmi gözliyorsan?
Heyhat... İnanma, kəs ümidin;
Çün səbrinə hədd yox vəhidin.

Dünyaya girib də qəhrəman ol
Əczi tələf et də pəhlivan ol,
Səy et də, çalış da, olma möhtac
Sailliyə sən əduvi-can ol.
Bilmərrə... İnanma, kəs ümidin;
Çün səbrinə hədd yox vəhidin.

Məmməd Əminin bədii yaradıcılığı əsrin ilk on illiyinə təsadüf edir. Əlimizin altında olan şerlər, dram əsərləri və bədii tərcümələr də əsasən o dövrün məhsuludur. Məmməd Əminin arxivi bütövlükdə əlimizdə yoxdur. Onun əlyazması halında başqa bədii əsərləri və mühacirət illərində bədii yaradıcılıqla məşğul olub-olmadığı hələlik mənə məlum deyil. Lakin bir şey aydındır ki, ümumiyyətlə o şer az yazırdı. Elə problemlər vardı ki, onu bir an da olsa rahat buraxmır və tərk etmirdi. Bu problemlərin hüznlüsü də vardır, fərəhlisi də. Yaxşısı da vardı, pisi də. Amma heç biri unudulmurdu. Özünün dediyi kimi, "Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssənin əzəməti ilə unudulmur".* O, həmin bu unudulmaz problemin fərəhli tərəfinə sevinir, qüssəli tərəfinə kədərlənirdi. Onun üçün ayların ən gözəli mayıs, günlərin ən fərəhlisi mayın 28-dir. Həmin gün Şərqin ilk konstitusiyalı dövləti olan Azərbaycan Demokratik Cümhuriyyəti - əsrin Siyavuşu kimi meydana gəlmiş və fərəhli günlər keçirmiş, aprelin 27-də isə rus ordusu tərəfindən istila olunmuşdur. Mayısın sevinci, aprelin isə kədəri onu heç vaxt tərk etmirdi. Sonralar, mühacirət illərində yazdığı "Mayıs düşüncələri" adlı şerində deyirdi:

İlk çağında idi gözəl mövsümün,
Qışdan çıxılmışdı, bahar gəlmişdi,
İyirmi səkkizində idi mayısın...

Məmməd Əmini məyus edən də bu "gözəl mayıs gününün bəxş etdiyi sevincin uzun sürməməsi", qüzeydən qopan qəfil qasırğanın Azərbaycan xalqının həyatında, tarixində "gözəl baharı qışa döndərməsi" idi:

Erkən qopdu bir qasırğa qüzeydən,
Baharımız heyhat döndü qış oldu,
Azərbaycan Moskovların əlində
Əsarətin zəhrini dadmış oldu,

O da xüsusi qeyd olunmalıdır ki, Məmməd Əmin

*** "İstiqlal" qəzeti, 31 mart 1919-cu il.**

nikbin adam idi, müvəqqəti büdrəmələr, uğursuzluqlar onu ruhdan salmır, gələcəyə böyük ümidlə baxır və inanırdı ki:

Tarixin yeni bir gözəl çağında,
Qaranlıq qış keçib bahar gələcək.
Hər hansı bir ilin, ayın günündə
Azərbaycan istiqlala erəcək.*

Məmməd Əminin mühacirət illərində yazdığı şerlərdən biri "Nizami" monoqrafiyasına əlavə etdiyi mənzum xülasədir. Mədəniyyət tarixində çox nadir təsadüf edilən bu formanın ən gözəl nümunəsini M.Ə.Rəsulzadə yaratmışdır. Xosrov. Dəhləvi, Ə.Nəvai və başqaları ithaf şerlərində təkcə Nizami dühasının böyüklüyündən bəhs etmişlər. Xosrov Dəhləvi yazırdı:

Gəncəli Nizami hamıdan əvvəl,
Sənət badəsinə ilkin basdı əl.
Safını o içdi, xılt bizə qaldı,
O xıltdan içərək çalsam da qələm,
Mən ona bərabər ola bilmərəm.

Nizaminin davamçılarının hamısı ona bu mövqedən yanaşmış, öz böyük sələflərini əlçatmaz zirvədə sanmışlar. Təkcə Məmməd Əmin Nizaminin böyüklüyünü, yüksəkliyini poetik formada verməklə bərabər həm də onun toxunduğu problemləri, ən başlıcası isə milli mənsubiyyətinin poetik ifadəsini vermişdi:

---

* **"M.Ə.Rəsulzadə. Mayıs duyğuları, "Azərbaycan", Ankara, 1955, №12**



İstənilərsə bizdən qısa nəticə,
Anlatırız Nizamiyə şöylecə:
Farsçılığı yox onun,
Türklüyə çox bağlıdır
Qafqaz deyə zövq alır,
Rusdan canı dağlıdır.
Gözəl qadın tipləri,
Ya türk, ya qafqazlıdır.
Şübhə yoxdur ki, o
Bir azərbaycanlıdır.

## TƏRCÜMƏÇİLİK FƏALİYYƏTİ

M.Ə.Rəsulzadənin orijinal şerləri ilə bərabər, çoxlu bədii tərcümələri də var. Bu tərcümləər də onun siyasi mübarizəsinin, azadlıq idealının tərkib hissəsi olub xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, onun başqa əsərləri kimi tərcümələri də toplanıb nəşr edilmədiyindən onların tam siyahısı əldə yoxdur. Hələlik bizə məlum olan o dövrün müxtəlif mətbuat orqanlarında çap edilmiş tərcümələri bunlardır: A.Blyümun "Fəhlə sinfinə nə tövr azadlıqlar gərək?", L.Tolstoyun "Etiraf", Cəmaləddin Əfqaninin "Vəhdəti-cinsiyyə fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti", F.M.Dostoyevskinin "Qartal", M.Qorkinin "Xan və oğlu", "Arvad və ana", Alfone Dodenin "Sonuncu dərs", M.Y.Lermontovun "İsmayılbəy", N.Gəncəvinin "Sirlər xəzinəsi" və s.

O, hələ 1912-ci ildə rus ədəbiyyatından seçmə hekayələr tərcümə edib əvvəlcə qəzetlərdə sonra kitab şəklində çap etdirmişdir. L.Tolstoy və M.Qorkidən seç-

mələr də bu qəbildəndir. Onu da qeyd etmək olar ki, M.Qorkinin o zaman ərəb dünyasında geniş yayılmış, yalnız Qahirədə on dəfə nəşr edilmiş* "Ana" əsərini də Azərbaycan dilinə ilk dəfə Məmməd Əmin tərcümə etmişdir.

Tərcümə edəcəyi əsərlərin hamısını o özü seçir və idealına uyğun olanları və zəmanənin tələblərinə cavab verənləri Azərbaycan oxucusuna çatdırmağa çalışırdı. Yuxarıda adları çəkilən əsərlərdən ancaq birini müəllifinin xahişi və məsləhəti ilə çevirmişdi. O da Azərbaycana bələd olan, müsəlman şərqinin adət-ənənələrini bilən M.Qorkinin əsəridir. M.Ə.Rəsulzadənin özü yazır ki, İstanbulda ikən "Rus ədəbiyyatı məcmuəsi" deyə bir risalə nəşr etdirmiş, buraya rus üləmayi-binamından Maksim Qorki ilə qraf Tolstoyun kiçik hekayələrindən bir neçəsini dərc etmişdim.

Məskur risalədən bir danəsini də o vaxt İtaliyada Kapri cəzirəsində iqamət etməkdə olan ədibi-möhtərəm Maksim Qorkiyə göndərmiş və özlərinə yazdığım bir məktubda dəxi zati-ədibanələrinin əsərlərindən hankısının türkcə tərcüməsini görmək meylində olduqlarını soruşdum. Yazdıqları cavabnamələrində bu sətirləri qaralayan aciz haqqında lütfi-zəminində "Xan və oğlu" hekayəsi bəlkə türklərin marağını cəlb edər "deyə bir mütaliyə bəyan etmişdir. Aruzi ədibanələrini icra etməklə məzkur hekayə türkcəyə tərcümə olunmuşdur".

Bu kiçik qeyddən aydın olur ki, Məmməd Əmin o

* **"Kaspi" qəzeti, 12 fevral, 1910.**



zaman dünya ictimaiyyətinin xüsusi maraq göstərdiyi Maksim Qorki ilə məktublaşmış ilk Azərbaycan ziyalılarındandır. Görünür, o, rus yazıçısının meylini, marağını öyrənməyə çalışmış və dərhal cavab da almışdır. Yuxarıda adı çəkilən risaləyə rus ədəbiyyatından konkret olaraq hansı əsərlərin salındığı hələlik bizə məlum deyil. Məlum olan odur ki, yazıçının arzusuna rəğmən onun "Xan və oğlu" və "Arvad və ana" əsərlərini Məmməd Əmin doğma dilinə tərcümə etmiş, əvvəlcə 1913-cü ildə "İqbal" qəzetində, sonra isə Bakıda ikisini bir yerdə kitab şəklində çap etdirmişdir.*

M.Ə.Rəsulzadənin bütün tərcümələri dövrünə görə mütərəqqi hadisə idi. Çünki onun tərcümə üçün seçdiyi əsərlərin həm ideyası, həm də onların tərcümə dili xüsusilə seçilirdi. O zaman bizdə poetik tərcümə artıq formalaşmışdır. Amma nəsr və elm dili hələ əsl axarına düşməmişdir. Bu tip tərcümələrin əksəriyyətində ərəb-fars tərkibləri olmadan keçinmək mümkün deyildi. Məmməd Əmin tərcümə dilinin təmizliyi məsələsində nisbətən fərqlənirdi. Buna görə də onun tərcümə dili müasir tələblər baxımından qənaətbəxşdir. L.Tolstoyun "Etiraf" əsərinin tərcüməsindən aşağıdakı parçaya diqqət yetirmək kifayətdir:

"Evlənməyimdən altı il əvvəl mən böylə bir dəlilik içində yaşadım. Bu əsnada xaricə səfər elədim. Avropadakı həyatım və Avropa alimləri və mütəfəkkirləri ilə elədiyim münaqat və müsahibələrimdəki təzkireyi-ümumiyyə əqidəsini daha da qüvvətləndirdi, çünki bu

* **Maksim Qorki. Arvad ana; Xan ilə oğlu. Bakı, 1914.**

əqidənin eynini mən onlarda da gördüm. Bu əqidə əsrimizin münəvvəri-əfkarı məsələsində nə kimi bir şəkildə isə məndə də eylə bir halda idi. Məzkur əqidə "tərəqqi" sözü ilə ifadə olunurdu. O vaxt mənə öylə gəlirdi ki, bu sözlə bir şey bəyan ediliyor. O vaxt mən hələ hər bir insanın qəlbini sıxdığı kimi mənim də qəlbimi əzən "Nə cür yaşamalıyam?" sualına "tərəqqiyə müvafiq" deyə cavab vermənin tufana tutulub da ləpələrin hücumuna giriftar olan bir qayıq içindəki insanın "Avarı nə tərəfə çəkək", deyə eylədiyi sualına "Bizi məchul bir səmtə aparıyor" deyə cavab vermək kimi olduğunu düşünmüyordum".

L.Tolstoy sintaksisinin mürəkkəb və pilləli quruluşunu nəzərə alsaq 1913-cü ilin bu tərcüməsinə az irad tutmaq olar.

M.Ə.Rəsulzadə Azərbaycan və dünya klassikləri içərisində ən çox Nizami Gəncəviyə diqqət yetirirdi. O bu böyük dahini gəncliyindən öyrənsə də, ömrünün ən kamil dövründə də onun tədqiqi ilə xüsusi məşğul olmuş, 1941-ci ildə "Azərbaycan şairi Nizami Gəncəvi" monoqrafiyasını yazmış, ancaq on il sonra 1951-ci ildə Ankarada çap etdirmişdir.

M.Ə.Rəsulzadə Nizami yaradıcılığı üzrə geniş tədqiqat aparsa da, ondan xüsusi tərcümələr etməmişdir. Təhlil prosesində misalları və "Sirlər xəzinəsi"ndən ayrı-ayrı hekayələri özü tərcümə etmişdir. Bunlar yüksək peşəkar şair qələmindən çıxmasa da, hər halda Nizami irsinin yayılmasında az rol oynamamışdır. Məsələn, "İsgəndərnamə"də İsgəndərin uğurlarının səbəbini şərh edən beyt M.Ə.Rəsulzadənin tərcüməsində



belə səslənirdi:

Bilginlərə daim qulaq asardı,
İşlərini bilginliklə yapardı.
Yoxsa bu Rum qalpağı geymiş bir türk
Hində, Çinə nə surətdə çapardı?

Yaxud "Sirlər xəzinəsi"ndən aşağıdakı parçaya diqqət edək:

Zülm görmüş, aciz ixtiyar nənə,
Əl atdı Sultan Səncərin ətəyinə.
Səndən dedi, görmədim heç inayət,
Zülm gördüm, deyə etdi şikayət.
Dərdini anlatdı şikayətində.
Şöylə xitab etdi nəhayətində:
Türklərin çün yüksəldi dövlətləri,
Ədalətdən süsləndi həp illəri.
Madam ki, sən zülmə amil olmusan,
Bir türk deyil, çamulçü bir hindusan.

Məmməd Əminin tərcümələri içərisində Rusiyanın romantik şairi M.Y.Lermontovun "İsmayılbəy" poemasının tərcüməsi mühüm yer tutur. Əvvəla bu poetik tərcümədir; ikincisi adi şer deyil, poemadır. Bundan əlavə o zaman L.Tolstoy kimi, Lermontovun da azərbaycanlı mütərcimləri çox idi. Onların içərisində A.Səhhət, A.Şaiq, R.Əfəndiyev və başqa şairlərin tərcümələri orijinal qədər qüvvətli idi. Xüsusən A.Səhhətin tərcüməsində rus şairinin vətənpərvər ruhlu şerləri və "Mtsıri" poeması çox məşhur idi. Belə bir dövrdə Məmməd Əminin "İsmayılbəy" kimi ən iri



*Məmməd Əmin Rəsulzadə azərbaycanlı gənclər arasında*

poemanın tərcüməsinə girişməsi ciddi hadisə idi.

Təəssüf ki, M.Ə.Rəsulzadənin Lermontovdan etdiyi bu tərcümə tam deyildi. Daha doğrusu, poemanın tam tərcüməsi əlimizə gəlib çatmamışdır. Onun bir hissəsi 1914-cü ildə "Dirilik" jurnalında "İsmayılbəy" adı ilə dərc edilmişdir. Bu nömrələrdə əsərin tam və ya natamam tərcüməsindən söhbət getmir. Əksinə, sonuncu nömrədə "Bitmədi" sözü də əlavə edilmişdir.* Bu da göstərir ki, əsərin çap variantı və Respublika Əlyazmaları İnstitutunda saxlanan parçalar tərcümənin hamısı deyildir. Hər halda bunlar həm rus şairi M.Y.Lermontovun Azərbaycanla bağlılığı, həm də M.Ə.Rəsulzadənin tərcüməçilik fəaliyyəti haqqında müəyyən fikir söyləməyə imkan verir.

---

* **"Dirilik" jurnalı, 1914, №10.**



Belə bir həqiqəti də qeyd etmək lazımdır ki, Lermontovun əsərləri yeni dövrün əsas problemləri ilə səsləşdiyinə görə, o zaman bizim ziyalılar Lermontova tez-tez müraciət edirdilər. Rus şairinin dili ilə danışmaq bizim ziyalılar üçün həm asan, həm də əlverişli idi. Onun "ağalar və qullar ölkəsinə", "Xain atalardan nişan xələflərə" sonsuz nifrəti, Qafqaza və Qafqaz xalqlarına məhəbbəti bizim ziyalıların ürəyindən idi və çox müasir səsləşirdi. Rus şairinin Qafqaz mövzusunda yazdığı əsərlərdə bu füsunkar ölkə və onun azadlıq sevən xalqı ilhamla tərənnüm olunurdu. M.Ə.Rəsulzadənin tərcümə üçün müraciət etdiyi "İsmayılbəy" poeması elə ilk sətirlərindən Qafqaza müraciətlə başlayır:

Qoca Qafqaz sənə salam olsun.
Deyiləm mən yabançı dağlarına,
Ta cocuqkən o dağlar küləyi
Məni yüksəltdi asimanlarına.

O zamandan bəri düşüncələrim,
Həm cənub asimanı, həm qayalar.
Hürrsən, nə gözəlsən, ey Qafqaz
Siz də ey yüksək, ey gözəl dağlar!

Rus şairini ilhama gətirən təkcə Qafqazın füsunkarlığı, dağların əzəməti, təbiətinin təkrarolunmazlığı deyildi. Həm də bu füsunkarlığa, bu ucalığa yaraşıq verən mübariz insanları, onların mənəvi zənginlikləri və yüksək əxlaqi keyfiyyətləri idi. Bunu Lermontov bütün varlığı ilə dərk etmiş və poetik sətirlərində

əridə bilmişdir.

M.Ə.Rəsulzadənin diqqətini cəlb edən amil də məhz bu idi, yəni Qafqaz xalqlarının igid oğulları idi:

Aşiqəm mən sənin, ey ulu Qafqaz
İgid övladının rəşadətinə,
Lacivərdi səmayi-safını mən
Sevirəm, valehəm lətafətinə.

Çarizmin yerli xalqlara divan tutmasını Lermontov bu əsərdə güclü poetik bir dildə vermiş, nifrətin nifrət oyatdığını əyani şəkildə göstərmişdir. Bunu bizim ziyalılar da bilirdi. Onu da bilirdilər ki, çar generallarının və məmurlarının Qafqazda, o cümlədən Azərbaycan torpağında etdiyi vəhşilik dünyanın heç yerində görünməmişdir. Amma onlar bu əhvalatları orijinal əsərlərində deyə bilmirdilər. Daha doğrusu, nifrət və məhəbbət çələngi hörməkdə onların Lermontov kimi imkanları yox idi.

Çarizmin "Parçala və hökm sür" siyasətini vəhşiliklə həyata keçirən rus generallarına və əsgərlərinə yerli xalqın münasibətindən bəhs edən aşağıdakı misralar Azərbaycan ziyalılarına yaxşı tanış idi:

Там в колыбели песни матерей
Пугают русским именем детей.

Bu münasibəti, qəzəb və kini bizimkilər hər addımda hiss edirdilər, amma ürəklərindən keçənləri dillərinə gətirə bilmirdilər. Onda rus dilindən tərcümələr kara gəlirdi. Çox güman ki, Məmməd Əmin də bu tərcüməyə



eyni məqsədlə əl atmış və həmin parçanı belə səsləndirmişdir:

Hər hücum, cəng qəzavü-qədər,
Rüşdini həp qəza içində görər,
Burada annələr cocuqlarını,
Moskov adı ilə həp ixafə edər.

Görünür, "rus" sözünü ya senzor çıxartmış, ya da mütərcimin özü bunu bir qədər yumşaltmağa məcbur olmuşdur.

Lermontov Qafqaz xalqlarına xas olan bir xarakterik xüsusiyyəti də düzgün vermişdir. O da əsl dosta sonsuz məhəbbət, yağı düşmənə isə hədsiz nifrət idi:

Düşməni qətl bir günah deyil,
Əhdə qılmaq vəfa - bu bir adət.
Daha möhkəmdir intiqam almaq,
Qana qandır da, xeyirə də xeyrət.
Nifrətin yox ki, həddi, payanı.
Yox, məhəbbət də eylə bipayan.

Poemada Məmməd Əminin özünün taleyi ilə səsləşən maraqlı bir yer də vardır. Burada ruslar tərəfindən dağıdılmış xanimanlar, yandırılmış aullar, didərgin salınmış əhali təsvir olunur. Vətənini sevən bir xalqın vətənini tərk etməsi min bir sual doğurur və izahat tələb edir:

Vətəni tərk qürbəti tərcih,
Etdirən bir səbəb nə olsa gərək,
Qəhri peyğəmbərin ya lənətimi?
Yox deyil öylə, ya nə olsa gərək.

Doğrudan da azadlığı və xoşbəxtliyi ana torpaq üstündə yaşamaqda görən, qana qanla, nifrətə nifrətlə cavab verən, hətta qadınları da vuruşda qılınc oynatmaqda kişilərdən geri qalmayan qorxmaz, cəsur igidlərin vətənini tərk etməsinə səbəb nə ola bilərdi? Səbəb isə aydın idi:

Etməzdi onu bu hicrətə sövq,
Nə ölüm qorxusu, nə xofu-qübur.
Düşmənin hamil olduğu zəncir
Yurdunu tərkə eyləmiş məcbur.

Bəli, amansız düşmənin od-alov saçan hücumlarına tab gətirə bilməyəcəyini hiss edən və kölə zəncirlərini boynuna keçirmək istəməyən xalq doğma yurdunu tərk etməyə mühacir həyatı yaşamağa məcbur olur.

Məmməd Əmin də, Lermontovun dediyi kimi, boynuna düşmənin rüsvayçı zəncirini keçirməmək üçün canından əziz sevdiyi vətənini, xalqını, əhli-əyalını tərk etməyə məcbur olmuşdur. O, düz 35 il mühacirətdə yaşamış, vətənə qayıtmaq ümidini bir an da olsa itirməmişdir. Yazıqlar olsun ki, indi onun doğma vətəninə özü yox, pak ruhu, təmiz əməlləri, ilk dəfə vətən göylərində dalğalandırdığı üç rəngli aylı-ulduzlu bayrağı qayıtmışdır. Bu da onun haqq yolunun uğrunda vuruşduğu ideallarının məntiqi davamı və fərəhli yekunudur.



# DRAMATURJİ YARADICILIĞI

Məmməd Əminin bədii yaradıcılığının mühüm sahələrindən birini də dramaturgiya təşkil edir. Şerlərində olduğu kimi, dram əsərlərində də onun azadlıq uğrunda mübarizəyə cəlb etmək istədiyi əsas təbəqə binəsiblər, sabadsızlar, daha dəqiqi - geniş xalq kütləsi idi. Onun çağırış pafosu əhalinin bu zümrəsi üzərində köklənirdi. Bu da təsadüfi deyildi. Çünki əsl dramaturgiya ilə məşğul olanlar A.Ostrovskinin dediyi belə bir həqiqəti əsas götürürdülər ki, "ədəbiyyatın bütün forma və janrları birinci növbədə oxumuş, savadlı adamlar üçün



*"Hümmət"in təsisçiləri: soldan M.Əzizbəyov, Ə.Məlikov, Ə.Axundov, M.Ə.Rəsulzadə. 1908.*

yazıldığı halda, səhnə əsərləri hamı üçün yazılır".* Yəni oxumağı və yazmağı bacarmayanlar da ona baxıb faydalana bilirlər. XX əsrin əvvəllərində inqilabi burulğanlar dövründə Məmməd Əmin də bu həqiqəti dərk etmiş və 1910-cu ilə qədər bir-birinin ardınca hələlik bizə məlum olan "Nagahani bəla", "Qaranlıqda işıqlar" kimi bir neçə maraqlı pyes yazmışdır. Onların bəziləri, xüsusən "Qaranlıqda işıqlar" əsəri 1908-ci ildən Bakıda "Nicat" maarif cəmiyyəti tərəfindən tamaşaya qoyulmuş və geniş rəy oyatmışdır. Xüsusən o dövrün ən görkəmli və məşhur aktyorları olan Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski və başqalarının bu tamaşada əsas rollarda çıxış etməsi göstərir ki, "Qaranlıqda işıqlar" geniş mündəricəli bir səhnə əsəri olmuşdur.

Məmməd Əmin bu əsərin tamaşasından bir az əvvəl çap etdirdiyi "Həsbi-hal" adlı şerində "Qaranlıqdır bana dünya" deyərək həmin boğucu mühitə üsyan edir, xalq üçün mənəvi işıq arayır və bu ideal uğrunda mübarizəyə atıldığını belə bir "meydani-şücaətdən" çəkilməyəcəyini qətiyyətlə bildirirdi. "Nagahani bəla" və "Qaranlıqda işıqlar" da məhz bu ideyalar işığında yazılmış və hər ikisində maraqlı səhnələr yaradılmışdır.

"Nagahani bəla" əsərində hadisələr Bakı milyonçularının birinin kontorunda cərəyan edir. Müəllif artmaqda olan milli dirçəlişə, ictimai-siyasi hadisələrə toxunur, ayrı-ayrı siniflərdən, siyasi partiyalardan, proletariatın vəziyyətindən və hakim-məhkum arasındakı ilk ziddiyyətlərdən danışır.

---

* **А.Н.Островский. Полн.собр.соч. М, 1952, том 12, с.123.**



Milyonlara və xalq arasında böyük nüfuza malik olan Murad onun pulu ilə Avropanın müxtəlif ali məktəblərində oxuyub gəlmiş milli ziyalıların hərəkətindən narazıdır. O görür ki, bu ziyalılar milli oyanışa təkan verir, məzlumları ayağa qaldırırlar. Milyonçunun ziyalı müşaviri Muradı onu başa salır ki, özlərini sosialist adlandıran bu adamlar cəmiyyəti yenidən qurmaq fikrinə düşüblər, istəyirlər ki, sinfi mübarizədə fəhlə hegemon rol oynasın və bununla da bütün məzlumlar azad olsun.

Müşavirin dediyinə görə, onlar belə bir ədalətli tələb də irəli sürürlər ki, həyatı yaradan zəhmətkeş xalqdır, o da yaxşı yaşamalıdır. Halbuki indi mövcud həyat elədir ki, biri çalışır, əziyyət çəkir, başqası isə onun hesabına firavan dolanır. Onların fikrincə, bu ədalətsizlikdir və ona dözmək olmaz.

Burada Məmməd Əmin bir sosial demokrat kimi çıxış edir və onun ziyalı qəhrəmanı kapitalist Muradla söhbətində açıqca bildirir ki, bu mübarizə əməklə kapital arasında gedən mübarizədir. Avropada bu iş çoxdan başlamışdır, indi də Rusiyada cərəyan etməkdədir.

Ziyalı müşavir kapitalist ağasını xəbərdar edir ki, bu həyatın təbii inkişaf qanunudur və yəqin ki, onun müəssisələrindən də yan keçməyəcək. Murad əvvəlcə buna ciddi əhəmiyyət vermir. Belə güman edir ki, müsəlman aləmində hələ elə bir siyasi təhlükə yoxdur, "müsəlman kütləsi indiki zamanda xeyirxah ünsürlərdir. Heç bir təbliğat onları bizim əleyhimizə qaldıra bilməz". Amma müşavirinin inandırıcı sözlərindən sonra kapitalist təşvişə düşür. Onu hər şeydən əvvəl narahat edən odur ki, öz pulu ilə oxutdurduğu tələbələr qayıdıb

gəlir və "xalqa dayaq" olmaq əvəzinə onu yoldan çıxarır, dünyanın gedişindən hələ baş açmayan müsəlman fəhlələri sahibkarın üzünü ağ edirlər.

Bakı kapitalistini ən çox hirsləndirən sosial demokratların "Hürriyyət, Müsavat, Qardaşlıq" sözləridir. O, ziyalı müşavirlə söhbətində həyəcanla onu da bildirir ki, "Adə mən illər ilə zəhmət çəkib qazandığım dövləti götürüm indi bir əbləhin biri ilə bölüşüm ki, nə var ki, bu müsavatdır".*

O, fəhlələr arasında gizli təşkilatların qarşısını almaq üçün hətta "Rus soldatlarının və kazaklarının" köməyinə də bel bağlayır.

Hadisələr dramatik şəkildə inkişaf edir, gözlənilmədən "Nagahanı bəla" baş verir. - fəhlə sinfinin tətili haqqında xəbər alınır, özünü itirmiş Murad tətilçilərlə danışmağa can atır.

Bu kiçik əsər Məmməd Əminin siyasi inkişaf mərhələsini, fəaliyyətinin ilk illərində hansı ideyalarla yaşadığını göstərən maraqlı faktdır.

Əvvəla nəzərə alınmalıdır ki, birinci rus inqilabı zamanı Azərbaycanın iri sənaye mərkəzi olan Bakıda azərbaycanlı fəhlələr arasında inqilabi şüur hələ tam yetişməmişdir, hadisələr kortəbii inkişaf edirdi. Biz totalitar dövrün tarixi ədəbiyyatında bunları bir qədər şişirtmiş, çox vaxt özümüzdən tətil düzəltmişik! Bu əslində belə deyildir. Bakı sənaye müəssisələrində də, Gədəbəy mis mədənlərində də və başqa yerlərdə də ayrı-ayrı iğtişaşlar var idi. Lakin bunların hamısı əksər halda həyat şəraitinin yaxşılaşdırılması uğrunda gedən

* **"Təkamül" qəzeti, 3 fevral, 1907-ci il.**



kortəbii mübarizələr idi, çoxunda aydın düşünülmüş mübarizə proqramı da yox idi. Bunun acısını daddığı üçündür ki, Məmməd Əmin İran inqilabçılarını "yolsuzluqda" ittiham etdiyi kimi Bakıda da aydın mübarizə proqramının olmamasından şikayətlənirdi. O, 1905-1907-ci illərdə Bakı hadisələrindən bəhs edərək yazırdı: "Bu təlatümdə biz nə istədiyimizi bilmədik. Bunu bilən tək-tək fərdlərimiz var idilərsə, bildiklərini bizə bildirməyə vaxt yox idi. O məşhur sənədlərdə biz bir təlatümə düçar olan gəmiyə bənzəyirdik ki, haraya gedəcəyimizi və sahili-nicatın nə tərəfdə olduğunu bilmirdik. Hər halda bir tərəfə olsa da, sükan saxlamaq lazım gəlirdi. Biz də bizimlə bərabər təlatümə tutulmuş olan digər millətlərin gəmiçilərinə baxdıq, yolumuzu onların getdiyi səmtə düzəltdik. Əlimiz sükanda titrəyir, ürəklərimiz məhcul bir aqibət qarşısında çırpınırdı".*

O dövrün real vəziyyəti təxminən belə idi. Xalqa yol göstərən, rəhbərlik edən lazım idi, o isə hələ görünmürdü. Məmməd Əmin açıq yazırdı ki, "məqsədimizi nişan verən o parlaq yıldızımızı, dühanı kəşf edə bilmədik. Kəşfini axtaranlar bəlkə də var idi. Fəqət "Düha kəşf olundu!" - deyə meydana çıxanlar görünmədi. Yaxud görünmüşsə də gördüklərini ümumiləşdirə bilməmişlərdi".

1905-ci il inqilabı zamanı azərbaycanlılar arasında siyasi məqsəd aydınlığı, müəyyən mübarizə proqramı, əməli iş, demək olar ki, yox idi. "Tufana tutulan bir gəmi üçün hədəfsizlik nə qədər təhlükə isə tarixi saatlarda bulunan bir millət üçün də əməlsizlik o qədər

* **"Dirilik"; 1914, №5.**

təhlükəlidir" - deyən Məmməd Əmin bu "əməlsizliyi" görür və onun ağrısını çəkirdi. "Nagahani əbla" əsərində də o təlatümün soyuduğu anlarda müəyyən məqsəd aydınlığı, "sahili-nicat" axtarır və mübarizə yoldaşlarını da bu məqsədə doğru fəaliyyətə çağırırdı. O, fransız inqilabçılarının hələ 1848-ci ildə bayraqlarına yazdığı "Azadlıq, Bərabərlik, Qardaşlıq" sözlərini "Hürriyyət, Müsavat, Qardaşlıq" şəklində öz şüarına çevirmək istəyirdi ki, bu da o zaman bizim ədəbiyyatımızda tamam yeni hadisə idi. O da Cəmaləddin Əfqani kimi, belə güman edirdi ki, bu "böyük və möhtəşəm" sözlər üzərində qurulan səadət binası zülmü, despotizmi kökündən məhv edə bilər.

Məmməd Əminin ən məşhur dram əsəri "Qaranlıqda işıqlar" pyesidir. Müəllifin dəfələrlə tamaşaya qoyulub geniş rəy oyadan yeganə dram əsəri də budur. Heç şübhəsiz ki, "Nagahani bəla" əsərində qoyulan və hələlik bir qədər cəsarətsiz deyilən bir çox ictimai-siyasi məsələlər burada nisbətən geniş dramaturji həllini tapa bilmişdir.

Təəssüflə deməliyəm ki, əsərin mətni əlimizdə yoxdur. Amma ilk tamaşası zamanı ona müxtəlif mövqedən resenziya yazan müəlliflər az da olsa məzmuna toxunmuşlar. Bunlar həm toxunulan problem, həm də məsələlərin qoyuluşu haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Azadlıq və sosializm ideyalarına ürəkdən vurulan Qəhrəman adlı cavan bir tələbə təhsilini buraxıb xalq içərisinə gəlir və doğma xalqını da bu ideyalara qovuşdurmaq, həmin gözəl fikirləri həyata keçirmək üçün özünə bir neçə həmfikir taparaq



fəaliyyətə başlayır. Lakin o, cəhalət mühitindədir, ana yurdunu azadlıq gözəlinə qovuşdurmaq istərkən valideynləri onun özünü sevmədiyi bir qızla evləndirib əl-ayağını bağlamaq istəyirlər. Buna rədd cavabı verən Qəhrəman evdən qovulur. O, gizli fəaliyyətə keçir. Lakin yoldaşlarından biri "insanın ən şərir düşməni və ən əziz dostu olan pula aldanıb" əqidəsindən dönür və dostlarına xəyanət edir. Beləliklə, Qəhrəman öz sadiq dostları ilə birlikdə həbs olunur. Bundan sonra hadisələr həbsxanada cərəyan edir.

Həbsxanada qəhrəman bir qoçu ilə rastlaşır və həbs olunmağının səbəbini soruşur. Qoçu böyük fəxrlə bildirir ki, "adam öldürmüşəm". Əsərin qəhrəmanı qoçunu məzəmmət edib, bildirir ki, "qardaş qanına bais olmaq, öz həmcinsini öldürmək günahdır".

Qəhrəman onu da deyir ki, "qardaş qanına əl bulandırmaqla pul və şöhrət qazanmaqdansa düz-doğru bir sənət dalınca getmək lazımdır".

Bu ağıllı, məntiqli sözlərindən bir qədər yumşalan qoçu sanki özü ilə danışırmış kimi deyir: "Bu xaraba qalmış Bakıda adam öldürməkdən başqa ayrı bir sənət varmı?".

Qəhrəmanın və yoldaşlarının həbsxana həyatı çox sürmür. Bir gecə Qəhrəman yuxuda görür ki, İstibdad, cəhalət və zülmət mücəssəməsi olan bir hüyulə iblis şəklində gəlib Qəhrəmanı boğmaq istəyir. Lakin Qəhrəman o anda göydən düşən bir xəncərlə iblisi öldürür. Bunun dalınca qaranlıqda işıqlar görünür, ağ buludlar üzərində peyda olan münəvvər bir mələk nəvazişkaranə bir surətdə hürriyyət müjdəsi ilə

Qəhrəmanı təbrik edir.

Bizim Qəhrəman yuxudan ayılır, gördüklərini yoldaşlarına danışır və onları inandırır ki, bu, yuxu deyil, bu artıq həqiqətdir. Biz hürriyyətə qovuşmaq üzrəyik. Doğrudan da bir neçə dəqiqədən sonra Qəhrəmanın yuxusu çin olur. 17 oktyabr manifesti elan edilir. Əhali həbsxanaya dolub sevincini məhbuslarla bölüşür və onlar azadlığa çıxırlar. Bununla da qaranlıqlar içindən gur işıq seli ətrafı bürüyür.

Bu qısa təfsilatdan hiss olunur ki, əsrin əvvəllərində Azərbaycanda həlli vacib olan bir sıra milli və siyasi problemlər qismən burada öz dramaturji əksini tapmışdır. Gerilik, cəhalət, qoçubazlıq, qardaş qatili və s. məsələlər o zaman bütün mütərəqqi qüvvələri düşündürürdü. Bunlara qarşı mübarizə aparan və baş verən faciələri bədii şəkildə canlandıran qələm sahibləri çox idi və onlardan biri də Məmməd Əmin Rəsulzadə olmuşdur.

Məmməd Əminin başqalarından fərqi ondan ibarət idi ki, o təkcə məişət dramları ilə məhdudlaşmırdı, toxunduğu problemin geniş miqyas almasına, siyasi xarakter kəsb etməsinə çalışırdı. Xüsusən "İstibdad, cəhalət və zülmət" mücəssəməsi olan İblisi parçalayıb məhv etmək, azadlıq Mələyinin qanadlarında zülmət qaranlıqdan çıxıb işıqlı dünyaya can atmaq onun əsas idealı idi (bunun Cəmaləddinin "Urvatül-vüsqa" jurnalında çap etdirdiyi "Mif" əsərini xatırlatdığını da unutmayaq).

Onu da qeyd etmək lazımdır ki, "Qaranlıqda işıqlar" əsərində qəhrəmanın "sosializm fikrinə aşiq" olması



sözləri təsadüfi işlənməmişdir. Çünki Məmməd Əmin fəaliyyətinin ilk dövründə sosial demokratlarla yaxın olub sosializm ideyasının təsiri altında idi. Onun gizli imzalarından biri də "Sosialist" olmuşdur. Onlar cəmiyyəti inqilab yolu ilə dəyişdirmək, yeniləşdirmək istəyirdilər ki, bu da zamanın tələbindən doğurdu. Məmməd Əmin də müsavat fikri formalaşana və eyni adlı partiya yaranana qədər bu əqidə onda güclü idi. Onun dram əsərləri də əsasən bu ideyanın təsiri altında yazılmışdır.

"Qaranlıqda işıqlar" əsəri 1908-ci il dekabrın 5-də tamaşaya qoyuldu və geniş rəy oyatdı. Daha doğrusu, ona müxtəlif mövqedən yanaşdılar. Tamaşadan dərhal sonra "İttifaq" qəzetinin 7 dekabr nömrəsində "Teatrçı" imzası ilə böyük resenziya dərc edildi. Resenziya xoş niyyətlə yazılmamışdır. Tənqidçi resenziyada əsəri təhlil etmək əvəzinə həm cavan müəllifə, həm də dövrün Ərəblinski, Sarabski, Şərifov kimi məşhur aktyorlarına ağıl dərsi verməyə çalışırdı. O, tənqidini ən çox epizodik lövhələr və məişət detalları üzərində quraraq müəllifə açıq-aşkar hücum edirdi. Hətta başqa məşhur yazıçı və şairlərimiz kimi Məmməd Əminin də qan intiqamına, hoqqabazlığa toxunması "Teatrçı"nı qətiyyən razı salmır və o belə bir fikir irəli sürürdü: "Məmməd Əmin Rəsulzadə əlbəttə faciənəvis deyil, faciənəvis olsaydı, qətiyyən gətirdiyi ümdə və mühüm bir məsələni bir təriqə barəsində olan təlimat və nəzəriyyatını kənara qoyub hərdən bir Bakıya məxsus və məişəti-ümumiyyətdə bir o qədər böyük əhəmiyyətə layiq olmayan Bakı qoçubazlarının təsviratını öz

faciəsinə qatmazdı".

O, "Qəhrəman ilə Mürtəzə arasında şirin müsavat söhbəti" zamanı pərdə arxasından gələn güllə səslərini də yersiz hesab edir və göstərirdi ki, belə bir ciddi söhbətin pozulub diqqəti "Bakı qoçusunun küçədə adam öldürməyinə döndərmək böyük bir xətadır".

Məmməd Əminin əsərində yeri gəldikcə yalançı möminçiliyə etiraz, Quranın Azərbaycan dilinə çevrilməsinin zəruriliyi kimi bəzi dini məsələlərə də toxunulmuşdur. Bu da "Teatrçı"nı təmin etmir və o, M.Ə.Rəsulzadəyə və "ondan sonra səhneyi-tamaşa üçün bir şey yazmaq istəyən "cavanlara" Qurana və ayini-islama daxil olan şeyləri və sözləri səhneyi-tamaşaya çıxarmaqdan bir az çəkinməyi" tövsiyə edir və bu fikrinin doğruluğunu əsaslandırmaq üçün göstərirdi ki, "əvvəla bu növ çəkinmək indi Avropa faciənəvisləri tərəfindən də əksərən qəbul olunub. Saniyən camaatımız hələ o məqama gəlməyib ki, işarə və kinayəni, təsdiq və təkzibi asanlıqla başa düşsün".

Tənqidçi Məmməd Əminin çox ustalıqla əsərə daxil etdiyi şeytan və mələk simvollarının da əleyhinə idi. Onun fikrincə, bu simvollar müsəlman aləminə qətiyyən uymur, guya "nə şeytan müsəlman şeytanıdır, nə də mələk müsəlman mələyi".

Haqq üçün demək lazımdır ki, "Teatrçı" tamaşanın yaxşı cəhətlərini də inkar etmir və yarı tənqid, yarı tərif şəklində yazırdı: "Bəli Rəsulzadə faciənəvis deyilsə də, gözəl şəkilləri, qəşəng sözləri, mənalı hərəkətləri bir yerə cəm etməklə qaranlıqda işıqlara calibi-nəzər edib sair faciənəvis adlananlarımızdan artıq ustadanə və



mahiranə bir tərzdə faciəsini axıra yetirib".

O, ifaçılardan da razı idi və yazırdı: "Oyunçular rollarını yaxşı ifa etdilər. Onlardan Sarabski, Rəcəbov, Əlvəndi, Hacınski, Kəngərlinski, Kazımov, Tağıyev və Mixayılova xanım öz rollarını çox təbii və gözəl oynadılar".

Aktyorlardan Ərəblinskini və Şərifovu "özlərini bir firəng, ya nemsə artisti hesab edib Bakı haləti və məişətinə əsla nisbəti olmayan bir qayidə ilə" danışdığına, güldüyünə, ağladığına görə, Muradovu isə komik rola yaraşmadığına görə tənqid edirdi. Muradov haqqında onu da deyirdi ki, "neçə dəfələrlə demişik və yenə tövsiyə edirik ki, o, komik roldan əl çəksin".

Göründüyü kimi ilk resenziya əsərin xırda-para detallarına toxunur və onun izlədiyi əsas qayəsini açmır və ya açmaq istəmirdi. Qeydləri də bir qədər fitnəkar xarakter daşıyırdı. Buna görə də həmin resenziyanın çapından iki gün sonra M.Ə.Rəsulzadə "Tərəqqi" qəzetində "Rəfi-şeytanət" adlı etiraz məktubu ilə çıxış etdi və göstərdi ki, "Teatrçı" cənabları öz resenziyasında "hər bir tənqid qayidəsindən xaric" hərəkət etmişdir. Buna görə də onun "bəzi mülahizələrini" etirazsız buraxmamağa məcburam".

Məmməd Əmin tənqidçinin bütün iradlarını incələyir və bir-bir rədd edirdi. O, bir irada xüsusilə etiraz edərək yazırdı: "Teatrçı" tənqidinin bir yerində Hacı Seyid Əzim cənablarının "Sənə saz olmasa zəmanə əgər, özünü saz qıl zəmanəyə sən" sözlərinin qəhrəmanın dilinə verilməsində saxtakarlıq, dünyanı biclik ilə keçirmək və qeyri-narəva surətlər görür. Bu

surətdə də mənim şəxsiyyətimə toxunmuş olur".

Məmməd Əmin onu da göstərir ki, "zəmanəyə saz olmaq istəməməkdir ki, aləmi-islam bu qədər dalda qalıb, özgələrin əlli il bundan əqdəm elədikləri şeyi indi etməyə məcburdur".

Müəllif tənqidçinin mövqeyini və məqsədini başa düşürdü və çox güman ki, onun şəxsiyyətini də bilirdi. Əks təqdirdə məktubuna "Rəfi-şeytanət" sərlövhəsi qoymazdı. O, əleyhdarlarının belə bir fikrini də rədd edirdi ki, "guya Qəhrəmanın başına gələn sərgüzəşt müəllifin özünün, ya ona yaxın olan bir adamın, ya bir neçə əşxasın sərgüzəştidir".

Ümumiyyətlə, əsər müəllifi tənqidçinin hər bir bəd niyyətini açıqca üzünə vurur və axırda onu da göstərirdi ki, "bu tənqiddə müfəttindən başqa bir şey görmədik".

Dekabrın 10-da "Tərəqqi" qəzetində "Bitərəf" imzası ilə başqa bir resenziya çap olundu. Burada da tənqid var idi, xüsusən əsərin dilində "avamü nas üçün anlaşılmaz" bəzi söz və ifadələr qüsur sayılırdı. Amma ümumiyyətlə, əsər obyektiv mövqedən təhlil olunur, ona professional cəhətdən yanaşılırdı. Tənqidçi əsərin yeniliyini, Qəhrəmanın azadlıq idealını və bu ideal üçün hər şeydən keçməyə hazır olduğunu, aktyorların böyük ifaçılıq mədəniyyətini yüksək qiymətləndirir və yazırdı: "Rəsulzadə cənablarının bu əsəri bizim bütün mövcud dram əsərləri arasında müstəsna bir mövqe işğal ediyor".*

Məmməd Əminin müasirləri də, sonrakı tədqiqatçıları da əsərin əhəmiyyətini həmişə yüksək qiymətləndirərək belə bir fikir irəli sürürlər: "Pyesin ana xəttini milli oyanış və istiqlal hərəkatının tədqiqi təşkil edir. Məmməd Əmin özünün bu əsəri ilə "Azərbaycana muxtariyyat" fikrini yaymağa başlayaraq çarizm istibdadını yıxmağa çalışırdı. Bu pyes Azərbaycanda milli istiqlal hərəkatı ilə bağlı ilk dram əsəridir".*

* "Tərəqqi" qəzeti, 10 dekabr 1908-ci il.



1904-cü ildən mübarizə meydanında birgə fəaliyyət göstərən Hüseyn Camal isə Məmməd Əminin 70 illik yubileyindəki çıxışına belə bir şer parçası da əlavə etmişdi:

> İşıqlar arardın qaranlıq yerdə,
> Pyes də yazardın beş-altı pərdə,
> İranda "Tərəqqi" müxbiri oldun,
> İnqilab fikri ilə boşaldın, doldun.**

Bunlar göstərir ki, Məmməd Əminin bədii yaradıcılığı onun siyasi fəaliyyətinin tərkib hissəsidir və bunları bir-birindən təcrid etmək mümkün deyildir.

Üstəlik bəzi faktlardan o da hiss olundu ki, M.Ə.Rəsulzadə də başqa sələfləri, demokratik ruhlu müasirləri, indiki halda Cəmaləddin Əfqani kimi, əsas diqqətini milli gerilikdən, cəhalət və nadanlıqdan xilas olmağa, azad və hürr yaşamağa yönəltmişdir. Onun sonrakı axtarışları da bu idealla bağlı idi.

M.Ə.Rəsulzadə bədii nəsr sahəsində də qələmini sınamış, bu sahədə də müəyyən nailiyyətlər əldə etmişdir.

* "Zaman" qəzeti, 7 iyun 1991.
** "Azərbaycan", Ankara 1954, №10.

# NƏ MÜTLƏQ LİBERALİZM, NƏ DƏ MÜTLƏQ KOLLEKTİVİZM

Məlumdur ki, M.Ə.Rəsulzadə 1909-cu ildə sıxışdırılıb Bakıdan çıxarıldı və 1911-ci ilə qədər İranda yaşadı, daha doğrusu orada fəaliyyət göstərdi.

O, "İran türkləri" əsərində göstərir ki, "zavallı İran müttəsil fəryad edirdi, lakin onun fəryadını heç kəs eşitmirdi. Eşidənlər varsa da, imdad edə bilmirdilər". İrana imdad etmək istəyənlərdən biri də o idi. O, Tehranda milli demokratik ruhlu ziyalılarla görüşür, birgə fəaliyyət meydanına atılır, xüsusən Seyid Hüseyn Tağızadə kimi ziyalılarla o, İranda, sonra İstanbulda uzun müddət bir evdə yaşamış, birgə mübarizə aparmışdır. İranda o, Şərq intibahının baniləri olan islam mütəfəkkirlərinin fəlsəfi irsi ilə daha ətraflı tanış olmuşdur. Çox güman ki, Cəmaləddin Əfqaninin fəlsəfi irsi və tələbləri ilə yaxınlıq da bu dövrə təsadüf edir.

M.Ə.Rəsulzadə İranda yaşadığı illərdə inqilab rəhbəri Səttarxanla görüşür, onunla fikir mübadiləsi aparır, fars dilində Həsən Tağızadə ilə birlikdə "Yeni İran" adlı Avropa tipli qəzet çıxarır. Amma ilk illərdə cəmiyyətin inkişaf yolları haqqında onun aydın, düşünülmüş və dəyişməz konsepsiyası yox idi, azadlıq haqqında ümumi danışırdı. Şerlərinin birində "çəkil bir yana sakitləş" təklifinə əsəbi və qəti bir şəkildə "Çəkilməm, ey hərifan mən bu meydani-şücaətdən" cavabını versə də, bu "şücaət meydanı" haqqında onun hələlik konkret planı



və məramnaməsi hiss olunmurdu.

1908-ci ilə qədər M.Ə.Rəsulzadə hələ romantik xəyallarda idi, gözəl həyat arzulayır və deyirdi: "dünya gərək hamı üçün bir olsun. Bir ovuc insanların səadət və rahatlığı üçün milyonlarca insanlara cəbr olunmasın".*

Bu fikrin sahibi elə o zamandan etibarən hürriyyət və müsavat məsələsində çoxlarından fərqlənirdi. Hətta 1909-cu ildə İrandan Bakıya "Tərəqqi" qəzetinə göndərdiyi məktublarda İran inqilabının kortəbiiliyinə işarə edərək belə bir maraqlı analogiya gətirirdi: "...İran yolsuzdur. İştə biz də rus yolu ilə getməyən bizim kimi bu yola düşmüş bir çox İran yolsuzlarına rast gəlib əhvalat sorduq. Məşrutə davasından xəbər bilmək istədik. Məlum oldu ki, İranda təbii yollar olmadığı kimi mənəvi yol dəxi yoxdur (yəni məslək yoxdur). Məşrutədən ötrü mübarizə edirlər, amma yolsuz edirlər. Məşrutə arabasını səri-mənzilə salamat aparmaq üçün öz yolları müvafiq deyil, daşlıq, çöllükdür ki, bundan ancaq *istibdad qatırı, zülm eşşəyi, hürriyyət kolyaskası* (seçmə mənimdir-Ş.Q.) keçə bilər, məşrutiyyət arabası isə daşa, qayaya toxunub əzilər, tökülər, keçməz. Məşrutiyyət arabasını salim aparmaq üçün qabaqca bir məşrutiyyət yolu qayırmalıyıq".**

1905-1907-ci il rus inqilabını görmüş, sosial-demokratlarla məslək birliyi yaratmış, "Nagahani bəla", "Qaranlıqda işıqlar" kimi pyeslər və mübarizəyə çağırış ruhlu şerlər yazmış M.Ə.Rəsulzadə bir neçə il sonra

* **M.Ə.Rəsulzadə. Əsərləri. I cild. Bakı, 1992, səh.188.**
** **"Tərəqqi" qəzeti, 27 may 1909-cu il.**

"Məşrutiyyət yolu qayırmağın" zəruriliyindən rəmzi şəkildə danışırsa və konkret olaraq bu yolun nədən ibarət olduğunu göstərmişsə, deməli, o hələ axtarışdadır, nicat yolu sorağındadır.

"Təlatümə düşmüş" gəminin sükanını saxlamaq yolunu və "sahili nicatın" hansı tərəfdə olduğunu M.Ə.Rəsulzadə 1911-ci ildən sonra özü üçün qəti şəkildə aydınlaşdırdı. Həmin il o, İrandan Türkiyəyə gəldi və burada məşhur türkçülərin əhatəsinə düşdü. Milli türk şairi, azadlıq nəğməkarı Məmməd Əmin Yurdaqulun başçılıq etdiyi "Türk yurdu" cəmiyyətinə daxil oldu. Burada Ziya Göyalp, Yusif Aqçura və başqaları ilə ünsiyyətə girib onlarla birgə fikir və iş birliyi yaratdı. Bir qədər əvvəl Bakıdan İstanbula gəlmiş Ə.Hüseynzadə, Ə.Ağaoğlu da həmin cəmiyyətdə idilər. Onlar, xüsusən "Türkçülüyün əsasları"nı yazan Ziya Göyalp onun ideya inkişafında çox mühüm rol oynadı. M.Ə.Rəsulzadə 1924-cü ildə Ziya bəyin məzarı başında elədiyi vida nitqində deyirdi: "Ziya Göyalpın millətçilik və türkçülük sahəsində elmi təbliğatı qəlblərə çökən hüznü dağıtdı. İndiki türk nəsli vücuda gətirdiyi binayi-istiqlal üçün Ziya bəyin təmsil etdiyi milliyyət fikirlərinə mədyundur".*

Bu sözləri eyni ilə M.Ə.Rəsulzadənin özünə də aid etmək olar, çünki o da "vücuda gətirdiyi binayi-istiqlal üçün" əhatəsində olduğu türk vətənpərvərlərinə və Cəmaləddin Əfqaniyə borclu idi. Mirzəbala Məmmədzadə yazır ki, "Məmməd Əmin bəyin ümmətçilikdən millətçiliyə və islamçılıqdan türkçülüyə keçməsində

* **"Türk yurdu" jurnalı, Ankara, 1924, №1.**



Şeyx Cəmaləddin Əfqani fəlsəfəsinin mühüm rolu olmuşdur".*

Burada böyük həqiqət var. Şeyx Cəmaləddini Azərbaycan ziyalıları arasında ən çox qiymətləndirənlərdən və əsərlərini tərcümə edib yayanlardan biri M.Ə.Rəsulzadə idi. Onun nəzərində Şərqin bu böyük mütəfəkkiri islam dünyasının əvəzsiz mücahidlərindən və fədailərindən biri olmaqla bərabər, həm də "Şərqin inkişaf və tərəqqi bayrağını yüksəklərə qaldıranların" önündə dayanan bir dahidir. Belə bir dahinin ideyaları ilə tanışlıq M.Ə.Rəsulzadəyə çox şey vermişdir.

"Türk yurdu" jurnalında M.Ə.Rəsulzadənin bir neçə əsəri və tərcüməsi də dərc edilmişdir. Onlardan ən məşhuru Cəmaləddin Əfqaninin "Vəhdəti-cinsiyyə fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı əsərinin tərcüməsi və "İran türkləri" adlı məşhur məqaləsidir. Ancaq bundan sonra M.Ə.Rəsulzadənin fikirləri formalaşır, sanki o, axtardığı idealını tapır.

O, türk vətənpərvərlərindən turançılığı və türkiyəçiliyi yox, məhz türkçülüyü qəbul edirdi. Türkiyəçilik və turançılıq, hətta ittihadi-islam da onun nəzərində romantik bir xəyal olub real əsası yox idi.

Onu da demək lazımdır ki, M.Ə.Rəsulzadə əsaslandığı ideya mənbələrinə ehkam kimi baxmırdı. Həmişə yerli şəraiti, milli psixologiyanı və dövrün tələbini nəzərə alırdı. O, islam birliyi tərəfdarlarının, ümumiyyətlə ittihadçıların arasında olsa da, dini və milli mənada islam və ya türk birliyinin əleyhinə olmuşdur.

* **Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı, Bakı, 1992, səh.49.**

"Əsrimizin Siyavuşu"nda yazırdı: "...müştərək din və mədəniyyət sahibi olan millətlər arasında, dolayısı ilə müsəlmanlar arasında bütün müsəlmanları bir məkanda birləşdirən "İttihadi-islam" ola bilməz. İslam birliyi mümkün olmayacaq bir xəyal, bir utopiyadır".

Amma M.Ə.Rəsulzadə bu birliyin federasiya formasını qəbul edir və gələcəkdə onun mümkün olacağına inanaraq yazırdı: "Bütün türklərin, bütün farsların, bütün ərəblərin ictimai bir vücud kimi birləşmələri mümkün , həm də istənilən bir haldır. Müsəlman olan millətlər bir millət və bir hökumət halına gəldikdən sonra ittihad deyil, islam ittifaqı ola bilər". Bu, Məmməd Əminin uzaqgörənliyini göstərir. Onu da xatırladaq ki, Cəmaləddin Əfqani də islami birlik deyəndə Avropa müstəmləkəçiliyinə qarşı dayanmaq üçün belə bir islam ittifaqı və paktı yaratmağı nəzərdə tuturdu.

Hər halda islam dünyasında və türkçülük əhatəsində olan M.Ə.Rəsulzadə türkçülüyü ancaq Azərbaycançılıq şəklində götürür və mübarizəsini də bu istiqamətdə aparırdı.

Onun Cəmaləddin Əfqanidən tərcümə etdiyi "Vəhdəti-cinsiyyə fəlsəfəsi..." bizim milli ideologiyamızın, xüsusən Məmməd Əminin özünün inkişafında çox böyük və həlledici rol oynadı. Bu mötəbər mənbənin təsiri ilə o, milli məfkurənin əsas tərkib hissələri olan millət, dil, din, mədəniyyət və s. haqqında inandırıcı müddəalar irəli sürə bildi.

Həmin milli məfkurənin tərkib hissələrinə keçməzdən əvvəl onu nəzərə almaq lazımdır ki, Azərbaycanda milli azadlıq hərəkatı ümmətçilikdən başladı və



ümmətçilik özündə bir müddət keçid mərhələsi yaşatdı. İlk siyasi təşkilatımızın "Ümmət" adlanmasını, millətimizə müsəlman milləti, dilimizə müsəlman dili, tədbirlərimizə müsəlman tədbiri, məktəblərimizə müsəlman məktəbi və s. deyilməsini, yaxud "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" ("Molla Nəsrəddin") məşhur xitabını nəzərə almaq kifayətdir. "Müsəlman" sözünü çox vaxt "tatar" sözü ilə də əvəz edirdilər. Nə millətin özü, nə dilinin adı bir məfhum kimi hələ formalaşmamışdı. Amma fikir mübadiləsi, bu haqda söz-söhbət başlamışdı. "Kəşkül" qəzeti hələ 1887-ci ildə "Azərbaycanlı" imzası ilə dərc etdiyi bir yazıda əcnəbinin bir Azərbaycan türkü ilə söhbətini verir. Hansı millətə mənsub olduğunu bilməyən, "müsəlmanam" deyib duran azərbaycanlının islam dininə mənsub olduğunu bildirən əcnəbi onun milliyyətini də başa salır və deyir - "Sizə tatar deyən qələt edir. Tatarlar Krımda, Qazanda olan müsəlmanlardır. Sizin millət azərbaycanlıdır... Arazın o tayındakı məmləkətin tayfası da sizinlə birlikdə Azərbaycan millətidir".*

"Əkinçi" qəzetində "Azərbaycan" sözü yoxdur. Amma onun redaktoru H.Zərdabi qəzetin nəşrinə icazə almaq üçün Baş mətbuat idarəsinə yazdığı ərizəsində Azərbaycan sözünü də əlavə edib deyir: "Газета будет выходить на татарском языке азербайджанского наречия".

M.Ə.Rəsulzadə bütün yaradıcılığı boyu hər yerdə əsasən "Azərbaycan türkcəsi" işlətmişdir. Hətta Nizamiyə həsr etdiyi şerlərinin birində "şübhə yoxdur ki, o

* **"Kəşkül" qəzeti, 1887, №60.**

bir azərbaycanlıdır" deyirdi. Amma millət və milliyyət haqqında onun xüsusi tədqiqatları var. Bu da təsadüfi deyil, axı onun fəaliyyətinin əsas mahiyyəti milli məfkurə işığında irəliləmək, milli kökə söykənmək idi. Onun nəzərində milli məfkurə üç amilə əsaslanırdı; milli varlıq, dini reallıq və yenilik. Tələb olunan yeni inkişaf səviyyəsinə çatmaq üçün xalq, hər şeydən əvvəl, özünü tanımalı, dinini, etiqadını qorumalı və dünya mədəniyyətinə yiyələnməlidir. Daha doğrusu, bunlar xalqa öyrədilməlidir. M.Ə.Rəsulzadənin türkçülərdən və onların ideoloqu Cəmaləddin Əfqanidən əxz etdiyi bu amillər onun nəzərində Azərbaycanda milli şüurun, milli mənliyin oyanmasına, milli birliyin yaranmasına, nicat yolunun tapılmasına kömək etməlidir. Bu məqsədlə də onun 1915-ci il oktyabrın 2-də nəşrə başladığı "Açıq söz" qəzeti məfkurə istiqamətini bu prinsip əsasında qurmuşdur. O, qəzetin birinci nömrəsində "Tutacağımız yol" adlı məqalədə açıqca yazırdı: biz hamımız "zəmanə adamı olmalıyız... və üç əsasa sarılmalıyız".

Həmin əsaslar qəzetin ilk nömrəsindən onun epiqrafına çevrilən belə bir formuladan ibarət idi: "Türkləşmək, islamlaşmaq, müasirləşmək".

Uzun axtarışlardan və mübahisələrdən sonra yaranan bu formula artıq bütün türkçülər tərəfindən qəbul edildi və ilk geniş intişarını Azərbaycanda tapdı. Bu formulanı Atatürkün "fikrimin atası" adlandırdığı Ziya Göyalp "türk millətindənəm, islam ümmətindənəm, Avropa mədəniyyətindənəm" şəklində təklif etmişdir, amma Əlibəy Hüseynzadə onu indiki formulaya salmış və hamı da qəbul etmişdir. Həmin mübahisələrdə



M.Ə.Rəsulzadə də iştirak edirdi. O, Bakıya qayıdanda artıq həmin fikri "Açıq söz" qəzeti ilə açmağa, şərh etməyə və xalqa çatdırmağa başladı. Həsənbəy Zərdabi kimi, o da belə bir prinsipə əsaslanırdı: "Camaat bilmir, bildir, deməsən bilməz. Qoy əvvəl səni döysünlər, vursunlar, sözünü eşitməsinlər, eybi yoxdur. Axırda bilərlər".*

M.Ə.Rəsulzadənin xalqa deyəcəyi əsas söz, oxuculara çatdıracağı əsas fikir milli məsələ idi, bunun da mərkəzində özünütanıma dururdu. Onun fikrincə, özünü tanımasan, kimliyini bilməsən hara getdiyini də, nə iş gördüyünü də bilməzsən.

Milli məsələ Birinci dünya müharibəsi ərəfəsində bütün dünyada geniş müzakirə obyekti olmuşdur. Leninin və Stalinin millət haqqında müddəalarını çox əzbərləmişik. Azərbaycanda bu məsələ haqqında qəbul olunmuş ümumi standarta uyğun şəkildə yazan M.Ə.Rəsulzadə idi.

Onun fikrincə "millətpərəstliyin və milli diriliyin nə olduğunu yaxşı bilmək üçün əvvəlcə millətin nə olduğunu öyrənmək və nə kimi vasitələrə rücu etmək lazım olduğunu anlamaq lazımdır".

Bu bizim mütəfəkkirin dünyagörüşündə mühüm nöqtə idi və apardığı mübarizənin ana xəttini təşkil edirdi. O, milli diriliyi dar, məhdud çərçivədə yox, geniş mənada götürür, onda siyasi dəyər görürdü. "Dirilik nədir?" sualına cavab verərək yazırdı: "Filosoflar nə deyirlər, desinlər, dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli

* **M.Ə.Rəsulzadə. Əsərləri. I cild, Bakı, 1992, səh. 187.**

olmaqdan ibarətdir".

Belə bir qüvvəyə malik olmaq üçün gərək özünü tanıyasan, millət olduğunu dərk edəsən.

M.Ə.Rəsulzadənin ilk mülahizələrinə görə, "millət dil birliyi, adət birliyi, ənənəyi-tarixiyyə və nəhayət, etiqadi-diniyyə birliklərinin məcmuyundan mütəşəkkil bir məhsuldur".*

O, milləti təşkil edən, formalaşdıran bu komponentlərdən ən böyük üstünlüyü dilə verir və onu da deyirdi ki, "dil millətin böyük hissəsidir. O, onun zahiri və beynidir. Millətləri bir-birindən ayıran ən böyük əlamət iştə bu dil damğasıdır".**

Din və dil məsələsində M.Ə.Rəsulzadənin fikirləri bütünlüklə C.Əfqaninin fikirləri ilə üst-üstə düşür. Milli birlik üçün o, dinin roluna yüksək qiymət verir, amma sələfi C.Əfqani kimi üstünlüyü dildə görürdü: "Din dil qədər mətin və möhkəm ola bilməz. Çünki dil daimidir, başdır. Tərəqqi və təkamül edərsə də, əsaslı bir etirafa və təğyirə uğramaz. Halbuki tarixdə bir çox din dəyişmiş olan millətlər mövcuddur... Əxlaq və adət üzərindəki fövqəladə təsiri nöqteyi-nəzərindən dinin də millətdə böyük bir iştirakı vardı. Dillə bərabər dində də bir olan millətlərin mərifəti-qövmiyyələri daha tez hasil olub aralarında milli vicdan daha əvvəl inkişaf edibdir".

Bunların hamısı, birinci növbədə, məhz milli vicdanın, milli birliyin, milli şüurun oyanmasına və inkişafına xidmət etməli idi.

---

* "Dirilik" jurnalı, 1914, №1.

** M.Ə.Rəsulzadə. Dil ictimai bir amil kimi. "Şəlalə" jurnalı, 1913, № 27.



Məmməd Əmin fikrini inkişaf etdirərək yazırdı: "Öz-özlüyündə məlumdur ki, birliyi dərk eləmək və onu arzu eləmək tarixi bir zəmində insanların tədricən qövmiyyətdən millət dərəcəsinə çıxmaları ilə hasil oluyor".

Burada bir amilə diqqət yetirmək lazımdır. Klassik irsimizdə, xüsusən, ictimai-fəlsəfi fikrin tariximizdə, millət, milliyyət, dil, din, əxlaq, mədəniyyət kimi milli ideologiyamızın yaradıcı amillərini heç kəs Rəsulzadə kimi inandırıcı şəkildə şərh edib müəyyən bir fəlsəfi sistem yaratmamışdır.

1914-cü ildə "Milli diriliyimiz" adlı məşhur əsərində bu məsələni ortaya atan və milli ideologiyanı da bu sütun üzərində quran M.Ə.Rəsulzadə sonralar da həmin fikrə dəfələrlə qayıtmışdır. O, 1952-ci ildə Türkiyədə nəşr etdiyi "Azərbaycan" jurnalında yazırdı: "Millət anlamını ifadə edən iki söz vardır. "Milliyyət və millət. Bunlardan birincisi lisanı, dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluğu ifadə edir. İkincisi isə bu topluluqda ümumi bir ifadəyi anladır".*

O bu sahədə xüsusi tədqiqat aparmış Avropa alimlərindən Madzi və Dürkheymdən fərqli olaraq millət sözünü şərh edərək göstərir ki, birincisinin nəzərində millət "ünsüri və tarixi bir alətdir, ikincisində isə millət ictimai və iradi bir hadisədir. Biri etnik anlayışdır, digəri siyasi anlamdır. Daha doğrusu, "o, rüşeymdir, bu cocuqdur, o ağacdır, bu meyvədir, o anadır, bu yavru-

---

* "Dirilik" jurnalı, 1914, №1-5.

dur, o milliyyətdir, bu millətdir".*

M.Ə.Rəsulzadənin fikrincə, milliyyətin millət halına keçməsi feodal sisteminin dağılması, burjuaziyanın zühuru ilə bağlı olub "ümumi şüur və kollektiv iradənin məhsuludur". Məhz bu ümumi şüur və kollektiv iradə kamilləşib vətən və xalq azadlığı uğrunda mübarizə səviyyəsinə qalxmalı, hər kəsin mənəvi tələbatına çevrilməlidir. Sözün həqiqi mənasında hamıda millət hissi, millət qüruru yaranmalıdır. Çünki Məmməd Əminin fikrincə, "Millətçilik fikri ən təbii, ən mədəni və ən irəli bir fikirdir... həm də insanlıq kültürünün ən təbii və ən normal inkişaf yoludur".**

Buna görə də M.Ə.Rəsulzadə milliyyətçiliklə millətçiliyi bir-birindən ayırmağı, aralarındakı çox ciddi fərqi dərk etməyi tələb edirdi: "Avropalıların patriot termini ilə ifadə etdikləri anlam bizim millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Avropalıların nasionalizm sözü ilə kəsb etdikləri anlam tamamilə başqa şeydir".

M.Ə.Rəsulzadə haqlı olaraq göstərir ki, o zaman Azərbaycanda belə bir ümumi şüurun yetişməsi və tərbiyəsində mühüm rol oynayan əsas qüvvə ziyalılar idi. Onlar "mətbuat yolu ilə milliyyətdəki kollektiv iradəni möhkəmləndirən fikir adamları ilə sənətkarlar yetişdirdi. Bunların sayəsində milliyyət topluluğu bir millət olmaq əzminə gəldi".

M.Ə.Rəsulzadənin ən böyük işi və tarix qarşısında ən faydalı xidməti Azərbaycanın dövlətçilik məsələsini

* **"Azərbaycan" jurnalı, Ankara, 1952, №5.**
** **"Azərbaycan" jurnalı, Ankara, 1952, №7.**



ortaya atması idi. O zaman bolşeviklər və daşnaklar "Azərbaycana muxtariyyət yerinə məzarıstan verəcəyik" deyə vahimə yaradırdı. Mart hadisələri, "Açıq söz" qəzetinin mətbəəsinin, "Müsavat" partiyasının yerləşdiyi "İsmailiyyə" binasının yandırılması bununla əlaqədar idi. Buna baxmayaraq 1917-ci ilin aprel ayında Bakıda toplanan "Qafqaz müsəlmanlarının qurultayı"nda və həmin ilin mayında Moskvada toplanan "Rusiya müsəlmanlarının konfransı"nda ilk dəfə M.Ə.Rəsulzadə tərəfindən irəli sürülən, 241 səsə qarşı 446 səslə qəbul olunan və alqışlarla qarşılanan əsas məsələ milli dövlət məsələsi idi.*

Çar mütləqiyyəti dağılandan sonra imperiyaya daxil olan xalqların gələcək taleyi hamını düşündürsə də, iki təklif var idi. Milliyyətcə osetin, ixtisasca hüquqşünas olan Əhməd Salikov unitarizm, M.Ə.Rəsulzadə isə federalizm təklif edir və hər ikisi mövqeyinin doğruluğunu sübut etməyə çalışırdı.

Məşhur tatar ziyalılarından olan Abdulla Taymas M.Ə.Rəsulzadənin Moskva çıxışını dinlərkən tamam başqa bir mənzərənin yarandığını xatırlayır və yazır: Bu parlaq fikir sayəsində Məmməd Əmini "bütün Rusiya türklüyü tanımış, artıq o, sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün Rusiya türkçülüyünün əzizi olmuşdur".**

Əsrlər boyu zülm görmüş xalq bütünlüklə milli dövlət işığına doğru gedirdi. M.Ə.Rəsulzadə həmin illərdə

* **İhsan İlqar. Rusiyada birinci müsəlman konqresi. İstanbul, 1988, səh 300.**
** **"Azərbaycan" jurnalı, Ankara, 1955, №4.**

Azərbaycandakı milli ovqatı sonralar xatırlayaraq yazırdı: "Bütün türk ölkələri kimi Azərbaycan türkləri də milli məfkurə atəşi ilə tutuşmuşlardı".*

Belalikla, xalqın əhvali-ruhiyyəsinin bu vəziyyətə qalxması, onların müəyyən bir istiqamətə yönəldilməsi eyni zamanda xalqın iradəsini, azadlıq, bərabərlik arzusunu ifadə edən, "millətin vicdanının tərcümanı" (Mirzəbala Məmmədzadə) olan "Müsavat" partiyasının düşünülmüş proqramının mərhələ-mərhələ həyata keçirilməsi Azərbaycan Demokratik Respublikasının yaranması ilə nəticələndi.

M.Ə.Rəsulzadənin ictimai-siyasi və fəlsəfi irsində diqqəti cəlb edən mühüm amillərdən biri də dövlət sistemi müddəalarıdır. Özünün dediyi kimi "Misli Avropada da olmayan" Azərbaycan Demokratik Respublikası demokratik əsaslara söykənən sosial sistemli bir dövlət idi. Onun sosial əsasları nədən ibarət idi?

Əvvəla, o zaman dövlət sistemi haqqında fikirlər müxtəlif olsa da, mövcud idi. Proletariat diktaturası haqqında Marksın, Leninin təlimi hələlik nəzəriyyə idi, həyatda təcrübədən keçməmişdi. Hətta təcrübədən keçəndən sonra, dünyanın kapitalizm və sosializm cəbhələrinə bölündüyü vaxtlarda da M.Ə.Rəsulzadə milli dövlət sistemi haqqında fikirlərini dəyişməmişdi. 1953-cü ildə "Milli təsanüd" adlı əsərində yazırdı ki, "Sözdə siyasətən hürr, mənən hürr və iqtisadən hürr olan" bir dövlətin vətəndaşları "yarını məchul bir dilim ətmək qazancının əsiri" kimi yaşayacaqlarsa, nə belə bir "liberal dövlət sistemini", nə də Leninin "zatında bir

* **"Azərbaycan" jurnalı, Ankara, 1954, №8.**



sinfin digər sinfi əzmək və kəndinə tabe etmək üçün qurmuş olduğu cəbr makinasını" qəbul etmək olmaz.

"Əmələnin nə vətəni var, nə də milləti" deyən Marksın fikrini də M.Ə.Rəsulzadə "müfrit cərəyan" adlandırırdı. Onun nəzərində bu "yeni bir mütləqiyyət idealı doğurur ki, "onun ən kamil və ən amansız mümməssidi kommunizm və Rusiyadakı misalı isə bolşevizmdir".*

M.Ə.Rəsulzadənin bu "milli təsanüdü" bir acıdan, yanğıdan da doğurdu. Çar Rusiyasının zülmü altında 100 il əzab çəkmiş azərbaycanlıların bütün təbəqələri, zümrələri gözü qıpıq, başı qapazlı olmuşdur. Heç kəs öz insani haqqını, hüququnu qorumaq iqtidarında deyildi. Üzeyir Hacıbəyov yazırdı: "Rusiya millətləri içərisində əsarətin ən ağır yükünü çəkən, istibdadın ən şiddətli zülmlərinə düçar olan, dini, milli həqarətin ən acı zərbələrinə məruz qalan, hüququnun ən zərurilərindən belə məhrum edilən və dünənə qədər zillət və rəzalətlə ömür keçirən, ağız açıb əhval və övzanın məşəqqətindən şikayət etməyə qüdrəti olmayan bir millət var idisə, o da yalnız Azərbaycan türk milləti idi".**

Yeni milli dövlət xalqı bu acınacaqlı vəziyyətdən qurtarmalı, xalqın öz dövləti olmalı idi. Bolşevizm bunu Rusiyadakı bütün xalqlara vəd eləsə də M.Ə.Rəsulzadə ona bel bağlamırdı, onun "yaxıcı və yıxıcı" təbiətini hiss edirdi.

M.Ə.Rəsulzadə nə mütləq liberalizmi, nə də mütləq kollektivizmi qəbul edirdi, o, "hər ikisini təlif edən so-

* **"Azərbaycan" jurnalı, Ankara, 1953, №12.**
** **"Azərbaycan" qəzeti, 3 dekabr, 1918-ci il.**

lidarizm"ə üstünlük verir və yazırdı: "Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, məşrutdur, şərt isə ümumun mənfəəti və dövlətlə millətin səlamətidir".*

Onun nəzərində "sinifləri əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri-etibara alan liberalizm də daha kosmopolit və internasionaldır. Solidarizm isə millidir".

Həmrəylikdəki bu milliliyin mənəvi dayaqlarını, birləşdirici amilini o, "dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdə" görürdü.

M.Ə.Rəsulzadə dünyada hakim olan iki əsas sistemdən fərqli olaraq belə bir müddəa irəli sürürdü: "Madam ki millətçiyiz, madam ki, milli dövlət istiqlalını müdafiə ediyoruz, o halda bizim üçün nə kosmopolit liberalizm və nə də kommunizm cayiz olamaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir".

O, sonralar Türkiyə Cümhuriyyətinin 10 illiyi münasibətilə yazdığı bir məqalədə bu fikri bir qədər də aydınlaşdıraraq deyirdi: "Rus kommunizminin yıxıcı və yaxıcı tətbiqatı yanında türk demokratizminin yapıcı və yaradıcı icratı vardır. Yıxıcılıq keçər, yapıcılıq qalar".**

Azərbaycan Demokratik Respublikası məhz belə bir "yapıcı" dövlət sistemi olmalı ildi. O asan başa gəlməmişdir. 1918-ci ildə parlament açılarkən M.Ə.Rəsulzadə deyirdi ki, bizim ən yaxın məqsədimiz Azərbaycan muxtariyyətini müdafiə etmək idi. Ona görə də bizi sağdan da döyürdülər, soldan da. "Sağdan bizə deyir-

*** "Azərbaycan" jurnalı, Ankara, 1953, №12.**
**** "Azərbaycan" jurnalı, Ankara, 1953, №7.**



dilər ki, azərbaycançılıq şüarı ilə biz müsəlmanları parçalayırıq və azərbaycançılıq bayrağı yüksəltməklə biz - allah göstərməsin - islamiyyətin təməlini pozuruq. Soldan isə deyirdilər ki, Azərbaycana muxtariyyəti istəməklə biz birləşmiş demokratik cəbhəni pozuruq".*

Əsrin Siyavuşunun əsas ideoloqu M.Ə.Rəsulzadə onu da deyirdi: "bizim siyasi proqramımızın əksər hissəsi artıq gerçəkləşmişdir... Azərbaycan fikri millətin şüuruna yerləşmişdir. Buna görə də indi əsas vəzifə "Azərbaycan ideyasını" təbliğ yox, "mövcud faktın siyasətən, həqiqətən və xaricən müdafiəsi ilə" məşğul olmaqdan ibarətdir. Bu ağır və şərəfli işin bütün yükünü "Müsavat" və onun rəhbəri M.Ə.Rəsulzadə və başqaları daşımışdır.

Azərbaycan Demokratik Respublikası Şərqdə ilk demokratik respublika idi. Onun yaranışı qonşu respublikalara nisbətən çox çətinliklə başa gəlsə də, sürətlə inkişafa qədəm qoymuş və az müddətdə böyük nailiyyətlər qazanmışdır. Azərbaycan ziyalıları milli dövlət yaratmaqda sanki bir möcüzə göstərmişdilər. Çünki dövlət yaratmaq imkanı və yaşatmaq təcrübəsi olmayan bu ziyalıların hərəkəti çox böyük fədakarlıq tələb edirdi. Dövlət demək olar ki, boş yerdə yalın əllə yaradılmışdı. Baş nazir Fətəli Xan Xoyski 1918-ci ilin dekabrın 7-də parlamentin birinci iclasında demişdir: "Möhtərəm Azərbaycan parlament üzvləri! Bu gün eylə böyük, əziz və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görməzdik. Bu gün o gündür

*** Mirzəbala Məmmədzadə. Milli Azərbaycan hərəkatı, Ankara, 1991, səh 106.**

ki, milli müqəddəratımızı öz əlimizə aldız".

Hökumətin başçısı əsrlər boyu müstəmləkə vəziyyətində yaşayan Azərbaycan xalqı üçün nəhayət həmin "böyük, əziz və mübarək" günün hansı çətinliklərdən doğduğunu, hansı xarici və daxili maneələrə sinə gərdiyini şərh edərək onu da göstərirdi ki, "hökumətimizi eylə zamanda təşkil etmişik ki, bir kənddən digərinə getmək qorxulu idi, heç kəsin irzi, namusu, malı əmində deyildi... dəmir yollar tamamilə yatmış kimi idi, post və teleqraf müxabiratı bilmərrə kəsilmişdi, dövlətin ən artıq möhtac olduğu maliyyət naminə heç bir şeyi yox idi, dövlət makinasını təşkil edən idarələrin həpsi dağılmış, xidmətçilər qaçmışdı, idarələrin bəzilərinin adı var idisə, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun veryordu. Hər kəs özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdı... Fəqət bununla bərabər daxili işlər o qədər pərişan olan bir zamanda hökumət daxilində qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz vardı, nə silahımız".*

Hökuməti təşkil edərkən hətta polisin belə olmadığı bir zamanda Milli Şuranın sədri M.Ə.Rəsulzadə həmin parlamentdə bildirirdi ki, "Zaman ağır, keçəcəyimiz yol tikanlı və arizəmidir. İrəlidə bir çox müşkülat və maneələri də gözə almalıyıq. Bu maneəli yollarda məbus əfəndilər, bir çox fədakarlıqlar ibraz etməli, təmsil etdiyiniz millətə səbat və mətanət göstərmək üzrə bir

* **"Azərbaycan" qəzeti, 9 dekabr, 1918-ci il.**



nümunəyi-əmsal etməlisiniz".

Belə bir ümumi səy, səbat və mətanətlə yaranmış Azərbaycan Demokratik Respublikası ilk gündən öz proqramını elan etmiş "bütün millətlərlə, xüsusən qonşu olduğu millət və dövlətlərlə" dostluq münasibətləri saxlayacağını, respublika ərazisində yaşayan "bütün millətlərə sərbəst inkişaf üçün geniş meydan" açacağını, "xalqçılıq və demokratiya" prinsiplərinin var qüvvəsi ilə qorunmasına çalışacağını, "mətbuat, söz, vicdan, cəmiyyətlər və ittifaqlar azadlıqlarının" qanunla təmin ediləcəyini qətiyyətlə bildirmişdir. Onu da açıq şəkildə elan etmişdir ki, "hökumət başlıca olaraq işçi və kəndli kimi əkinçi insanlara isnad etməlidir... Azərbaycan azadlıq ölkəsi olmalıdır. Azərbaycanda ögey-doğmalıq olmamalıdır".*

Azərbaycan Demokratik Respublikası 8 saatlıq iş günü müəyyən edərək onu da bildirdi ki, hər bir əməkçi həftədə 24 saatlıq istirahət haqqına malikdir. Əvəzi işçinin maaşından çıxılmayan bu 24 saatdan başqa ildə bir aylıq məzuniyyət haqqı ilə də təmin olunmalıdır. Gecə xidməti yasaqdır. 16 yaşına qədər olan cocuqların çalışması qadağandır. Yaşı 16-dan 18-ə qədər olan işçilər 6 saatdan artıq işləməməlidir. Qadınlar səhhət və vücudlarına zərərli işlərdə çalışmamalıdırlar.**

Hökumət "kəndliləri torpaqla, işçiləri isə işlə təmin etmək" məsələsini əsas tələb kimi irəli sürsə də, hələlik

* **Mirzəbala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Ankara, 1991, səh.108.**

** **Mirzəbala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Ankara, 1991, səh.110.**

sahibkarları müəyyən mülahizələrə görə sıxışdırıb aradan çıxartmaq istəmirdi. M.Ə.Rəsulzadə özünün məşhur "Əsrimizin Siyavuşu" adlı əsərində yazırdı: "Azərbaycanlılar düşünürdülər ki, mülkiyyəti tamamilə ortadan qaldırmaq, şimdiki durum içərisində insanlardan şəxsi təşəbbüs qüvvətini zorakı olaraq ortadan qaldırar. Bu qüvvət olmadıqca dünya nə mamur olur, nə də gözəl. Sosial həyat irəliləmədən nizamı pozular".*

O da vardır ki, "burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünmürdü".

Marksizm-leninizmi 70 il təbliğ edənlər, onun üçün dəli-divanə olanlar indi yazırlar ki, bu, yalançı elmdir, əfsanədir, olmayan bir şey haqqında uydurmadır. Bu uydurma indiyə qədər ancaq əzbərlənmişdir. Kant deyəndə ki, başqalarının fikirlərini kor-koranə əzbərləməkdənsə, özün fikirləşməyi bacarmalısan, Engels üçün Marks, Lenin üçün hər ikisi, bütün sonrakı başkəsənlər üçün əsas ideal idisə, eyni mübarizə dövründə yaşayan Məmməd Əmin üçün ayrıca istinad nöqtəsi ağıla uyğun olan idi. Onun üçün bir ideal var idi: insan səadəti.

O zaman mübarizə meydanına atılanların böyük əksəriyyəti nicat yolunu sinfi mübarizədə və ya əksinə sinfi sülhdə görürdüsə, Məmməd Əmin bunu özünəməxsus şəkildə "barış"la əlaqələndirirdi. O, böyük Firdovsinin şah əsərindən və onun ölməz qəhrəmanından danışarkən yazırdı: "Siyavuşun digərlərindən fərqi

*** Məmməd Əmin Rəsulzadə, Əsrimizin Siyavuşu, Ankara, 1989, səh.41.**



budur ki, o, birliyi düşmənlik və zorlamaqla deyil, barış və ittifaqla meydana gətirmək istiyordu".

O, Siyavuşu "hərbin deyil, barışın geri dönməz qəhrəmanı" adlandırır və özü də buna əməl edirdi. Biz onun əsərlərində və fəaliyyətində ölüm hökmünə, qan hərisliyinə rast gəlmirik. O, xərabələr üzərində yüksələn, göz yaşları ilə yoğrulan səadət binası qurmağın qəti əleyhinə idi. O, bələlərinin acı aqibətini əvvəlcədən görürdü. Onun İstanbuldan Stalinə yazdığı məktubda da, başqa əsərlərində də zülmün, rəzalətin uzağa gedə bilməyəcəyinə işarələrini sezmək çətin deyildir.*

İnsan üçün çalışan insanın düşməni ola bilməz. Əksinə, onun qan qardaşı olmalıdır. Məmməd Əmin də belə idi. O, Jan Jak Russonu və Dostoyevskini də, Firdovsini və L.Tolstoyu da, Nizamini və Monteskyonu da mənimsəmiş, Sədinin "dərin hikmətinə", Hafizin "dadlı qəzəllərinə", Puşkinin "su kimi axan nitqinə", Lermontovun "dağlarda uçan ruhuna", Tolstoyun "məsihanə fəlsəfəsinə" bələd idi. Bu bələdçiliyi öz həmvətənlərinə də məsləhət görürdü. Amma bir şərtlə "türkü kəndi Sədilərindən, Tolstoylarından məhrum etmək olmaz".

N.Q.Çernışevski "Gözəl həyatdır" deyirdi və sənətin mənbəyini də bu gözəllikdə aramağı tövsiyə və tələb edirdi. Azərbaycanın fitri istedadlı oğlu isə deyirdi: "Dirilik dünyanı sevməkdən ibarətdir". Onun fikrincə əgər dünya pisdirsə, onu dağıtmaq, məhv etmək yox, yaxşılaşdırmaq, gözəlləşdirmək, yenidən qurmaq lazımdır".

"Əhalisinin 10 faizini vəd elədikləri kommunizmdə

*** M.Ə.Rəsulzadə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991, səh.78.**

yaşatmaqdan ötrü 90 faizini qırmağa hazır olan" (V.Solouxin) Lenin kimi yox, leninizmi uydurub özünü yaşatmaq xatirinə Rus imperiyasındakı bütün insanların, birinci növbədə "türk xalqlarının qəddar və quduz düşməni" (M.Ə.Rəsulzadə) Stalin kimi yox. Məhz Məmməd Əmin Rəsulzadə kimi. Onun orijinallığı, bəşəriliyi, insanpərvərliyi də bunda idi.

Azərbaycan Demokratik Cümhuriyyəti 1920-ci ildə rus ordusu tərəfindən yıxılandan sonra M.Ə.Rəsulzadənin həyatının mühacirət dövrü başladı. Taleyin hökmü ilə dünyaya səpələnmiş məsləkdaşlarına, onların törəmələrinə, bütün yeni nəslə ümidlər verdi, bir an da olsa Azərbaycan fikrini, Azərbaycan taleyini yaddan çıxartmadı, doğma Azərbaycanını yenidən azad görmək ümidi ilə yaşadı. Dərin məntiqi, yetkin mühakiməsi ilə dünyanın Stalin, Hitler kimi cəlladları ilə fikir mübarizəsi apardı. Xaricdəki Azərbaycan milli hərəkatına rəhbərlik elədi. Onun xaricdə nəşr etdiyi "Yeni Qafqaziya" (1923-1928), "Azəri-türk" (1928-1929), "Odlu yurd" (1929-1931), "Qurtuluş" (1934-1938), "Azərbaycan" (1952-ci ildən indiyə qədər) kimi mətbuat orqanlarında, ayrı-ayrı kitab və nəşrlərdə, mötəbər yığıncaqlarda, konfrans və qurultaylarda mübarizəsini bir an da olsa dayandırmamışdır. O, bütün mühacirlərin pənahı, ümidgahı, ideya rəhbəri idi. Onların dostuna dost, düşməninə düşmən idi. Müasirlərindən biri Ziya paşanın türk millətinə aid aşağıdakı beytini sanki M.Ə.Rəsulzadə üçün söylədiyini qeyd edirdi:

Tərkibi əcibiz: iki xasiyyətimiz var
Dostlarımızın dövlətiyiz, xasıma bəlayız.



Məmməd Əmin də belə idi, dostlarının birinci növbədə canından artıq sevdiyi xalqının dövləti, əleyhdarlarının isə başına bəla idi.

Onu təkcə Azərbaycan mühacirləri yox, Rusiyadan gəlmiş bütün türk-tatar mühacirləri də sevirdi. Krım tatarlarının məşhur ziyalılarından olan Cəfər Seyid Əhməd Krımər 1954-cü ilin yanvarında M.Ə.Rəsulzadənin 70 illik yubileyinə göndərdiyi məktubu bu sözlərlə bitirirdi: "Bir gün həyatınızı yazacaq bəxtəvər bir türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir türk sənətkarı ömrünüzün hər dövrünü qavrayıb anladıqca "Nə xoşbəxtəm ki, bu yaşamağa dəyər səhifələri canlandırıram" - deyə sevinəcəkdir".*

Bir il sonra M.Ə.Rəsulzadəni son mənzilə yola salanda mühacir şairimiz Kərim Yaycılı da ulu rəhbərin məzarı başında oxuduğu şerində deyirdi:

Nə heykəl, nə də iz var: daşda, torpaqda, qumda,
Bir günəşdi, bir günəş! Batıb gedən ufuqda
Sarmışkən atəşilə imanı qəlbimizi;
Bir soyuq mart axşamı tərk edib getdi bizi...
Təsəllisi güc olur ona vurulanların,
O, ümid günəşiydi geridə qalanların,
Bir nəslə həyat verən işıqdı, urfandı o!
Yaşatmazdı qəlblərdə ümidsizlik və məlal
Onun məfkurəsiydi: HAK, MUSAVAT, İSTİQLAL!

---

*** "Azərbaycan" jurnalı, Ankara, 1954, №10-11.**

Sar köksünə Ankara yurdumun ziynətini,
Günü gəlincə istər səndən əmanətini,
Şükranını sunarkən bir gün hörmətlə sana
O kəmiklər gedəcək, gedəcək o vatanına!
Saxla qoynunda onu vermə yabana, yelə
Bir hədiyyən olacaq yurdumdakı heykələ.*

O gün gəldi. M.Ə.Rəsulzadənin özü Ankara torpağında uyusa da, ruhu bizimlədir, hər bir azərbaycanlının qəlbində onun mənəvi heykəli vardır.

*** Kərim Yaycılı. Vətəni və milli şerlər. Ankara, 1962, səh.58.**



# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

***1918-ci il may ayının 28-i tarixə qızıl hərflərlə yazıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bütün dünyaya elan olundu. Bu, bütün şərqdə və müsəlman aləmində ilk konstitusiyalı türk respublikası idi. O anda Məmməd Əmin Rəsulzadə kənarda - Batumda idi. O, qiyabi olaraq Milli Şuranın sədri seçilmişdi. Dağılmaqda olan Qafqaz Parlamentinin - Seyminin 44 azərbaycanlı deputatından 24 nəfər iştirak edirdi. Həmin iclasda Azərbaycan Xalq Cümhuriyyətinin başçısı Fətəlixan Xoyskiyə həvalə olundu ki, bu məsələni bütün dünyaya bəyan etsin. Azərbaycan Xalq Cümhuriyyəti 8 saatlıq iş günü müəyyən etdi. O da xüsusi vurğulandı ki, "burada bir sinif digər sinfə hakim deyil, insan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünməməlidir".***

***Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdə yaradıldı, bir az keçmiş Gəncəyə köçdü, nəhayət türk qoşunları Bakını erməni daşnaqlarından və rus bolşeviklərindən 1918-ci il sentyabrın 15-də azad etdikdən dərhal sonra***



*Nəsibbəy Usubbəyovun təşkil etdiyi Nazirlər şurası*

*Bakıya köçüb burada fəaliyyətini davam etdirdi.*

*Azərbaycan Milli Şurası noyabrın 16-da Bakıda öz işini yenidən bərpa etdi. İclasda çıxış edən F.Xoyski bildirdi ki, vaxt az, zaman gərgin olduğu üçün hökumətin Müəssislər Məclisini çağırmağa imkan olmamışdı və bu işi Milli Şura öz boynuna götürməlidir. Milli Şura bu təklifə razı oldu. Noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclasda bu məsələ geniş müzakirə edildi və hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar-80, ermənilər-21, ruslar-10, almanlar-1, yəhudilər-1 nümayəndəyə yer ayrılması və Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alındı. Qalan 6 nəfəri başqa təşkilatlar verməli idi.*

*Parlament 1918-ci il dekabrın 3-də açılmalı idi. Lakin Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları buna hər cür mane olmağa çalışdılar. Nəhayət tarixi gün dekabrın 7-nə keçirildi və həmin gün üç rəngli aylı-ulduzlu bayrağımız ilk dəfə qaldırıldı və Məmməd Əmin Rəsulzadənin dediyi "Bir kərə yüksələn bayraq bir daha enməz" sözləri dillər əzbəri oldu.*

*1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin qız məktəbinin binasında müsəlman Şərqində ilk Azərbaycan Parlamentinin birinci iclası təntənəli şəkildə açıldı və o, 23 ay yaşadı.*

# MƏLƏKLƏRİN GÜLÜŞÜNDƏN YARANAN İLK DÖVLƏTİM

1918-ci il mayın 28-də tarixin keşməkeşlərindən, zülmündən sinəsi cadar-cadar olmuş Azərbaycan torpağında dünyanın ilk türk respublikası olan Azərbaycan Demokratik Cümhuriyyəti yarandı. Xalqımızın əsrlik arzuları çin oldu, ümidləri çiçək açdı, bəxtimizə doğan yeni günəşin şüaları qəlblərə hərarət, gözlərə nur, qollara qüvvət verdi. Şair Əhməd Cavad demişkən

Sən qüdrətin aşıb-coşan vaxtında,
Mələklərin gülüşündən yarandın.
Səhər dilli bir fırçanın əli ilə
Ahuların duruşundan yarandın.

Ay işığı, gözəlliyin, qızlığın,
Çiçəklərlə öpüşündən yarandın.
Sərinlətdin baxışınla könlümü,
Buludların uçuşundan yarandın.

Azərbaycan Demokratik Respublikası xalqımız üçün onun taleyinə doğan dan ulduzu, "qaranlıqda boğularkən" ümidsizliyə qapıldığı bir vaxtda göydən enmiş ilahi bir qüvvənin ərməğanı idi. Şairi və onun oxucularını belə bir yüksək poetik pafosa sövq edən də, gözünə işıq, qəlbinə sevinc verən də məhz bu möcüzəli bir varlıq idi.



Azərbaycan Demokratik Respublikasının yaranması həqiqətən bir möcüzə idi. Onun baniləri belə bir möcüzəni yalın əllə, topsuz-tüfəngsiz ərsəyə gətirib ona nəfəs verdilər. Fətəli Xan Xoyski dekabrın 7-də Parlamanın birinci iclasında həmin çətinliklərə işarə edərək deyirdi: "Hökümətimizi elə bir zamanda təşkil etdik ki, bir kənddən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, malı əmində deyildi. Dəmir yollar tamamilə yatmış kimi idi, poçt və teleqraf müxabiratı bilmərrə kəsilmişdi. Dövlətin ən artıq möhtac olduğu maliyyə naminə heç bir şey yox idi. Dövlət makinasını təşkil edən idarələrin həpsi dağılmışdı, xidmətçilər qaçmışdı, idarələrin bəzilərinin adı var idisə, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun veriyordu. Hər kəs özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təşkil edib məmləkətin müqəddaratını ona tapşırdı... Fəqət bununla bərabər daxili işlər o qədər pərişan idi ki, hökumət daxildə qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz var idi, nə silahımız".*

Bu çətinliklərə kadr azlığını, ölkədəki hərcmərcliyi, dövləti yaratmaq və yaşatmaq təcrübəsizliyini də əlavə etsək əsrin Siyavuşunun ərsəyə gəlməsinin həqiqətən möcüzəliyi aydın olar. Bundan daha təhlükəli, daha qorxulu bir amil də var idi. O da türkün ox olub başqalarının gözünə batması idi. Bunun təhlükəsini tarixən biz azərbaycanlılar daha çox dadmalı olmuşuq. 1919-

* **"Azərbaycan" qəzeti, 9 dekabr 1918-ci il.**

cu ildə "Zənbur" jurnalında rəssam Əzim Əzimzadə "Azərbaycan və onun dostları" adlı bir karikatura vermişdi. Bu karikaturada təsvir olunan bir azərbaycanlı balası vəhşi heyvanların əhatəsində idi. Ayısından tutmuş canavarına, pələngindən tutmuş şirinə, tülküsündən tutmuş çaqqalına qədər hamısı ona diş qıcayır, onu didib parçalamağa, yarandığı günə peşiman etməyə çalışırdılar. Hətta leşindən pay uman qarğa-quzğun da təsvir olunmuşdur.

Bu azmış kimi Əhməd bəy Ağayev 1905-ci ildə yazırdı: "Bir dəryayi-cəhalətə qərq olmuş, zülmət içində əl-ayaq çırpan tayfayız".*

Bu idi Azərbaycan Demokratik Respublikasının taleyinə düşən tarixi qismət. O, işıqlı dünyaya gözlərini belə bir mühitdə, belə bir vəziyyətdə açdı, amma bu düşmənlər əhatəsində siyirmə qılınc kimi parladı, öz mənliyini, öz varlığını, öz qüdrətini sübut etdi.

Məlumdur ki, 1917-ci ildə çarizmin çökməsi ilə dünyanın xəritəsində və xalqların taleyində ciddi dəyişiklik əmələ gəldi. Deyirlər zərərsiz xeyir olmur. Dünyanı yenidən bölüşdürmək üçün böyük dövlətlərin kəllə-kəllə gələrək bəşər övladını qan içində boğduğu bir vaxtda rus inqilabının baş verməsi və "Avropa jandarm" hesab olunan Rusiyanın müharibədən çəkilməsi qüvvələri tarazlığını pozdu və vəziyyət dəyişdi. Belə olmasa idi, dünyanın xəritəsində, xüsusən türk aləmində nələr baş verə biləcəyini indi təsəvvürə gətirmək mümkün deyildir. Hər halda Rusiyanın müharibədən

* "Həyat" qəzeti, 21 iyun 1905-ci il.





*M.Ə.Rəsulzadə Milli Şuranın sədri kimi 1918-ci il dekabrın 7-də Parlamenti açarkən*

çəkilməsi ilə müharibənin ən qızğın yerlərindən biri olan Qafqazda böyük anarxiya yarandı və artıq nizamı pozulmuş rus ordusu burada xristian təəssübkeşliyindən çıxış edərək Azərbaycan xalqının düşmənləri ilə onun başına nə gətirdikləri məlumdur. Rusiyada bolşeviklər hakimiyyətə gəlsələr də, Qafqaz hələ hərcmərclik girdabında idi. Belə bir vaxtda ölkəni idarə etmək üçün Zaqafqaziya xalqlarından seçilmiş nümayəndələr 1918-ci ilin fevralında Seym yaratdılar, lakin Seym, yəni Parlaman elə bir ciddi iş görə bilmədi, cəmi iki aydan bir az artıq ömr sürdü. 1918-ci il mayın 26-da Seymin gürcü nümayəndələri Alman qəyyum-

luğuna arxalanaraq Seymdən çıxıb özlərini suveren dövlət elan etdilər. Həmin günün səhəri mayın 27-də azərbaycanlı nümayəndələri də fövqəladə iclas çağırıb Milli Şura yaratdılar və M.Ə.Rəsulzadə qiyabi olaraq (o, həmin gün Batumda idi) Milli Şuranın sədri seçildi. Həmin iclasda 9 nəfərdən ibarət icraiyyə komitəsi yaradıldı. Bu komitə müvəqqəti hökumət təşkil etməli, təcili tədbirlər görməli idi.

Bir gün sonra, yəni mayın 28-də Milli Şuranın ilk iclası oldu və Azərbaycanın müstəqil respublika kimi elan edilməsi təklif olundu. İclasda iştirak edən 24 nəfərdən 2 nəfərin (S.M.Qəniyev və C.Axundov) bitərəf qalması ilə 22 nəfər həmin təklifin lehinə səs verdi. Həmin iclasda Azərbaycan Demokratik Respublikasının bəyannaməsi elan olundu. 6 maddədən ibarət olan həmin bəyannamədə deyilirdi:

> 1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi cənubi-şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil bir dövlətdir.
>
> 2. Müstəqil Azərbaycan dövlətinin şəkli - idarəsi Xalq Cümhuriyyətidir.
>
> 3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və qonşusu olan bütün millət və dövlətlərlə dostluq münasibəti saxlayacaq.
>
> 4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən ərazisində yaşayan bütün vətəndaşların hüquqlarını təmin edəcəkdir və s.

Suverenlik haqqında bəyanat dinlənildən və elan



olunandan sonra bir saatlıq fasilə elan edildi və Fətəli xan Xoyskiyə Azərbaycan hökumətini yaratmağı və təsdiqə təqdim etməyi tapşırıldı. Xoyski ilk Azərbaycan hökumətini aşağıdakı tərkibdə təqdim etdi.

1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - F.X.Xoyski.
2. Hərbi nazir - Xosrov paşa Sultanov.
3. Xalq maarifi və Maliyyə naziri - Nəsibbəy Yusifbəyov.
4. Xarici işlər naziri - Məmməd Həsən Hacınski.
5. Poçt, teleqraf və yollar naziri - Xudadat bəy Məlik-Aslanov.
6. Əkinçilik və əmək naziri - Əkbər Şeyxülislamov.
7. Ədliyyə naziri - Xəlil bəy Xasməmmədov.
8. Ticarət və sənaye naziri - Məmməd Yusif Cəfərov.
9. Dövlət nəzarəti naziri - Cəmo bəy Hacınski.

Elə həmin gün bütün dünyanın əsas dövlətlərinə müvafiq kanallarla Azərbaycan Demokratik Respublikasının yaradıldığı bildirildi və bu kiçik qrup çiyinlərinə götürdükləri çox böyük tarixi yükü saxlamaq və mənzil başına çatdırmaq üçün gərgin iş rejiminə keçdilər. Hökumət iyunun əvvəllərində Gəncəyə köçdü, çünki Bakıda mart hadisələrindən sonra şəhərdə erməni daşnakları və bolşeviklər ağalıq edirdilər. Azərbaycan hökuməti və onun liderləri ancaq diplomatik gücə, yenilməz iradəyə əsaslanırdılar. İyunun 17-də ikinci kabinet yaradıldı və bu dəfə hökumətin tərkibi xeyli genişləndirildi. Xüsusən Azərbaycan diplomatiyasının əsasını qoyanlardan olan Əlimərdan bəy Topçubaşov hələlik portfelsiz nazir kimi hökumətə daxil oldu, amma

bundan sonra bütün diplomatik kanallarda əsasən o iştirak edirdi.

Hökumətin təşkili zamanı hətta polisin belə olmadığı bir vaxtda qədəmlərini atan milli dövlət ilk gündən öz proqramını elan etdi, "bütün millətlərlə" dostluq münasibətləri saxlayacağını, respublika ərazisində yaşayan "bütün xalqlara sərbəst inkişaf üçün geniş meydan" açacağını, "xalqçılıq və demokratiya" prinsiplərinin var qüvvəsi ilə, qorunmasına çalışacağına", "mətbuat, söz, vicdan, cəmiyyətlər və ittifaqlar azadlıqlarının" qanunla təmin ediləcəyini qətiyyətlə bütün dünyaya elan etmişdir. Onu da açıq şəkildə bildirmişdir ki, "hökumət başlıca olaraq işçi və kəndli kimi əməkçi insanlara isnad etməlidir... Azərbaycan azadlıq ölkəsi olmalıdır, Azərbaycanda ögey-doğmalıq olmamalıdır".

Bir əsrlik rus təzyiqində ögey-doğmalıqdan cana gəlmiş, ağılasığmaz vəhşiliklərə, məşəqqətlərə düçar olmuş Azərbaycan indi belə bir bəşəri və insani amili hamıya elan edir və həyata keçirməyə çalışırdı.

Azərbaycan Demokratik Respublikası 8 saatlıq iş günü müəyyən edərək onu da bildirirdi ki, "hər bir əməkçi həftədə 24 saatlıq istirahət haqqına malikdir. Əvəzi işçinin maaşından çıxılmayan bu 24 saatdan başqa ildə bir aylıq məzuniyyət haqqı ilə də təmin olunmalıdır. Gecə xidməti yasaqdır. 16 yaşına qədər olan cocuqların çalışması qadağandır. Yaşı 16-dan 18-ə qədər olan işçilər 6 saatdan artıq işləməməlidir. Qadınlar səhhət və vücudlarına zərərli işlərdə çalışmamalıdırlar. Qadın işçiləri olan müəssisələrdə uşaq bağçası açılmalıdır. Sahibkarların hesabına işçilərin sığorta



fondu yaradılmalıdır. Müəssisələrdə səhiyyə evi açılmalıdır".

O da xüsusi vurğulanırdı ki, "burada bir sinif digər sinifə hakim deyildir. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünməməlidir".

Əlbəttə, bunların hamısını birdən-birə həyata keçirmək mümkün deyildi, getdikcə sığallanır, cilalanırdı, daxili və xarici siyasətdə buraxılan səhvlərdən də öyrənilir, hər bir iş təkmilləşdirilir və bu prinsiplərin mümkün qədər həyata keçirilməsinə səy göstərilirdi. Hamıya eyni gözlə baxılması, eyni münasibət göstərilməsi tələb olunurdu. Hətta professional hərbiçi general Səmədbəy Mehmandarov hərbi nazir vəzifəsinə gələndən sonra əvvəllər buraxılmış nöqsanları tənqid edərək deyirdi ki, "Əsgəri xidmətə ancaq fəqir uşaqların götürülməsi, dövlətlilərin və bəylərin uşaqlarının əsgəri xidmətdən azad edilməsi, libasda, yeməkdə ayrı-seçkilik edilməsi yolverilməzdir. Torpaq hamımızındır, onun keşiyində də hamımız eyni məhəbbətlə dayanmalıyıq".

Azərbaycan Demokratik Respublikası elan olunandan və Gəncəyə köçüb müəyyən işlər görəndən sonra onun daha ağır günləri başladı. Azərbaycana köməyə gələn türk qoşunları xalqı erməni caynağından qurtarandan və 1918-ci il sentyabrın 15-də Bakıya daxil olandan iki gün sonra hökumət Bakıya köçdü və parlaman seçkisinə başladı. Hökumət çox partiyalı idi. Bütün əsas partiyalar burada təmsil olunurdu. Parlamanda 120 deputat nəzərdə tutulmuşdur. Onların da ancaq 80-ni Azərbaycan türklərindən, qalanı başqa millətlərdən

olmalı idi. Azlıqda qalan heç bir xalq nəzərdən qaçırılmamışdır. Amma hər gün gözlənilməz hadisələr baş verirdi. İşin normal gedişinə çox ciddi əngəllər törədilirdi. Əvvəla hökumət hələ Gəncədə ikən türk nümayəndələri də, bəzi nüfuzlu yerli ziyalılar da Azərbaycanın suverenliyinə razı deyildilər, türklər beynəlxalq rəydən ehtiyat edir, "biz sizin üçün dövlət qurmağa yox, erməni qırımından xilas etməyə gəlmişik" deyirdilər. Milli ziyalılar, xüsusən Nuru paşanın müşaviri kimi gəlmiş Əhmədbəy Ağayev suverenliyin qorunub saxlanmasına şübhə ilə yanaşırdı. Hətta hökumət Bakıya köçəndə də bu söz-söhbət bir daha şiddətlənmiş və başqa xarakter almışdı. İndi suverenlikdən daha çox ilhaqdan söhbət gedirdi. Bizimkilərdən ölkənin Türkiyəyə ilhaq olunmasını arzu edənlər və bu məqsədlə türk komandanlığının yanına xahişə gedənlər də az deyildi. Bəziləri də Rusiyaya ilhaqı üstün tuturdular. Hətta Əhmədbəy Ağayev Rusiya qəzetlərinin birinə verdiyi müsahibədə də ikincinin tərəfdarı olduğunu bildirirdi.

Bu az imiş kimi, belə bir gərgin və mürəkkəb bir dövrdə Türkiyə müharibədə məğlub oldu və oktyabrın 30-da məğlubiyyət aktına qol çəkdi və bir həftənin ərzində türk qoşunu Qafqazdan çıxmaq əmri aldı. Azərbaycan Respublikasının yeni qara günləri başladı, çünki Bakıya Tomsonun başçılığı ilə Ənzəlidə dayanmış qalib ingilis qoşunu gəlməli idi. Tomson isə hələ İranda ikən bəyanat vermişdir ki, ADR adında siyasi qurum tanımır, guya bu, türk qoşununun gücü, onun sözü ilə desək "intriqası" ilə yaradılmışdır. Onda İrana general Tomsonun yanına Nəsibbəy Yusifbəyov, Əhmədbəy Ağayev və M.Rəfiyevdən ibarət bir heyət göndərildi.



Bu heyət Tomsonu inandırmalı idi ki, ADR xalqın iradəsi ilə yaradılmışdır və türk qoşunu Qafqaza gəlməzdən əvvəl fəaliyyətə başlamışdır. Əvvəl bu barədə söhbət eşitmək belə istəməyən qalib dövlətin komandanı Tomson bizim diplomatların inandırıcı dəlilləri qarşısında bir qədər yumşalmış və "gələrik, baxarıq" demişdir.

Azərbaycan Milli Şurası noyabrın 16-da Bakıda öz işini yenidən bərpa etdi. Bu iclasda çıxış edən F.Xoyski bildirmişdi ki, vaxtın az, zamanın gərgin olduğuna görə hökumətin Müəssislər Məclisini çağırmağa imkanı olmamışdır və bu işi Milli Şura öz boynuna götürməlidir. Milli Şura bu təklifə razı oldu. Noyabrın 19-da Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən iclasda bu məsələ geniş müzakirə edildi və hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar-80, ermənilər-21, ruslar-10, almanlar-1, yəhudilər-1 nümayəndə göndərməli idilər. Beləliklə, Azərbaycan Parlamentinin tərkibinin 120 deputatdan ibarət olması qərara alındı.

Milli Şuranın bu məsələ ilə bağlı qəbul etdiyi qanunda göstərilirdi ki, Azərbaycanda azlıqda qalan millətlərin seçdikləri yeni deputatlar olacaq. Əvvəllər Qafqaz Seyminə 44 Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildikləri üçün yeni Parlamana üzv kimi daxil oldular, qalan 36 nəfər isə əlavə şəxslər kimi cəlb edildilər.

Bu qanunda Azərbaycanın ayrı-ayrı şəhər və qə-

zaları üzrə əlavə göndəriləcək nümayəndələrin sayı müəyyən edilmişdir. Belə ki, Parlamentə yeni seçiləcək 21 erməni nümayəndəsindən 8-i Gəncədən, 8-i Şuşadan və 5-i Bakı erməni komitələrindən seçilməli idi. Bakıdakı rus əhalisindən 10, alman əhalisi milli təşkilatlarından 1, yəhudilərdən 1, gürcü komitəsindən 1 və polyak komitəsindən də 1 nəfər nümayəndə göndərilməli idi. Bundan başqa Azərbaycan Cümhuriyyətinin Parlamentinə Bakı Həmkarlar Şurası tərəfindən 3, Bakı sənaye-ticarət Cəmiyyəti tərəfindən 2 nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk parlamentinin çağırılması ilə əlaqədar Milli Şura adından onun sədri M.Ə.Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə" müraciət dərc olunmuşdur. Həmin müraciətdə deyilirdi: "Vətəndaşlar! Müharibə və inqilab zamanı fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan "Şurayi-Millisi" iqtizay-zaman təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurayi-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millinin milli bir şəkildə çıxarıb dövləti bir şəklə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə 120 əzalıq bir məclisi məbusan (parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi-Müəssisəni yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcəkdir".



Azərbaycan Milli Şurası daxili və xarici çətinliklərə baxmayaraq öz işini sivil dövlətlərə xas bir üsulla aparırdı.

Noyabrda Bakıya gələn ingilis komandanı xalqımızın düşmənlərinin fitvası ilə yenə çəm-xəmə başlamışdır. Azərbaycan diplomatları öz məntiqi və qətiyyətli müddəaları, inandırıcı dəlillərini yenidən işə salmağa məcbur olmuşlar. Mən istərdim həmin anların bir stenoqrafik xarakterli yazısını sizin nəzərinizə çatdıram:

Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskinin Tomsonla görüşü və söhbətləri çox gərgin və əsəbi keçmişdir. Tomson Azərbaycan Cümhuriyyətini tanımadığını və müttəfiqi olduğu Rusiya torpağına gəldiyini bildirirdi. Fətəli xan geniş xalq kütləsinin qərarı və istəyi ilə Azərbaycan istiqlalının elan edildiyini və bu barədə bütün dünya dövlətlərinin xəbərdar olduğunu bildirir və deyir: "Siz böyük bir millət və böyük bir imperatorluqsunuz. Eyni zamanda mədəni bir millətsiniz, bizim istiqlalımızı tanımalısınız".

Tomson isə cavabında deyir: "bu söylədikləriniz siyasi şeylərdir. Onlar iki dövlət arasında cərəyan edə bilər, halbuki mən bir əsgərəm".

Fətəli xan - "Madam ki, siz əsgərsiniz, mən də istiqlalını elan etmiş Azərbaycan Cümhuriyyətinin dövlət rəisiyəm. Biz sizi buraya dəvət etməmişik. Sizdən məmləkətimizi tərk etmənizi tələb edirəm".

General Tomson tərcümana dönərək - "Baş vəkil

həzrətlərinə söyləyiniz: hər hansı bir əsgəri qüvvəni çıxartmaq üçün orduya sahib olmaq lazımdır. Məlumatıma görə qurduğunuz Cümhuriyyətin ordusu hələ qurulmamışdır".

Fətəli Xan tərcüməçiyə - "General həzrətlərinə söyləyiniz ki, o yalnız əsgəri biliyə malikdir. Məgər xalqın gücünün nə olduğunu bilmir, yaxud hər xalqı hindistan xalqı zənn edir. Əgər inad edərlərsə, bir ovuc ingilis əsgərini qəhrəman xalqımızın gücü ilə dənizə tökmək bir neçə saatlıq işdir. Ancaq biz nə onlardan fənalıq görmək, nə də onlara fənalıq yapmaq istəyiriz".

Belə bir qətiyyət qarşısında Tomson yenə də yumşalmış və demişdi. "Yaxşı, onda hökumət rəisiniz yalnız Mirzə Əsədulla olacaqdır".

Fətəli xan: "-Bu qətiyyən ola bilməz. Bu təklifiniz bizim daxili işlərimizə müdaxilədir ki, heç cür qəbul edilməz.*

Belə bir çətin mübarizələr nəticəsində ADR nəinki "mələklərin gülüşündən", "ahuların duruşundan", həm də ölüm-dirim mübarizələrindən yaranmışdır. Parlamanın ilk iclasında "Bir kərə yüksələn bayraq bir daha enməz" deyən M.Ə.Rəsulzadə iclası açarkən demişdir: "Möhtərəm millət vəkilləri! Azərbaycan Milli Cümhuriyyətinin ilk parlamentosunu açmaq səadətinin, siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə fəxr edirəm.

Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında böyük bir həqiqəti dəxi elan

*** Ətraflı bax: Nağı Keyqurun (Şeyxzamanlı). Azərbaycan istiqlal mücadiləsinin xatirələri. İstanbul, 1964, səh.82-83.**



etmişdi. Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi... Eyni məntiq nəhayət Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin Şurayi-milli təşkilinə sövq, bu milli şura isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu".

M.Ə.Rəsulzadə onu da xüsusi olaraq bildirirdi ki, "biz azərbaycanlılar bütün mövcudiyyətimizlə öz müqəddəratımızı, öz istiqlalımızı müdafiə və mühafizədə israra edərsək, səbat və mətanət göstərərsək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti payidar olar. Fəqət bunun üçün səbat, mətanət, fədakarlıq istər. İstər ki, biz özümüzün istiqlala layiq olduğumuzu isbat edək".

İlk milli Azərbaycan dövlətinin memarı həmin çıxışında onu da əlavə edirdi ki, "Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman öz sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər bir şöleyi-ümid və iman təşkil eyləmişdir. Qoy bu atəş Azərbaycan övladlarının sinəsinə dolsun. Milyonlarla ürəkdə bu atəş əbədiyyən sönməz bir məşəl təşkil edib hürriyyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın".

Azərbaycan Xalq Cümhuriyyəti yaşadığı dövrdə çox böyük işlər gördü. Onun gördüyü işlərdən ən vacibi, xalq üçün, vətən üçün daha çox gərəklisi maarif sahəsində idi. Çox mürəkkəb və zidiyyətli şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq elm, təhsil sahəsində, xalq maarifinin bütün sahələrində ağıla gəlməz işlər gördü. Ölkənin ayrı-ayrı yerlərində təcili olaraq müxtəlif pilləli məktəblər, qız məktəbləri, uşaq bağça-

ları, qısa müddətdə müəllim hazırlayan kurslar, kitabxanalar və s. açıldı. Parlamentin rəhbərləri başa düşürdülər ki, təhsil olmasa heç bir şeyə nail olmaq mümkün deyil. 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin açılması bu qəbildəndir. İndiyə qədər heç orta məktəbi də olmayan Azərbaycan indi universitet yarada bildi və həmin universitet bu vaxta qədər respublikanın ən böyük ali təhsil müəssisələrindən biridir. Bu universitet Azərbaycanda maarif işinin inkişafında, çiçəklənməsində çox böyük rol oynadı.

Bu məsələ öz yerində. Bir də Azərbaycana müxtəlif ixtisas sahibləri lazım idi. Bunsuz respublikanı inkişaf etdirmək olmazdı. Bu zaman Azərbaycan Parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün müxtəlif ölkələr göndərilmək haqqında qanun qəbul etdi. Bu işin xüsusi əhəmiyyəti bir də onda görünür ki, M.Ə.Rəsulzadənin başçılığı ilə Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Adil bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaradılmışdır. Həmin komissiyanın qərarına əsasən ali təhsil almaq üçün 45 nəfər Fransaya, 23 nəfər İtaliyaya, 10 nəfər İngiltərəyə, 9 nəfər Türkiyəyə göndərildi. Rusiyaya oxumaq üçün ayrılmış 13 nəfər gənc orada vətəndaş müharibəsi olduğuna görə təhsil almağa gedə bilmədilər.

Azərbaycan Demokratik Cümhuriyyəti həqiqətən demokratik bir quruluş, haqqa, ədalət, insanlığa söykənən bir dövlət idi. Onun himnindən, bayrağının rəmzlərindən tutmuş bütün başqa atributlarına qədər hamısı ağlın, zəkanın məhsulu idi, düşünülmüş, ölçülüb-biçilmiş, şübhə və irad doğurmayan aktlar idi. Məmməd Əminin sözləri ilə desək "Azərbaycan Demokratik Cümhuriyyəti misli Avropada da tətbiq olunmayan həqiqi xalq cümhuriyyəti idi" və onu yalnız ümumi səyin, mətanətin, qeyrətin sayəsində saxlamaq mümkün idi. Buna görə də M.Ə.Rəsulzadə həm yüksək tribunadan xəbərdarlıq edərək deyirdi: "Bu gün firqə ehtirasları, şəxsi qərəzlər və bütün bu kimi vətən və millət qayğısı qarşısında səfil qalan qərəzlər atılmalıdır. Vətən qayğısı və millət duyğusu hər şeydən uca tutulmalıdır".

Türk dünyasının məşhur filosofu Ziya Göyalp deyirdi ki, "Fərd yox, cəmiyyət var, haqq yox, vəzifə var". Bu son dərəcə lakonik və lazımlı ifadəni Azərbaycan Xalq Cümhuriyyətinin başçıları dərk edir və xalq üçün, vətən üçün çalışırdılar.

İlk milli dövlətimizin demokratik tədbirlərindən bəzilərini sizin nəzərinizə çatdırmaq istəyirəm. Bütün sivil dövlətlərdə qəbul olunmuş qanuna görə bir adam eyni vaxtda iki kresloda əyləşə bilməz, yəni eyni bir adamın həm hökumət qulluğunda, həm də dövlət işində çalışmağı yolverilməzdir. Azərbaycan parlamanı formalaşıb siyasi axarına düşəndə məlum oldu ki, onun deputatlarından 6 nəfəri həm hökumət qulluğundadır, həm də Parlaman üzvüdür. Onlara təklif olanda ki, hansını istəyirlərsə onlardan birini saxlasınlar. Məşhur pedaqoq Firidun bəy Köçərli də onların arasında idi və Qoridən Qazax şəhərinə köçürdüyü seminariyanın müdiri vəzifəsində çalışırdı. Parlaman 1919-cu il fevralın 4-də özünün 12-ci iclasında Firidun bəyin ərizəsini mü-

zakirə edib xahişi və təkidi ilə onu Parlaman üzvlüyündən azad etdi və seminariyada müdir vəzifəsində saxladı. Abdulla Qəbulov, Hüseyn Əfəndizadə, Bəhrambəy Vəzirov və Rəşidbəy Axundzadə dövlət qulluğundan istefa verdilər və Parlamanda qaldılar. Tək bircə nəfər o zaman maarif komissarının müavini işləyən Həmid bəy Şahtaxtinski hər ikisində qalmağı israr etdi, sonra da öz həmkarlarından küsüb bolşeviklərə qoşuldu.

Azərbaycan Xalq Cümhuriyyəti çox partiyalı dövlət idi. O zaman indiki kimi kadr bolluğu da yox idi. Amma rəhbər aparatında və idarə orqanlarında çalışanlar demokratik prinsiplər əsasında irəli çəkilirdilər. Görülən hər bir işdə, qəbul edilən hər bir qanunda sivil dövlətlərə xas olan bütün məsələlər ölçülüb-biçilir, söz-söhbətin yaradılmasına imkan verilmirdi.

M.Ə.Rəsulzadə əsas və nüfuzlu partiya olan "Müsavat"ın lideri idi, amma idarəçilikdə bir prinsipə əsaslanırdı: işi iş bacarana tapşırmaq. Bəzən onu əsassız yerə ittiham edib deyirdilər ki, guya "Müsavat" partiyasının üzvü olmayanları rəhbər vəzifəyə irəli çəkmirlər. Bunun əsassızlığını sübut etmək üçün M.Ə.Rəsulzadə 1919-cu ildə "Uydurma həqiqət" adlı məqalə ilə çıxış edir və yazırdı: "Guya Daxili İşlər nazirliyi tamamilə müsavatçıların əlindədir. Gəlin görək bu, doğrudanmı belədir? Başlayaq lap yüksək inzibati vəzifələrdən.

1. Qarabağın general-qubernatoru X.P.Sultanov - nəinki "Müsavat"ın üzvü deyil, əksinə, bu yaxınlarda nümayişkaranə şəkildə onun tərkibindən çıxmışdır.



2. Qazaxda Daxili İşlər Nazirliyinin xüsusi səlahiyyətli nümayəndəsi Rza Qaraşarov - sosialistdir.

3. Zaqatalanın general-qubernatoru M.Şahmalıyev-bitərəfdir.

4. Bakının keçmiş qubernatoru R.Axundzadə və indiki qubernatoru A.Nərimanbəyov - hər ikisi bitərəfdir.

5. Polis müfəttişi - Faiq Nemanzadə - bitərəfdir.

6. Gəncənin qubernatoru X.V.Rəfibəyovu hansı partiyaya meyl etdiyi üçün ittiham etmək olar?

7. Qulyayevin müsavatçılığına kim inanar? Yaxud Zaldman müsavatçı ola bilərmi?*

Bu tarixi etirafın özü göstərir ki, ilk milli dövlətin rəhbərləri üzgörənlik, qohumbazlıq, yerlibazlıq edə bilməzdi.

Azərbaycan dövlətinin ali orqanı həmişə demokratik tələblərə əməl etməyə çalışmışdır.

Əlbəttə, ADR-nın 23 aylıq fəaliyyəti ərzində onun həyata keçirə bilmədiyi şeylər də çox idi. Nöqsanlardan da xali deyildi. Müəyyən hərəkətləri təkcə düşmən cəbhəsində yox, qabaqcıl ziyalıların özündə də etiraz doğururdu. Amma mən o nöqsanları qabartmaq fikrindən uzağam və yazımı Səməd Vurğunun sözləri ilə qurtarıram. Böyük şairimiz Cəfər Cabbarlıdan danışanda deyirdi: "Bir çoxları mənə sual verər ki, sən Cəfərin yaradıcılığında yalnız müsbət cəhətləri görürsən. Bəs onun çatışmayan, yaxud nöqsanlı cəhətləri yoxdurmu?

* **"Azərbaycan" qəzeti, 24 sentyabr 1919-cu il.**

Mənim cavabım hazırdır: siz təsəvvür edin ki, mən bu saat mahir bir heykəltəraşın yaratdığı və "gözəllik abidəsi" adı verdiyi bir heykəl qarşısındayam. Bəlkə bu gözəl abidənin sifətindəki bəzi cizgilər də öz yerində deyil. Bəs nə üçün mən onları görmürəm?

Çünki mənim bütün huş və diqqətim, bütün daxili aləmim bu "gözəllik abidəsinin" gözlərindəki, surətindəki mənaya bağlanmışdır. Bəli, bu sənətdəki ülviyyət məni özünə məftun etmişdir. Mənim fikrim və diqqətim cizgilərlə deyil, mənalarla məşğuldur. Fəqət, gözəlliklə çirkinlik, yaxşılıqla yamanlıq, işıqda qaranlıq axtaranlar isə yaman gözlərdir".

İlk demokratik dövlətimiz də belə bir "gözəllik abidəsi" idi. 23 ay qeyri-bərabər qüvvələrlə vuruşa-vuruşa özünün varlığını əsrin bəbəklərinə sancmış, xalqımıza şan-şöhrət gətirmişdir. O, sonrakı 70 ildə bizə yadlaşdırıldı, onu yaddaşlarımızdan silməyə çalışdılar, amma bacarmadılar, çünki tarixə düşmüş bir tarixi hadisəni tarixdən silmək olmaz. Biz indi də onun hərarəti ilə isinirik, onun varisiyik, onun ucaltdığı bayrağın kölgəsinə sığınmışıq... Onun bir ideal kimi ucaltdığı vətənpərvərliyi, torpağımızın bütövlüyünü, bölünməzliyini milli ideologiyamızın tərkib hissəsinə çevirməliyik. Biz qəhrəmanlığı onlardan öyrənməliyik. İndi bunun üçün bizim hər cür haqqımız və əsasımız vardır. İstiqlalın bərpasından sonrakı hərcmərclik, vəzifə və stol davaları, təxribatçılıq, şəxsi mənafe hərisliyi artıq arxada qalmışdır. İndi bizim bərpa etdiyimiz istiqlalımızı qoruyub saxlaya biləcək bayrağımızın bir daha enməsinə imkan verməyəcək, xalqımızı düşdüyü bəlalardan xilas etməyə, "sahili-nicata" çatdırmağa gücü-qüdrəti olan Heydər Əliyev kimi müdrik, yorulmaz rəhbərimiz vardır. İndi hamımız bir amal, bir məqsəd, bir ideal uğrunda birləşməli və varisi olduğumuz o böyük idealı qorumalıyıq. Yoxsa tarix bunu bizə heç vaxt bağışlamaz.



İstiqlalımızın əvəzsiz nəğməkarı Əhməd Cavad üç rəngli bayrağımız ilk dəfə Bakı səmasında dalğalananda yazırdı:

Köksümdə tufanlar gəldim irəli
Öpüm kölgən düşən müqəddəs yeri.
Allahın yıldızı o gözəl pəri
Sığınıb köksündə aya bayrağım.

Bu müqəddəs bayrağımız qoy həmişə xalqımızın başı üzərində əbədi olaraq dalğalansın!

***Bakı Universitetinin***
***Xəbərləri-Humanitar***
***elmlər seriyası, 1998, №2.***

# XX ƏSRİN QORXUNC ADAMI HAQQINDA HƏQİQƏT

Bəşər tarixində Stalin qədər özü haqqında ziddiyyətli, xoflu fikir oyadan ikinci şəxsiyyət bəlkə də olmamışdır. Onunla şəxsən ünsiyyətdə olanlar da, olmayanlar da "tarixin bu ən böyük müstəbidi" haqqında (M.Ə.Rəsulzadə) bir-birinə daban-dabana zidd fikirlər söyləmişlər. Bəziləri onu XX əsrin möcüzəsi, bəziləri isə əsrin təbii fəlakəti adlandırırdı. Əlbəttə, bunların hər ikisində həqiqət vardır. Çünki Stalin həyata keçirilməsi çətin və az qala mümkün olmayan şeyə nail olmuş, bütün siyasi vəziyyətlərdə, söhbətlərdə, danışıqlarda rəqibinə üstün gəlmiş, möcüzəli şəkildə müvəffəqiyyət qazanmış, yenilməz bir insan kimi bütün yer üzünün diqqətini özünə cəlb etmişdir.

Lakin onun uğurları kütləvi qırğın və terror şəklində getdiyindən hamısından qan qoxusu gəlir, ölüm fəryadı eşidilirdi. Onun Lenindən əxz etdiyi (bəlkə də əksinə) mübarizə metodu "qır və qur" prinsipinə əsaslanırdı.

Marksizm ideologiyası və onun əsasında cəmiyyəti yenidən qurmaq prinsipi Rusiya üçün yeni olsa da, qırmaq məsələsi yeni deyildir. Rusiya tarixində kütləvi qırğın prinsipilə yaşayan əsasən üç hökmdar olmuşdur: İvan Qroznı, I Pyotr və Stalin. Əlbəttə sonuncunu Lenindən heç cür ayırmaq olmaz. Bunların hamısının geniş imtiyazlı hökmdar kimi ilk addımları qırmaqla başlamışdır. Təsadüfi deyildir ki, müasir rus tarixçiləri



Pyotrun özünü də ilk stalinçi hesab edirlər.

İnsanları kütləvi şəkildə qırmaq, ümumiyyətlə insana qəsd bəşəri hissi itirmək deməkdir. Bu hiss birinci növbədə ailəyə, övlada münasibətlə formalaşır. Lenində övlad yox idi, İvan Qroznı və I Pyotr biri oğlunu öldürmüş, biri isə gözünü çıxartmışdır. Stalinin ailəsinə və övladlarına münasibəti isə məlumdur. Deməli, bunların heç birində bəşəri hiss yox idi və ola da bilməzdi. Kütləvi qırğınlar da əsasən bunlardan təzahür edirdi.

Qurmaq məsələsinə gəldikdə isə, insafla demək lazımdır ki, Rusiya və rus xalqı üçün bu müstəbidlərin hamısı çox böyük iş görmüşdür: İvan Qroznı da, I Pyotr da, Lenin də, Stalin də.

Onların qurub yaratmaq üsulları, tərbiyə sistemləri və vasitələri qan dəryasından, insan sümükləri üzərindən, ah-nalə və fəryad dumanlarından keçdiyi üçün tükürpədici idi. Xüsusən bizə tarix etibarilə daha yaxın olan Stalin qəddarlığı, cəlladlığı və onun vahiməsi, xofu indi də ürəklərdən silinməmişdir.

Marksizm ideologiyası Lenin üçün, marksizm-leninizm isə Stalin üçün məqsəddən daha çox vasitə idi, bayraq idi, şüar idi. Bolşeviklər "məqsəd fəaliyyətə haqq qazandırır" fəlsəfəsi prinsipinin zahirən nəcib, daxilən nanəcib tərəflərini götürürdülər. Daha doğrusu, söhbət axmaq aldadan kommunizmdən, qardaşlıq və bərabərlik dünyasını qurmaqdan, sinfi düşməndən intiqam aldıqdan sonra süd gölündə üzməkdən gedəndə zahiri cəlbedicilik işin faciəli mahiyyətini görməyə və dərk etməyə mane olurdu. Bu çox vaxt ağıl sahiblərini də aldadırdı və çaşdırırdı.

Yazıçı Solouxin yazırdı ki, "Lenin əhalinin 10 faizini vəd elədiyi kommunizmdə yaşatmaq xatirinə 90 faizini qırmağa hazır idi". Bu prinsip isə Stalinin ətinə-qanına hopmuşdu. Onu çox qəddar və rəhmsiz şəkildə həyata keçirməyə çalışaraq hətta özünün böyük sələfləri İvan və Pyotrdan da qabağa getmiş, onların etdiyi vəhşiliyi və qəddarlığı "böyük işlər" naminə, çox vaxt özünün millətçi görüşləri və xristian təəssübkeşliyi xatirinə həyata keçirirdi. Dünyanın heç bir ölkəsində və tarixin heç bir dövründə İ.Buninin "Əcinnələr ölkəsi" adlandırdığı Sovetlər Rusiyasında olan qədər elliklə sürgün halı olmamışdır. Bu tarixə qəsd idi.

O zaman Rusiyanın Türkiyəyə vəd etdiyi maddi yardımı almaq üçün 1921-ci ildə Moskvaya göndərilən yeni nümayəndə heyətinə türk diplomatı Rıza Nur da daxil idi. O bir neçə gün Bakıda qalmış, siyasi vəziyyəti öyrənmiş və Nəriman Nərimanov ona çox böyük təsir eləmişdir. Onu "ağlı başında olan bir adam" adlandıraraq yazırdı: "Epeycə, sıx-sıx və baş-başa görüşdüm. Baxdım ki, eyi bir adamdır. Kəndisinə etimad təlqin etdim. Açıldı və dedi ki, "Bolşeviklik nədir. Bu rəzalət bizə əl verməz. Biz türkük, milliyyət ilə yaşarıq". Çox xoşuma getdi və pək sevdim".*

Bütün bunlarla yanaşı Stalin siyasi bir sehirbaz kimi dünyanın bir çox düşüncə sahiblərini də ovsunlamış, sirli bir bütə, əfsanəyə çevrilmişdir.

Onun haqqında ya heyrətlə, vəcdlə danışmışlar, ya da nifrət və qəzəblə. Bu fikir qütbləri paradoks şəklində

*** Rıza Nur. Moskva-Sakarya xatirələri. İstanbul, 1991, səh.56.**



cərəyan etmiş, ümumi vəziyyətə gəlməkdə çətinlik törətmişdir. U.Çerçil hələ 1959-cu ildəki çıxışlarının birində deyirdi: "Stalin kimi böyük və yenilməz bir sərkərdənin ağır illərdə dövlətin başında durması Rusiya üçün böyük xoşbəxtlik idi. Stalin böyük iradə gücünə və energiyaya malik olan bir adam idi. Söhbətlərdə kəskin və amansız, amma ədalətli, açıq olurdu. Onun müddəalarına etiraz etmək, hətta Böyük Britaniya Palatasında bişib bərkimiş mənim kimi bir adam üçün də çətin və qeyri-mümkün olurdu. O, çox vaxt müsahibinin hələ deyilməmiş fikrini qabaqcadan oxumağı bacarırdı. Bu qabiliyyət onda o qədər inkişaf etmişdir ki, müsahibinə və söhbətdə iştirak edənlərə çox böyük təsir göstərirdi... Həm də o çox mürəkkəb adam idi. Əlçatmaz xarakteri vardır. O böyük bir imperiyanı təkbaşına yaratdı və bütünlüklə öz iradəsinə tabe elədi. O, düşmənini onun öz əli ilə öldürməyi bacaran bir dahi idi".*

Stalinlə ünsiyyətdə olan daxili və xarici dövlət xadimləri, hərbi sərkərdələr, mütəfəkkirlər, yazıçı və filosoflar sağlığında və ölümündən bir müddət sonralara qədər ona bu mövqedən yanaşırdılar. N.Xruşşovun tarixi xidmətindən sonra Stalin sisteminin dəmir pərdəsi götürüldü, vahimə və heyrət kölgəsi çəkilib getdi, büt sabun köpüyü kimi dağıldı və indiki bəzi qeyri-ciddi mətbuat orqanlarının "xalqlar atası" haqqında yazdıqları səfeh əfsanələrə, uydurmalara və gəncliyindəki intim xəyallara qədər gəlib çatdı.

Hər halda Stalin nadir bir şəxsiyyət olmaqdan əlavə,

*** Bax: "Британский союзник" jurnalı,1959, №17.**

həm də özü bir tarix idi və Rusiyanın tarixində IV İvan, I Pyotr və Lenin kimi bütün ziddiyyətləri ilə birlikdə yaşayacaqdır.

Stalin haqqında düzü-düz, əyrini-əyri yazanlar, hər şeyə obyektiv, tarixi qiymət verənlər də vardır. Bunlardan biri də Azərbaycan Demokratik Respublikasının banilərindən və başçılarından biri Məmməd Əmin Rəsulzadə idi. Onun Stalin öləndən bir az sonra 1954-cü ilin may-iyun aylarında Türkiyənin "Dünya" qəzetində "Bir türk millətpərəstinin Stalinə ixtilal xatirələri" adlı yazısı 28 nömrədə çap edildi. Bunlar onun bir vaxt Bakıda çarizmə qarşı birgə mübarizədə əməkdaşlıq etdiyi Stalin haqqında xatirələri idi. Həmin xatirələr müəllifin vətənində ancaq keçən il, əvvəlcə dövri mətbuatda, sonra isə kitab şəklində çap olunmuşdur (*Çapa hazırlayanı Nəsib Nəsibzadə, redaktoru akademik Ziya Bünyadovdur*).

Məmməd Əminin xatirələri Stalin haqqında yazılmış bütün elmi, publisist yazıların, qeydlərin hamısından fərqlənir. Bunu bəlkə də xatirə adlandırmaq düz olmaz. Bu Stalin tərəfindən törədilən fəlakətlərin və ümumiyyətlə əsrimizin kommunist ideologiyası ilə bağlı olan hadisələrinin siyasi salnaməsidir. Stalinə gəldikdə isə Məmməd Əmin onu "bütün dinləri inkar edən kommunist dininin peyğəmbəri", "Neronlara, Çingizlərə rəhmət oxutduran bir tiran" hesab edirdi. "Azərbaycan" (Ankara) jurnalı o zaman yazırdı ki, "bu xatirələrdə tarixin və dünyanın ən qəddar və müstəbid bir cahangiri olan Stalinin bilinməyən tərəfləri ifşa edilmiş, dolayısı ilə Azərbaycan davası da ümumi əfkara təkrarən tanıdılmışdır".*



Məmməd Əmin Stalinlə ideya və məslək cəhətdən uzaq və barışmaz olsa da, mübarizə meydanında bir müddət yaxın olmuşdur. Bu yaxınlıq bəzi hallarda sadəcə xeyirxahlıqla yox, hər ikisinə yenidən həyat bəxş etməklə nəticələnmişdir. Məmməd Əminin bioqrafiyasını yazanlar göstərirlər ki, o, Stalini 1907-ci ildə Bakıda neft quyusuna salıb, boğmaq istəyənlərin əlindən alıb xilas etmişdir. O, İstambulda Kamoya və digər inqilabçılara da beləcə həyatbəxşedici yardım əli uzatmışdır. 1920-ci ildə isə Stalin bir növ əvəz çıxmış, Məmməd Əmini özü ilə Moskvaya aparıb güllələnməkdən qurtarmışdır. Təkcə 1920-ci ildə "Müsavata" rəğbət göstərdiyinə və ya partiyanın üzvü olduğuna görə cəllad Pankratovun əli və göstərişi ilə minlərlə adamın sorğusuz-sualsız qırıldığı bir vaxtda onların liderlərinin sağ buraxılması, hörmət və qayğı ilə əhatə olunması üçün Stalin hər cür təşəkkürə layiq idi. Məmməd Əmin də Türkiyəyə çatan kimi ona göndərdiyi məktubda bu təşəkkürü dərhal bildirmişdir. Amma yenə də öz fikrində israr edir və Stalinə deyirdi ki, bolşevik rejimi Rusiyada "yüz il əvvəl cərəyan edən hadisələrdən başqa bir şey deyildir".

Deyə bilərlər ki, Məmməd Əmin hakimiyyətdən salınmış, qurduğu sistem dağıdılmışdır. Onun öz sözləri ilə desək "27 nisan 1920-ci ildə məmləkəti qızıl rus hissələri tərəfindən istila edilmişdir". Belə olduqda bu istilaçılara qarşı o, başqa bir fikir söyləyə bilərdimi?

---

* **"Azərbaycan" jurnalı, Ankara, 1954, №2-3.**

Məmməd Əmin obyektiv və son dərəcə mədəni bir adam idi. O, yazılarında, çıxışlarında heç vaxt hissiyata qapılmırdı. O, Stalin haqqında da hissiyatla danışmır, ona öz hərəkətlərinə, düşüncələrinə və ətrafdakıların münasibətinə görə qiymət verirdi. Onda müşahidə güclü olduğu kimi çıxardığı nəticə də doğru idi. O, Moskva yolundakı stansiyalarda yeni ideologiyanın peyğəmbəri Marksın təzəcə qoyulmuş büstünün qızıl əsgərlər tərəfindən murdarlanmasını görərkən bu mənzərəyə "kommunist inqilabı ünsürləri ilə kommunist idealı arasındakı" uçurum kimi baxır və bu quruluşun baş tutacağına şübhə edirdi.

O, 1923-cü ilin yanvarında İstanbuldan Stalinə göndərdiyi məktubda deyirdi: "Sizin istəyiniz baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər".

Stalinin Məmməd Əmin kimi müasirlərini ən çox dəhşətə salan ondakı terrorçuluq ehtirası idi.

O, gəncliyində qan tökməkdən, adam öldürməkdən ləzzət alırdı. Bakı-Moskva qatarında Məmməd Əminə belə bir əhvalatı fəxrlə deyirmiş ki, inqilabın ilk illərində Volqaboyundakı gəmini boşaltmaq istəməyən fəhlələrdən kütlə halında 20 nəfərini güllələməklə başqalarına "dərs" vermiş və gəmini dərhal boşaltdırmışdır. Stalin onu da əlavə edirmiş ki, "59 ingilisi öz əlimlə öldürmüşəm". Əlbəttə, terrorçuluq sistemin təbiətindən, "qır və qur" prinsipinin mahiyyətindən doğurdu və sistemin əsaslandırdığı ideologiyanın özü belə bir coşğun ehtirası həyata keçirmək üçün əlverişli şərait yaradırdı. Stalin kimi terrorçu da bu mühitin yetirməsi idi. O, böyük ustadı Lenin kimi kütləvi qırğınsız inqilab təsəvvür etmirdi. Məmməd Əminlə söhbətlərində "terrorun, həm də kütləvi terrorun tarixdəki rolu mühümdür" deyərək öz fəaliyyətinə haqq qazandırır və gələcəkdə belə bir dəhşətli məqsəd izlədiyini bildirirdi: "Biz tərbiyə etmək üçün kütlə halında təlim verəcək, bu təlimatımıza asanlıqla uymaları üçün onları lazım gəlsə kütlə halında cəzalandıracağıq".

Sosializmin bədnam təcrübəsi bu "tərbiyənin" və "kütlə halında cəzalandırmanın" nə demək olduğunu milyonlarla insan qanının havayı axıdılması, elliklə yurdundan-yuvasından didərgin salınmış, ağılasığmaz məşəqqətlərə mübtəla edilmiş xalqların kütləvi qırğınları sübut etdi.

Stalin qırmağa qırdı, amma istədiyi alınmadı, onun zülmlə qurduğu böyük imperiya binası uçulub töküldü, hamını sehirləmiş ideologiya axırda sabun köpüyü kimi partlayıb dağıldı. Çünki süngü ilə alınan bina süngü üzərində dayana bilməz. Belə bir qədim türk məsəli var: "Qılıncla aldığın ölkəni ədalətlə idarə eləməsən, tezliklə dağılar".

Stalinin qəddarlığı, qaniçənliyi bütün müasirlərinə bəlli idi. Ağlı üstündə olan adamlardan heç biri ondan yaxşı şey gözləmirdi. Keçmiş Bakı fəhləsi, Leninin informatorlarından biri 1921-ci ildə Məmməd Əmin Rəsulzadəyə deyirdi ki, "o, Lenin fəhlə sinfinin başına bəla olacaqdır". Belə də oldu. Amma təkcə fəhlə sinfinin yox, bütün bəşəriyyətin, xüsusən türk xalqlarının.

***"Axtarış" qəzeti, 6 mart 1992-ci il.***

# "MÜSAVAT" PARTİYASININ TARİXİ

İlk milli dövlətimiz Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması və fəaliyyətində həlledici rol oynayan yeganə partiya "Müsavat"dır. Dövlət çox partiyalı olsa da, onun əsas aparıcı qüvvələrini, dayağını və ideoloji silahını müsavatçılar da təşkil edirdi. Ona görə də dövlətin özü bütün mənbələrdə "Müsavat dövləti" də adlanırdı. Təəssüf ki, Şərqin ilk müsəlman respublikası uzun sürmədi və 1920-ci ildə XI ordu tərəfindən işğal olundu. Bununla belə son 70 ildə totalitar dövrün rəsmi sənədlərində, tarix və ədəbiyyatşünaslığında "Müsavat" sözünə mənfi çalar hopdurulmuş, düşmən donu geydirilmiş və yaranan hər yeni nəsil müsavatçılara qarşı xoflu, ürkək havada köklənmiş, onlara millətin düşmənləri kimi yanaşmaq öyrədilmişdir. Orta məktəb dərsliklərimizdən tutmuş bütün tarixi, fəlsəfi, ədəbi mənbələrimizdə "müsavat" ancaq bu aspektdə şərh edilmişdir. İndiyə qədər əlimizdə onun tam obyektiv inkişaf tarixi, mübarizələri və nailiyyətlərini əks etdirən sanballı vəsait yox idi. Amma "Müsavat" yaşayır və vuruşurdu. 1936-cı ildə Varşavada "Milli Azərbaycan "Müsavat" xalq firqəsi"nin konfransı oldu (bəzən bu, qurultay da adlanır). Bu tarixi hadisədən sonra "Müsavat"ın ideoloqlarından biri olan Mirzə Bala Məmmədzadə partiyanın keçdiyi tarixi yolu qələmə almış və çox böyük çətinliklə ərsəyə gətirdiyi əsəri 1938-ci ildə Berlində "Milli Azərbaycan hərəkatı" adı ilə çap etdirmişdir.

Ayrı-ayrı xatirələri və nəşrləri nəzərə almasaq bundan sonra uzun müddət nə partiyanın tarixi, nə də M.B.Məmmədzadənin bu sanballı və qiymətli əsəri çap edilməmişdir. Yalnız M.B.Məmmədzadənin ölümündən çox sonra (o, 1959-cu ildə İstambulda vəfat etmişdir) 1991-ci ildə Ankaradakı Azərbaycan Kültür dərnəyinin genel sekretarı Əhməd bəy Qaracanın geniş müqəddiməsi ilə əsər yenidən işıq üzü görə bildi. Əhməd bəy kitabın uzun və tutumlu adının ancaq birinci hissəsini saxlamış və "Milli Azərbaycan hərəkatı" adı ilə çap etmişdir. Əslində elə bu da "Müsavat"ın tarixi deməkdir. Çünki mövcud tarix elmimizdə süni şəkildə düzüb-qoşduğumuz bolşevizmin "mübarizə" tarixinə baxmayaraq əsl milli hərəkatımız elə "Müsavat"ın və onun ideya sələflərinin apardığı mübarizə tarixidir. Müasir Azərbaycan gəncliyi və onların nisbətən yaşlı nəsli haqsız olaraq bu tarixi həqiqətə yadlaşdırılmış və ondan uzaqlaşdırılmışdır. Halbuki tariximiz naminə öyrənməli, bilməli, açılmalı şanlı, şərəfli səhifələr budur.

Azərbaycan Jurnalistlər Birliyi özünün məhdud imkanlarına baxmayaraq mühacirət ədəbiyyatının nəşri sahəsində çox faydalı işlər görmüşdür. Almaz İldırım, Ümmülbanu, Əhməd Cavad və başqalarının zəngin irsinin müasir oxuculara çatdırılmasında onun xidmətləri təqdirəlayiqdir.

Birliyin faydalı işlərindən biri də bu il M.B.Məmmədzadənin həmin əsərinin azərbaycanlaşdırılmış variantını çap etməsidir (dilimizə uyğunlaşdıran Ramiz Əsgər, redaktoru Hacı Hacıyevdir). Əhməd bəy Qaraca kimi, onlar da əsəri eyni adla, eyni formatda, eyni tərtiblə oxuculara çatdırmışdır. Amma bir fərqlə. Əsərdən Əhməd

bəy Qaracanın geniş müqəddiməsi (50 səhifəyə qədər) və sözlüyü çıxarılmış, ancaq kitab müəllifinin vaxtilə qələmindən çıxan ilk mətn saxlanılmış və Azərbaycan alimi Mövsüm Əliyevin "Mirzə Bala Məmmədzadə kimdir?" adlı kiçik bioqrafik məlumatı əlavə edilmişdir.

Kitab ilk nəşrə müəllifin ön sözündən, giriş, 12 fəsil və son sözdən ibarətdir. Belə bir geniş məzmunlu əsərdə keçən əsrin axırları və indiki əsrin əvvəllərindən etibarən Rusiya və Türkiyədə baş qaldıran türkçülük ideyalarının yaranması və inkişafı ilə bağlı olaraq Azərbaycanda milli hərəkatı, onun ümmətçilikdən millətçiliyə qədər keçdiyi mərhələlər, izlədikləri nəcib məqsəd və amallar ətraflı şərh edilir.

Mirzə Bala Məmmədzadə Azərbaycan milli hərəkatının ilk mənbələrini haqlı olaraq keçən əsrin ortalarına - M.F.Axundov və Həsənbəy Zərdabiyə aparıb çıxarır və bu dövrü "milli oyanış" dövrü, "mədəni millətçilik hərəkatı" adlandırır, 1905-ci il inqilabından sonrakı oyanışı isə milli hərəkatın "div addımları" kimi səciyyələndirir. Müəllifin fikrincə, həmin dövrün mütərəqqi ziyalıları "gözəl bilirdilər ki, milli mədəniyyətini və milli xüsusiyyətlərini qorumağa müvəffəq olmayan millət ölümə məhkumdur". Onu da bilirdilər ki, "milli mədəniyyətin təməllərindən ən mühümü dil və ədəbiyyatdır". Onun komponentləri və atributları isə (məktəb, mətbuat, teatr, sənət və s.) milli şüurun, milli özünü dərketmənin inkişafında həlledici rol oynayır. Bu cəhətdən kitab müəllifi Krımdan İsmayılbəy Qaspiralının, Şərqdən Cəmaləddin Əfqaninin, Türkiyədən Ziya Göyalpın, Azərbaycandan Əhməd Ağaoğlunun, Əlibəy Hüseynzadənin türkçülüyün formalaşmasındakı rollarına çox yüksək qiymət verir və haqlı olaraq onu da göstərir ki, Əli bəyin hələ 1906-cı ildə formalaşdırdığı "türkləşmək, islamlaşmaq və müasirləşmək" fikri bütün sonrakı dövrdə milli hərəkatın devizinə çevrildi, hətta milli dövlətin rəmzində, bayrağının rəngində öz əksini tapa bildi. Müəllif bütün bu işlərdə Azərbaycan milli hərəkatının ideya rəhbəri və "Müsavat"ın lideri M.Ə.Rəsulzadənin aparıcı rolunu qabarıq şəkildə verə bilmişdir.

M.Ə.Rəsulzadənin fikri inkişafında mühüm rol oynayan iki amili kitab müəllifi xüsusilə qeyd edir. Onlardan biri Şərqin məşhur filosofu Cəmaləddin Əfqani, ikincisi İstanbuldakı türk ocağıdır. Əslində bunlar bir-biri ilə bağlı idi. Daha doğrusu, 1911-ci ildə Türk ocağını yaradanların əksəriyyəti Qafqazdan və Rusiyadan gedən türk ziyalıları idi, onların da əsas ideoloqlarından biri Cəmaləddin Əfqani olmuşdur. M.Ə.Rəsulzadə İran və Türkiyə mühacirliyində onun ideyaları ilə tanış olmuş, əsərlərini türk dilinə çevirmiş, millətin komponentlərini ondan əxz etmişdir. Milli şüurun oyanmasını azadlıq üçün vacib şərt hesab edən Cəmaləddinin fikrincə, milli birlik üçün iki vacib şərt var: biri din birliyi, digəri dil birliyidir. Dil birliyi daha vacibdir, çünki o dəyişmir, əbədidir. Bu fikri Məmməd Əmin Rəsulzadə kimi ziyalılarımız əxz edib daha da inkişaf etdirdikdən sonra Azərbaycanda ictimai fikir ittihadi-islamdan türkçülüyə, millətçiliyə, milli azadlığa keçdi. Daha doğrusu, Azərbaycançılığa gəldi, Azərbaycan Demokratik Cümhuriyyəti ilə nəticələndi.

Mirzə Bala Məmmədzadə göstərir ki, əsrin əvvəllə-

rində Azərbaycanda əsasən üç fikir cərəyanı vardır: mühafizəkarlar, liberallar və inqilabçılar. Bunlardan sonuncular mövcud ictimai quruluş devirmək tələbi ilə çıxış edirdilər. "Müsavat"əsasən bu iki siyasi cərəyanın qüvvələrindən yarandı və "Azərbaycanda ilk dəfə olaraq sərbəst və Avropa tipli firqəyə çevrildi, "ümmətçiliklə" "millətçiliyi" ideal şəkildə bir-birindən fərqləndirərək, "istiqlalçı, xalqçı və cümhuriyyətçi" bir partiya oldu.

"Müsavat" ideyası 1911-ci ildə əsasən üç nəfərin (Məmməd Əmin Rəsulzadə, Məmmədəli Rəsulzadə və Abbasqulu Kazımzadə) təşəbbüsü ilə meydana çıxarkən onun geniş quruma çevrilməsində "Difai"nin də rolu az olmamışdır.

Bizim mövcud tarixi ədəbiyyatımızda "Difai" təşkilatının yaranma və fəaliyyətinə xüsusi diqqət yetirilməmişdir, haqqında səthi söhbət gedəndə isə o, mürtəce bir təşkilat kimi qiymətləndirilmişdir. Halbuki milli varlıq üçün çox böyük tarixi bir iş görən və əsasən erməni terrorunun, fitnə-fəsadının qarşısını almaq, dəf etmək üçün yaradılan bu partiya öz bəyannaməsində yazırdı: "Daşnak" firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoşgüzəranlıq qurmasına yol verməri k". 1908-ci ildə Əhməd Ağaoğlu Bakıdan sıxışdırılıb çıxarılandan sonra "Difai" təşkilatı fəaliyyətini dayandırdı, "Müsavat" isə əsasən onun ideya bazası əsasında yaradıldı.

"Müsavat" yaradılandan 6 il sonra 1917-ci ildə birinci qurultayı çağrıldı və bir az əvvəl Gəncədə Nəsibbəy Yusifbəylinin yaratdığı "Ədəmi-mərkəziyyət" partiyası



ilə birləşib "Türk ədəmi-mərkəziyyət Müsavat xalq firqəsi" adını aldı və sadəcə "Müsavat" adı ilə tanındı. Bu dövrdən etibarən o, aydın, düşünülmüş ideologiya silahına, demokratik proqrama malik olub Azərbaycan xalqının istək və arzularının təmsilçisinə çevrildi. Bu partiya Rusiya daxilindəki müsəlmanların siyasi toplantılarından, qurultaylarından, Zaqafqaziya Seyminin yaradılması və fəaliyyətində nüfuzlu qurumlardan biri olmuşdur. Birinci qurultay M.Ə.Rəsulzadənin başçılığı ilə özünün Mərkəzi Komitəsini seçdi və təsdiq olunmuş proqram üzrə fəaliyyətə başladı.

M.B.Məmmədzadə 10-cu illərin bütün siyasi inkişaf prosesində "Müsavat"ın fəaliyyətini, siyasi hadisələrə, xüsusən müharibəyə münasibətini, Fevral inqilabından sonra Rusiyadakı milli varlıqların, xüsusən türk xalqlarının gələcək taleyi, suveren Azərbaycan yaratmaq haqqında müddəalarını faktik materiallar əsasında şərh edir. Azərbaycanın suverenliyinin elan olunması və onun həyata keçirilməsi uğrundakı gərgin mübarizələrə həsr olunmuş səhifələri həyəcansız oxumaq mümkün deyil. Elə Bakıda mart hadisələri də, ciddi siyasi çaxnaşmalar da, bolşevik təxribatları və fitnəkarları da xalqın bu istiqlal eşqini qırmaq məqsədini daşıyırdı. M.Ə.Rəsulzadə "Müsavat" partiyasının 1919-cu il dekabrın 2-də 2-ci qurultayını açaraq demişdi: "Əziz arkadaşlar, biz hamımız çox böyük çətinliklərlə qarşılaşdıq. Amma bir türk kimi işıqlı gələcəyə olan inamımızı itirmədik. Biz inanırdıq ki, haqq işimiz qalib gələcək və bizi xilas edən bu inam oldu".

M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsi və

Parlamentin müsavat fraksiyasının işi haqqında hesabat məruzəsində də mart hadisələrinə toxunur və deyirdi ki, azadlıq uğrunda ilk şəhidlərimiz mart qırğınında oldu. Bu hadisələrdə "Müsavat"ı günahlandırırdılar. "Bəziləri deyir ki, "Müsavat" Sovetə müharibə elan elədi. Əlbəttə bu tamam əsassız ittiham idi, çünki müharibə elan etmək üçün heç olmasa müəyyən qədər fiziki qüvvə olmalıdır. Halbuki bizdə belə qüvvə yox idi. Başqaları "Müsavat"ı ona görə ittiham edir ki, o, Azərbaycanın istiqlalını ehtirasla müdafiə etdiyinə görə mart hadisələrinə imkan yaratmışdı. Burada müəyyən həqiqət vardır. Əgər biz öz düşmənlərimizin qarşısında boynumuzu büküb dayansaydıq, bəlkə də bu hadisələr baş verməzdi. Amma biz belə bir iş tuta bilməzdik".

Kitabda "Müsavat" firqəsi ideologiyasının qurulması və proqramı" "Milli ideyanın gerçəkləşməsi uğrunda mübarizə", "Müsavat" və Qafqaz istiqlalı", "Azərbaycan istiqlalı və "Müsavat", "Dövlət quruculuğunda "Müsavat", "Aprel istilası və "Müsavat", "İstilaya qarşı savaşda "Müsavat", "Mühacirətdə "Müsavat", "Müsavat"ın yeni proqramı" və s. fəsillərdə partiyanın keçdiyi mübarizə yolları izlənir və sözün həqiqi mənasında bu partiya xalqın istək və arzularını ifadə edən, tutduğu yolun haqq yolu olduğuna inanan və bu yoldan çəkinməyən bir qurum kimi təqdim edilir. O da göstərilir ki, "Müsavat"ın dəqiq düşünülmüş proqramının bütün maddələri mərhələ-mərhələ həyata keçirilirdi.

1918-ci ildə ilk parlament açılarkən M.Ə.Rəsulzadə deyirdi ki, bizim ən yaxın məqsədimiz Azərbaycan muxtariyyətini müdafiə etmək idi. Ona görə də bizi sağdan da



döyürdülər, soldan da. "Sağdan bizə deyirdilər ki, azərbaycançılıq şüarı ilə biz müsəlmanları parçalayırıq və azərbaycançılıq bayrağı yüksəltməklə biz - allah göstərməsin - islamiyyətin təməlini pozuruq. Soldan isə deyirdilər ki, Azərbaycan muxtariyyəti istəməklə biz birləşmiş demokratik cəbhəsini pozuruq".

"Əsrin Səyavuşu" belə mübarizələrdən yarandı və tarixi fakt kimi tarixə yazıldı. Onun əsas ideoloqu M.Ə.Rəsulzadə yenə də həmin il deyirdi: "Bizim siyasi proqramımızın əksər hissəsi artıq gerçəkləşmişdir. "Buna görə də indi əsas vəzifə "Azərbaycan ideyasını" təbliğ yox, "mövcud faktın siyasətən, hüquqən və xaricən müdafiəsi ilə" məşğul olmaqdan ibarətdir. Bu ağır və şərəfli işin bütün yükünü "Müsavat" daşımışdır.

M.B.Məmmədzadə bütün bunları təkcə mövcud və məhdud faktlar əsasında yox, həm də şahidi və iştirakçısı olduğu tarixi hadisə kimi qələmə almışdır. Çünki "Müsavat"ın yaranma və inkişaf tarixi onun gözlərinin qabağında və özünün fəal iştirakı ilə baş vermişdir. Biz partiyanın Bakıdakı arxiv sənədlərini izləsək bunun əyani şahidi ola bilərik. Təkcə partiyanın ikinci qurultayında kitab müəllifinin çox fəal iştirakına nəzər salmaq kifayətdir. O, qurultayı "Bəsirət" redaksiyası adından təbrik etmiş, M.Ə.Rəsulzadənin məruzəsi ətrafındakı müzakirələrdə nitq söyləmiş, işgüzar təkliflər irəli sürmüşdür. Hətta aqrar məsələ ilə əlaqədar olaraq məruzəçiyə verilən sualın cavabı da onu qane etməmiş və əlavə çıxışa məcbur olmuşdur. Parlamentin üzvü Məmmədəli Rəsulzadənin yenə bu məsələ ilə bağlı çıxışına yerindən iki dəfə replika atıb onları köhnə

metodla işləməkdə ittiham etmişdir. Faktlar göstərir ki, "Müsavat"ın əsas qüvvələrindən biri məhz o idi.

1920-ci il aprelin 29-dan etibarən partiyanın gizli fəaliyyəti də, 1922-ci ildən başlayaraq xaricdəki mühacir dövrü də, xüsusən bu illərdə onun bolşeviklərlə apardığı ciddi mübarizə də əsərdə geniş əksini tapmışdır.

M.B.Məmmədzadə "Müsavat"ın fəaliyyətini 1936-cı il konfransına qədər izləyir, çünki əsər 1937-ci ildə yazılmışdır. Partiyanın sonrakı fəaliyyətinin işıqlandırılması üçün artıq indi şərait yaranmışdır. 70 illik mühacirətdən sonra vətəninə qayıdan "Müsavat"ın 3-cü qurultayının bu il noyabrın 6-da Bakıda çağırılması da onun "sinifsiz, hürriyyətsiz, mülkiyyətsiz və milliyyətsiz" cəmiyyət qurmaq eşqinə düşən bolşeviklərin əksinə olaraq "insanlara hürriyyət, millətlərə istiqlal" prinsipinin həyatiliyini sübut edir. Yəni "Müsavat", Məmmədzadənin dediyi kimi, "fərdin fərd üzərində hökmünü rədd etdiyi kimi, millətin də millət üzərində hakimiyyətinə qarşı üsyan etmişdir". "Müsavat"ı yaşadan da, sevdirən də, bütün qadağalara, fitnələrə, təxribatlara baxmayaraq onun səsinin yenidən dünyaya yayılmasına səbəb olan da bu böyük həqiqət idi.

M.B.Məmmədzadə əsəri mühacirətdə yazmışdır. Əllərinin altında material bolluğu yox idi, biri tapılanda biri tapılmırdı. Özü də etiraf edir ki, "Mühacirət həyatında, məhdud məxəz və sənədlərə əsaslanaraq meydana gətirilmiş olan bu əsərin qüsurlu olacağını dərk edirik".

Əsərdə doğurdan da müəyyən qüsurlar vardır. Xüsusən mənim də nəzərimə çarpan bəzi anları açıqlamaq lazım gəlir. Məsələn, Əlibəy Hüseynzadənin əsərinin adı "Yazımız, dilimiz, birinci ilimiz" yox, "Yazımız, dilimiz,



"İkinci ilimiz"dir. "İkinci il" dərslik adı idi, özü də kitab müəllifinin dediyi kimi, bu dərslik haqqında həmin əsər "Həyat"da yox, "Tərəqqi"də dərc olunub, 1905-ci ildə yox, 1909-cu ildə və s.

Bir məsələnin də üstündən şərhsiz keçmək olmaz. O da dil məsələsidir. Millətin varlığı üçün əsas faktor hesab olunan dil XX əsr Azərbaycan mütərəqqi ziyalılarının fəaliyyətinin çıxış nöqtəsi idi. Bu sahədə əsas iki cərəyan vardı: osmançılıq və Azərbaycan türkçülüyü. Əksər ziyalılar ikincinin tərəfdarı idilər. İlk milli dövlət yarananda bu məsələ bir də qalxdı. Müstəqil Azərbaycan vardısa, onun rəsmi dövlət dili də olmalı və elan edilməli idi. Xüsusən dövlət dilinin təlim və idarə funksiyasına rəsmi münasibətini bildirməli idi. Azərbaycan türkcəsinin dövlət dili funksiyasını icra edəcəyi haqqında söhbət var idi. Amma ADC-in fəaliyyət göstərdiyi dövrdə işlər rus dilində aparılmışdır. Hətta "Müsavat"ın 2-ci qurultayında Əhməd Cavad buna öz etirazını bildirib dövləti tənqid edəndə M.Ə.Rəsulzadə demişdi: "dövlət idarələrində bütün işlərin türk dilində aparılması fikrini ortaya atan yoldaşların arzusu məni sevindirir, amma təəssüf ki, buna hələ imkan yoxdur".

Təlimə gələndə isə, "Açıq söz" qəzetinin "Təlim dilinin mütləq Azərbaycan türkcəmiz olmalıdır"* deməsinə baxmayaraq "Müsavat" partiyası proqramında həm edadi, həm də ali məktəblərdə "Osmanlı şivəsinin lisan olaraq tədris"ini məcburi" hesab etmişdir.

"Müsavat" liderlərinin bu fikrini və hərəkətini başa düşmək olar, çünki o zaman Azərbaycan türkcəsində nə

* **"Açıq söz" qəzeti,28 mart 1916-ci il.**

faydalı dərslik var idi, nə də güclü kadr. İlk illər dərsliklər də, kadrlar da Türkiyədən gətirilirdi. Aydın məsələdir ki, gələnlər də tədrisi öz ləhcələri ilə aparmalı idilər.

M.B.Məmmədzadə təəssüf hissi ilə bildirir ki, "Milli hökumət dövründə (1919-1920) müvəffəqiyyətlə tətbiq edilən bu dil birliyi siyasəti Sovet istilası dövründə ləğv olunmuş, yerinə azəri ədəbi dili deyil, küçə dilindən ibarət bir "proletar jarqonu" tətbiq olunmuşdur" (səh.62).

Mərhum M.B.Məmmədzadə burada haqsızlığa yol verir. Əvvəla, Azərbaycan türkcəsi "küçə dili" deyildi, "proletar jarqonu" da olmamışdır. O, bir neçə mühüm dialektin əsasında yaranmış, təkmilləşmiş və bütün türk dilləri içərisində ən çox tədqiq olunan, öyrənilən, sabitləşən gözəl bir dildir. Belə bir gözəl, şirin dil olaraq da qalacaqdır. İndi bütün türk dünyası ümumi-müştərək, hamı üçün anlaşıqlı ədəbi dil haqqında fikir yürüdür. Bu, təzə məsələ olmasa da indiki Türkiyə türkcəsinin düşdüyü acınacaqlı "qatış-bulaş" vəziyyətdən xilas üçün yeganə yoldur. Məncə Azərbaycan türkcəsi bu işdə əsas rol oynayacaq, aparıcı Azərbaycan türkcəsi, Füzuli türkcəsi olacaqdır.

Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" kitabı sırf "Müsavat" partiyasının tarixidir. Onun Azərbaycan dilində yeni nəşri alqışlanmalıdır, çünki orta və ali məktəblərdə Azərbaycan tarixini tədris edən müəllimlərin əllərində tutarlı, obyektiv material azdır. Bu əsər onlar üçün qiymətli vəsaitdir.

***"Xalq qəzeti",***
***21 noyabr 1992-ci il.***



## M.Ə.RƏSULZADƏ ADAM ÖLDÜRƏN OLMAMIŞDIR

"Yeni Azərbaycan" qəzetinin iki nömrəsində Namiq Səlimovun bir məqaləsi dərc edilmişdir. Mən oxuculardan üzr istəyirəm ki, xidməti vəzifəmlə əlaqədar olaraq Bakıda olmadığım günlərdə çap olunmuş bu məqaləyə vaxtında cavab verə bilməmişəm. Lakin heç olmamaqdansa, gec olmağı yaxşıdır. Məqalə belə adlanır: "Düdənginskinin ölümündə M.Ə.Rəsulzadənin əli varmı?".* Müəllif burada heç bir fakta əsaslanmadan qoyduğu suala "hə" cavabını verir. Çox təəccüblü?! Guya M.Ə.Rəsulzadə Almaniyaya gedərkən oranı tərk etməzdən əvvəl "ayrı-ayrı legion dəstələri arasında nifaq salmaq və Düdənginskini ləkələmək məqsədi güdmüşdü".



*M.Ə.Rəsulzadə İstanbulda, 1950.*

Məqalə müəllifinin fikrincə M.Ə.Rəsulzadə "təhsilsiz", "təsadüfi", "Stalinin yaxın dostu", Fətəlibəy Düdən-

* "Yeni Azərbaycan" qəzeti, 29,30 sentyabr 1998-ci il.

ginski isə "yaxşı hərbi təhsil almış və zadəgan nəslinin nümayəndəsi" olmuşdur. Və bunlar bir-biri ilə rəqabət aparırdılar. Üstəlik "əsir düşmüş həmvətənlərimiz geri qayıdarkən" məhkəməsiz güllələnmələri də M.Ə.Rəsulzadənin "xidmətləri" imiş. Hətta Düdənginski M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda rəqibini guya ifşa edərək yazırdı: "Bizim müstəqilliyimizin tanınıb-tanınmamasından asılı olmayaraq bu ağır vaxtda həmvətənlərimizi milli rəhbərlikdən məhrum etməyə bizim mənəvi haqqımız yoxdur".

Burada ifşa və ya buna bənzər bir şey yoxdur. Fətəlibəy düz deyirdi. Çünki onlardan biri Almaniyada, o biri Türkiyədə idi. Biri Hitlerin özünün göstərişi ilə "Rabitə heyəti", digəri isə "Milli Azərbaycan komitəsi" yaratmışdı. Bunların adları get-gedə dəyişib cilalanırdı. Düdənginski 1943-cü ildə Berlində özünün rəhbərliyi ilə Milli Azərbaycan qurultayı çağırmış və orada qeyd edilmişdir ki, "28 may 1918-27 aprel 1920-ci ilə qədər davam etmiş Milli Azərbaycan hökuməti dövrü şanlı tariximizin ən parlaq səhifəsini təşkil edir". Bu dövrdə də əsas simalardan biri M.Ə.Rəsulzadə idi. O, Azərbaycan Milli Şurasının sədri idi, "Müsavat" partiyasının rəhbəri idi. Bu hökumətdə əsas partiya "Müsavat" idi. Qafqaz seymindən çıxanda 44 nəfər üzvdən 30-u bu partiyanın üzvü idi.

Namiq Səlimov onu da xüsusi qeyd edir ki, "Müsavat" partiyası yaradılanda M.Ə.Rəsulzadə iştirak etməyib. Bu da düzdür, "Müsavat" partiyası yaradılanda M.Ə.Rəsulzadə Bakıda yox idi. Amma bu onun günahı deyildi, ölkədən qovulmuşdu, Türkiyədə idi. O, Bakıya



1914-cü ildə gəlib çıxdı.

"Orta təhsilini bir təhər başa vuran axund oğlunun əməllərini qabartmaqda yalnız bir məqsəd olub".

Əvvəla, M.Ə.Rəsulzadə heç orta təhsil də görməmişdi. 4 illik peşə məktəbi bitirmişdi. Amma görürsən, nə qədər savadlı idi. Başqa cür olsa idi, onu qəzetə yığıcı götürməzdilər.

Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması elan olunanda da M.Ə.Rəsulzadə Batumda idi. Amma onu qiyabi şəkildə Milli Şuranın sədri seçdilər. M.Ə.Rəsulzadə gələnə qədər onun vəzifəsini Həsənbəy Ağayev aparmışdır. Türkiyə ilə bağlanan müqavilədə Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadənin imzası vardır. Azərbaycan Demokratik Cümhuriyyəti 1918-ci il iyun ayının 17-də Gəncəyə köçərkən burada keçirilmiş iki iclasını, yəni 7 və 8-ci iclaslarını, Bakıya gələndə isə 9,10,11-ci iclaslarını aparmış, 7 dekabr 1918-ci ildə açılan parlaman iclasını da yenə M.Ə.Rəsulzadə açmışdır.

"Rəsulzadə harada olursa olsun, hər dolaşdığı diyarda məktəbi və tələbələri olan bir öyrətmən idi... O yaşayır və əbədiyyən yaşayacaqdır" deyən şair Kərim Yaycılı yüz dəfə haqlı idi. Kərim Yaycılı bir şeydə də haqlı idi ki, "o, öldüsə, məfkurəsi, davası və əsərləri ilə yaşayacaqdır. Azərbaycan durduqca Emin bəy də daim yaşayacaqdır. Hər azərbaycanlı vətənpərvər ondan bir parçadır və onun əsərlərini yürüdəcək və yaşadacaqdır".*

---

*** Kərim Yaycılı, Böyük mücahit. "Azərbaycan" jurnalı, Ankara, 1955, №12.**

İndi gələk Əbdürrəhman Fətəlibəyliyə. O, böyük hərbiçi kadr idi. 1940-cı ildə Moskvada hərbi Akademiyanı bitirmişdi. Müharibə başlananda Pribaltikada idi və oradan almanların tərəfinə keçmişdi. Seyfulla adlı bir qardaşı da vardı, o özündən əvvəl Berlində ölmüşdü. Bunların hər ikisi Naxçıvanın Düdəngi kəndində bir hərbiçi ailəsində anadan olmuşdu.

Əvvəla, yıxılan bir dövlətin liderləri arasında gizli və ya açıq şəkildə çəkişmə və ya çəkişdirmə həmişə olmuşdur. Böyüklük bu çəkişmələri şişirdib milli münaqişəyə çıxartmamalıdır. Böyük diplomat Əlimərdanbəy Topçubaşovla M.Ə.Rəsulzadənin arasını vurmaq qədər "məntiqsiz bir iddia ola bilməz". Topçubaşovun Azərbaycan tarixində tutuduğu yeri M.Ə.Rəsulzadə kimi heç kəs müəyyənləşdirə bilməmişdir.*

M.Ə.Rəsulzadə mühacirət illərində yuxarıdan da söyülürdü, aşağıdan da. Aşağıdan söyənlər azlıq təşkil edirdilər, amma səhv edirdilər. Azərbaycan kimi gözəl bir diyar tapdağa çevrilmişdir. "M.Ə.Rəsulzadənin tariximizdəki rolunu kiçiltmək üçün onun "nə hökumət, nə də parlamentə rəisliyi, nə də hətta bir bakan mövqeyində bulunmadığı" dilə gətirilir. Amma 27 aprel faciəsinin hesabını təkcə M.Ə.Rəsulzadədən istəyirdilər.** Bu, insafsızlıq idi. Bu adam xalqın, vətənin xatirinə hər şeyindən keçmişdi. Axı hər bir kişinin bir ümumi işindən başqa bir də şəxsi həyatı olur. Bunu onun əlindən almaq çox çətindir. M.Ə.Rəsulzadə xalq üçün bundan da keçmişdi.

---

* **"Azərbaycan" jurnalı, Ankara, 1954, №2-3.**

** **"Azərbaycan" jurnalı, Ankara, 1954, №4.**



Bəli, o, 1943-cü ildə qraf Fon Şulenburqun Berlinə getmişdir (sonra Hitlerə sui-qəsdə görə edam edilmişdir). Dəvətilə getdiyi kimi də geri qayıtmışdır. Onun fikirləri Hitleri açmamışdır. Fətəlibəyli onda cəbhədə idi, cəbhədən M.Ə.Rəsulzadəyə yazırdı: "Çox möhtərəm cənab Məmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz hüriyyət mücahidi olan sizi cəbhədəki bütün əsgərlərimiz adından salamlayıram... Cəbhədəki bütün əsgərlərdən sizə salamlar. Sizə yaxşı səyahətlər arzulayıram. Sizin Ə.Düdənginski-Fətəlibəyli" (məktub rusca yazılmışdır).



*Ə.Fətəlibəyli - Düdənginski (1908-1954)*

Burada bir eyham, bir işarə varmı? Qətiyyən, Fətəlibəyli M.Ə.Rəsulzadədən 3 ay əvvəl ölmüşdü. Ölümü münasibətilə M.Ə.Rəsulzadə dərhal Münxenə Ceyhun Hacıbəylinin adına teleqram göndərmişdi. M.Ə.Rəsulzadə yazırdı: "Mərhum hərarətli bir vətənpərvər və atılqan bir mücahid idi. Hadisələrin sevgi ilə, bildiyimiz fəaliyyət sahəsində birdən atılmadan, cəbhədə adı duyulmayan bir əsgər ikən açığa vurduğu hissiyyat onun səmimi bir vətənsevər olduğunu göstərir". Belə adamın qətldə əli ola bilməz.

M.Ə.Rəsulzadə kimi bir liderə qatil sözü yaraşmaz. Qətl edən adamın qətlbazlıq onun əsərlərindən, davranışından, sözlərindən məlum olar. Bəs kim öldürmüşdü Düdənginskini? Müəllif Namiq Səlimov yalan deyir ki, o, arxadan atəşlə vurulmuşdu. Düdənginski evində tək idi, ailəsi istirahətdə idi. Onun yanında olan adam Mikayıl İsmayılov tərəfindən başına endirilmiş çəkic zərbəsi ilə öldürülmüşdü.*

Namiq Səlimov bu faktı bizim arxivlərdən götürmüşdür. O zaman belə faktlar orada ola bilərdi, çünki M.Ə.Rəsulzadəni kirlətmək üçün xırda faktlar, eyhamlar, yapışmayan söhbətlər də kara gələ bilərdi.

"Qardaş qanı tökmək Müsavatın sevimli taktikası olduğundan Məmməd Əmin bundan heç narahat olmurdu. Müsavat başçısının Hitler Almaniyası ilə əməkdaşlığı, güman etmək olar ki, Moskvanın planı idi".

Bu fikrin ikisi də səhvdir. Müsavat partiyasının başçılarının hamısını - Bakıda, Tiflisdə, İstanbulda... ermənilər öldürmüşdü. Yəni "qardaş qanı tökmək Müsavatın sevimli taktikası" deyildi. İkinci məsələyə gəldikdə isə bu, Moskvanın planı ola bilərdi, amma M.Ə.Rəsulzadə ilə bağlı deyildi.

"F.Düdənginski ilə aralarında olan ixtilaf Rəsulzadəyə özünü sığortalamaq üçün əsas vermir. Bu zaman onun beyninə belə bir plan düşdü - Düdənginski öldürülməlidir".

Bu, ağ yalandır. Təpədən dırnağa qədər vətəni sevən, yurdu sevən adamı heç vaxt öldürmək fikrinə düşməzdi. Ümumiyyətlə, o, adam öldürən olmamışdır.

---

* **"Azərbaycan" jurnalı, Ankara, 1954, №4.**



"Düdənginski Nəriman Nərimanovun fəaliyyətini çox yüksək qiymətləndirirdi". Daha yaxşı. Məgər M.Ə.Rəsulzadə bundan rəncidə düşməli idi. Qətiyyən yox, nə Nərimanovda Rəsulzadə haqqında, nə də Rəsulzadədə Nərimanov haqqında xatirə deyəcək heç bir şey yoxdur. Sadəcə, onlar ayrı-ayrı ideologiyanın tərəfdarı idilər. Rəsulzadə yazırdı: "Biz Nərimanovun istədiyini istəmirik". Vəssalam.

Bunlar ağıllı adamlar idi, hər xırda şeyi böyüdüb düşmənçiliyə çevirməzdilər. Buna xüsusi məna verən məqalə müəllifi yazır ki, "Düdənginskinin ölümündə bu versiyanın da xüsusi yeri olmuşdur. Çünki Nərimanov nə Rəsulzadənin adamı idi, nə də Moskvanın".

Bunlardır həmin məqalənin "yeni faktları". Bunlara əsaslanıb fərziyyə yürütmək olmaz. XX əsrdə Azərbaycan xalqının siyasi cəhətdən yetirdiyi üç nəhəng adam var. Bunlar hər zaman yetişmir. Bunlar Nərimanov, Rəsulzadə və Heydər Əliyevdir. Bunu məqalə müəllifi gərək biləydi və belə cəfəngiyyat şeylər yazmayaydı.

***"Azərbaycan" qəzeti,***
***20 oktyabr 1998-ci il***

# "TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ VƏ MÜASİRLƏŞMƏK"

**Bu sözlər prinsip etibarı ilə Cəmaləddin Əfqaniyə məxsusdur. Ə.Hüseynzadə onu bu şəkildə formalaşdırmış və M.Ə.Rəsulzadə ilk dəfə qəzetin epiqrafına çıxartmışdır.**

*"Deputat kürsüsu"ndə qonağımız Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvü, millət vəkili, professor Şamil Qurbanovdur.*

- ***Deputat kürsüsü sizə nə verdi?***

- Bu kürsü mənə çox şey verib. İlk növbədə mən fikrimi daha açıq, daha kəskin demək imkanı əldə etmişəm.

- ***Şamil müəllim, indi müxalifət iqtidara qarşı çox fəallaşıb. Bunun səbəbini və nəticəsini siz nədə görürsünüz?***

- Onu deyim ki, hazırda iqtidar çox güclüdür. Özü də ancaq Heydər Əliyevin sayəsində. Müxalifətin fəallaşması onun gücünün azaldığını, boğulduğunu göstərir.

Müxalifətin istədiyi nədir? Guya iqtidarın M.Ə.Rəsulzadəyə münasibəti onları təmin eləmir. Gəlin görək, bu belədirmi? Mayın 26-sında MM-in iclası bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr edildi. Prezident özü MM-in iclasına gəldi, çıxış etdi. Deputatların hamısı M.Ə.Rəsulzadədən hörmət və izzətlə danışdılar. Onun adı bütün çıxışlarda birinci yerdə gedirdi. Həmin iclasda mən də danışdım və dedim: "O dövrün ziyalılarının başının üstündə bir ideoloq vardı. Bu, Cəmaləddin Əfqani idi. M.Ə.Rəsulzadə onun əsərlərini tərcümə edib yayırdı. "Türkləşmək, islamlaşmaq və müasirləşmək" məsələsi prinsip etibarı ilə Əfqanidən gəlirdi, bayrağımızın da sonralar rəmzlərinə çevrilmişdir".

Cəmaləddin Əfqani Misirdəki çıxışlarının birində demişdi: "Bəşəriyyətin xoşbəxtliyi uğrunda vuruşanların əsas məqsədi azadlıq, bərabərlik və qardaşlıq kimi böyük və möhtəşəm simvollara əsaslanan xoşbəxtlik binası qurmaqdır. Azadlıq, bərabərlik və qardaşlıq isə istismarın, qəddarlığın, despotizmin bünövrəsini dağıtmaq deməkdir".

Bu sözləri vaxtilə Fransa inqilabçıları öz bayraqlarına yazmışdılar və sonralar bir çox ölkənin yazıçıları bu və ya başqa şəkildə ondan istifadə elədilər. Bunu Cəmaləddin Əfqaninin şagirdlərindən və onunla həmişə təmasda olan Əhməd bəy Ağayev Bakıda "İrşad" qəzetini çıxardanda ona belə bir epiqraf yazmışdır: "hürriyyət, musavat, ədalət".

Bu, get-gedə cilalandı, ayrı-ayrı formalarda özünü göstərdi. Xüsusən, "Türk yurdu" jurnalında Türkiyənin böyük filosofu Ziya Göyalpın iştirakı ilə mübahisə ya-

rananda belə bir variantları da meydana çıxdı: "Türk millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm", "Türk qəlbli, islam imanlı, Avropa qafalı" və s. Onda Əli bəy Hüseynzadə dedi ki, mən Bakıda olanda "Füyuzat" jurnalında onu belə yazmışdım: "Türkləşmək, islamlaşmaq, müasirləşmək". Bu hamı tərəfindən bəyənildi. Həmin söhbətlərdə iştirak edən M.Ə.Rəsulzadə Bakıya qayıdan kimi "Açıq söz" qəzetində onu qəzetin epiqrafına çıxartdı.

Bəli, M.Ə.Rəsulzadə bizi özünə belə cəlb etmişdir. 1990-cı ildə onun haqqında yazılan kitaba mən rəy vermişəm. İndi gəlin görək Xalq Cəbhəsi M.Ə.Rəsulzadəyə necə yanaşır? Mayın 26-sında MM-in yubiley iclasına cəbhəçi deputatlar gəlmədilər. Harada iclas elədikləri də bilinmədi. Əgər onlar Xalq Cəbhəsini təmsil edirlərsə, xalqla birlikdə bayram etməli idilər. M.Ə.Rəsulzadə onlardan heç birinin deyil, bütün Azərbaycan xalqınındır.

- ***Sizcə, bu gün ziyalı sözünün kəsərliliyi yetərincədirmi?***

- Yox, yetərincə deyil! Əvvəla, hazırda Azərbaycanda ziyalı say etibarilə həmişəkindən çoxdur. Təkcə, oxumuş və zehni əməklə məşğul olan adamlarla yox, ümumiyyətlə, özünü ziyalı hesab edən, cəmiyyətin inkişafına təsir edən adamlar etibarilə. Bunların səsi haradan gəlməlidir? Dövri mətbuatdan. Cəmiyyətin həyatının güzgüsü hesab olunan qəzetlər iki yerə bölünür: İqtidar və müxalifət qəzetləri. Bunların heç biri öz vəzifəsini yerinə yetirmir. Ziyalı da sözünü belə qəzetlərdə deyə bilməz. Buna görə də onlar ya yazmır,



çörəyini qazanmaq üçün özünü oda-közə vurur, ya da görür ki, yazıları eşidilmir. Bəzən də özünü ziyalı hesab edən elə adamlar da olur ki, özünün xəstə təfəkkürü ilə ağılı gəlməyən cəfənkiyat yazmaqdan, xalqı təhqir etməkdən də çəkinmir.

- ***Hazırda cəmiyyət ziyalıdan, ziyalı isə cəmiyyətindən umduğunu ala bilirmi?***

- Bu proses çox çətin gedir. Bu saat ziyalılarımız bir neçə qrupa bölünür.

Birinci və ən böyük hissəsi heç nə yazmır, öz dolanacağının qeydinə qalır. Bayaq dediyim kimi, özünü oda-közə vurur, bir təhər başını girləyir. Bəzən də özünü söyür, niyə mən təmiz qalmışam, uşaqlarıma bir gün ağlamamışam?! Keçmiş təmizliyin acısını indi özündən çıxır. Bir qrup ziyalı isə xaricə üz tutur, xaricdə onları qiymətləndirirlər. Sağ olsun prezidentimiz Heydər Əliyev, 50 nəfər dünya şöhrətli qocaman elm və sənət adamını ehtiyacın pəncəsindən qurtardı, hərəsinə bir milyon manatlıq təminat verdi. Bu, onlar üçün hava-su kimi lazım idi. Yerdə qalan ziyalılarımız isə azlıq təşkil edir.

- ***Universitet auditoriyası ilə Milli Məclisin iclas zalını müqayisə etmək olarmı?***

- Yox olmaz. Bunlar ayrı-ayrı şeylərdir.

- ***Tələbələrin suallarına cavab verən müəllim millət vəkili kimi seçicilərin suallarına cavab verə bilirmi?***

- Əvvəla, mən seçicilərimə qeyri-adi vəd etməmişdim. Bircə onu demişdim ki, mən sizin mənafeyinizi qoruyacağam. Rəqiblərim çox şey vəd edirdilər:

elektrik çəkdirəcəyəm, yollarınızı düzəltdirəcəyəm, süd gətirdəcəyəm ki, süd gölündə üzəcəksiniz və s. Bunlar deyiləndən sonra mən seçicilərin hamısından üzr istədim və dedim: mənim süd vəzilərim yoxdur, hamı da gülüşdü. Bunları deputat eləməməlidir, bunlar üçün ayrı adamlar vardır. Deputat harada insan hüququ pozulur, orada onun dadına çatmalıdır.

- ***Milli Məclisin mənfi və müsbət cəhətlərini necə xarakterizə edərdiniz?***

- Bilirsiniz, Milli Məclisin səviyyəsi deputatlardan, onların hazırlığından, yetkinliyindən, hazırcavablığından, ümumi halda qoyulan məsələlərin əhəmiyyətindən asılıdır. Bir deputat hər şeyi bilə bilməz. M.Ə.Rəsulzadənin bir sözü var: "Heç vaxt bilmədiyim şeydən bilirəm kimi bəhs etmək adətim deyildir". Yəni o şeydən ki, çətinlik çəkirsən, onda gərək danışmayasan. Amma elə deputat var ki, lazım oldu-olmadı, hər iclasda danışır...

***"Yeni Azərbaycan" qəzeti,***
***2 iyun 1998-ci il.***



1918-ci il noyabrın 19-da Milli Şura M.Ə.Rəsulzadənin sədirliyi ilə keçirilən iclasında Azərbaycan Parlamentinin 120 deputatdan ibarət olması qərarı alındı. Zaqafqaziya seyminin 44 üzvü ümumi səsvermə yolu ilə seçildikləri üçün yeni Parlamentə üzv kimi daxil oldular, qalan 36 nəfər deputat yenidən seçilməli idi. Beləliklə, Parlamentin deputatları aşağıda göstərilən millətləri və təşkilatları təmsil edirdi:

**Azərbaycanlılar - 80 nəfər,**
**Ermənilər - 21 nəfər,**
**Ruslar - 10 nəfər,**
**Almanlar - 1 nəfər,**
**Yahudilər - 1 nəfər,**
**Gürcülər - 1 nəfər,**
**Polyaklar - 1 nəfər,**
**Bakı Həmkarlar şurasından - 3 nəfər,**
**Bakı sənaye-ticarət cəmiyyətindən - 2 nəfər.**

Parlamentə yeni seçilən 21 erməni deputatlarından 8-i Gəncədən, 8-i Şuşadan, 5-i Bakıdan olmalı idi.

**Fətəli Xan Xoyski:**

- Hökumətimizi elə bir zamanda təşkil etdik ki, bir kənddən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, malı əmində deyildi. Dəmir yolları tamamilə yatmış kimi idi, poçt və teleqraf müxabiratı bilmərrə kəsilmişdi. Dövlətin ən artıq möhtac olduğu maliyyə naminə heç bir şeyi yox idi. Dövlət makinasını təşkil edən idarələrin həpsi dağılmışdı, xidmətçilər qaçmışdı, idarələrin bəzilərinin adı var idisə, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun veriyordu. Hər kəs özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təşkil edib məmləkətin müqəddəratını ona tapşırdı... Fəqət bununla bərabər daxili işlər o qədər pərişan idi ki, hökumət daxilində qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz var idi, nə silahımız.

7 dekabr 1918-ci il.



Azərbaycana müxtəlif ixtisaslı kadrlar lazım idi. Bunsuz Respublikanı inkişaf etdirmək olmazdı. Bu zaman Azərbaycan Parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün müxtəlif ölkələrə göndərilmək haqqında qanun qəbul etdi. Bu işin xüsusi əhəmiyyəti bir də onda idi ki, M.Ə.Rəsulzadənin başçılığı ilə Mehdi bəy Hacinski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Adil bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaradılmışdır. Həmin komissiyanın qərarına əsasən ali təhsil almaq üçün 45 nəfər Fransaya, 23 nəfər İtaliyaya, 10 nəfər İngiltərəyə, 9 nəfər Türkiyəyə göndərildi. Rusiyanın mədəni mərkəzlərində təhsil almaq üçün 13 nəfər seçilmişdir. Lakin orada vətəndaş müharibəsi getdiyinə görə bunlar həmin vaxtı oxumaya gedə bilmədilər.

**M.Ə.Rəsulzadə:**

"Nə millət var, nə də dövlət. Bu ancaq çalışan kütlələri kullanmaq üçün kapitalist ideoloqları tərəfindən uydurulmuş bir yalandır. Var olan siniflərdir. Liberal dövlət kapitalistlərin hakimiyyətini örtmək üçün, üzünə vətən, istiqlal və vətəndaş hürriyyəti maskası taxmış sinif hakimiyyətindən başqa bir bir şey deyildir". Hökumət, demək, Leninin təbirincə, həddi zatında bir sinfin digər sinifləri əzmək və kəndinə tabe etmək üçün qurmuş olduğu cəbr makinasından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə, əmələnin nə vətəni var, nə də milləti. Vətən və millət hissindən məhrum olan bu yeni insanlar zümrəsi-proletaryat-burjua "diktatorluqların" devirərək, kəndi hakimiyyətini quracaq və tədriclə bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaqmış.

Hürriyyət və mülkiyyət prinsipləri üzərində qurulan mədəniyyəti bütün əsərləri ilə inkara qalxışan bu müfrit cərəyan, yeni bir absolyutizm (mütləqiyyət) idealı doğruyor ki, onun ən kamil və ən amansız mümməssili **kommunizm** və Rusiyadakı **Bolşevizmdir.**

**"Milli təsanüd" məqaləsi, "Azərbaycan" jurnalı, Ankara, 1953, N12.**



# MÜNDƏRİCAT

GİRİŞ ƏVƏZİ ........ 5
MƏMMƏD ƏMİN RƏSULZADƏ ........ 17
POETİK YARADICILIĞI ........ 21
TƏRCÜMƏÇİLİK FƏALİYYƏTİ ........ 31
DRAMATURJİ YARADICILIĞI ........ 41
NƏ MÜTLƏQ LİBERALİZM, NƏ DƏ MÜTLƏQ KOLLEKTİVİZM ........ 54
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ........ 77
MƏLƏKLƏRİN GÜLÜŞÜNDƏN YARANAN İLK DÖVLƏTİM ........ 80
XX ƏSRİN QORXUNC ADAMI HAQQINDA HƏQİQƏT ........ 100
"MÜSAVAT" PARTİYASININ TARİXİ ........ 108
M.Ə.RƏSULZADƏ ADAM ÖLDÜRƏN OLMAMIŞDIR ........ 119
"TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ VƏ MÜASİRLƏŞMƏK" ........ 126

Şamil Qurbanov.
**Məmməd Əmin Rəsulzadə.**
*Bakı, Nurlan, 2001, 132 səh.*

Operator və bilgisayar tərtibi:
Rəhimov Əjdər

Yığılmağa verilib 12.11.2001.
Çapa imzalanıb 10.12.2001.
Format 70x80 1/32. Həcmi 8,2 ç.v.
Sayı 1000. Sifariş 464.

Qiyməti razılaşma yolu ilə

Kitab "Nurlan" Nəşriyyat-Poliqrafiya
Mərkəzində çapa imzalanıb.